# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

## VIII





# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

***(Son illərdə yazılmış, müvafiq cildlərə düşməyən və yenidən işlənən şeirlər)***

**On iki cilddə**

# VIII *cild*

Bakı - 2009
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə. Əsərləri. On iki cilddə. VIII cild (Son illərdə yazılmış, müvafiq cildlərə düşməyən və yenidən işlənən şeirlər).** - Bakı, "Elm" nəşriyyatı, 2009. - 518 s.

İSBN 978-99528108-3-8

V $\frac{4702060000}{665\ (08)\ -\ 2009}$ Qrifli nəşr

© B.Vahabzadə - 2009

# İNSAN ZAMANLA BARIŞMAZSA...

**Bilmir məramını nə ilk, nə də son,**
**İlki bizə məlum, bəs sonu nəymiş?**
**Kim bilir haradır yönü son yolun?**
**Taleyin qurduğu oyunu nəymiş?**

***(«Hər gün bir addım» şeirindən)***

***Bəxtiyar Vahabzadə*** *bütün yaradıcılığı boyu zamanla çarpışıb, fələyin gərdişlərinə qarşı çıxıb, insanlığın tale yüklü problemlərinin çözülməsinə çalışıb. Qələmini süngüyə çevirib, sözlərinə od-alov qatıb. Yaşantılarında rastlaşdığı, xeyrinə işləyən mühüm hadisələri və iqtidarları hamı kimi mədh etməyib. Ancaq bayatı duyğusunun ülviliyindən, Üzeyir bəy, Sabir, Nizami, Füzuli, Mirzə Cəlil, Dədə Qorqud dühasından danışanda dilinə tərif gətirib. Müstəqilliyə, azadlığa can atıb. Narahatlığı bitib-tükənməyib. Həyatı boyu özündən narazı qalıb. Olub-keçənləri haqqın dəyirmanında üyüdəndən sonra misralarına qatıb. O, sanki sözü köləlikdən qurtarmaq missiyasını yerinə yetirmək məqsədilə dünyaya gəlib. Şairin külliyatının 8 cildini (hər kitab 550-650 səhifə) poeziyası – "Əlvan çiçəklər", "İnsan və zaman", "Həsrət nəğmələri", "Nəğmələr", "Qəzəllər, qoşmalar, gəraylılar", "Səyahət dəftərindən", "Uşaq və məktəb şeirləri", "Poemalar" başlıqları altında toplanan şeir və poemalar təşkil edir. Ümumilikdə bu bədii əsərləri nəzərdən keçirəndə B.Vahabzadənin İnsanlıq üçün daim Zaman və Fələklə mübarizə apardığının şahidi oluruq. O, bədii sözü iqtidarların təsir dairəsindən tamam uzaqlaşdırıb, mədhiyyəçilikdən, şablonçuluqdan, şüarçılıqdan, pafosdan qurtarıb. Bəşər oğlunun ən ümdə hiss və həyəcanlarını, ülvi duyğularını tərənnüm edərək ədəbiyyatın güc və qüdrətini təzədən özünə qaytarıb, nəticədə iki əsrin qovuşuğunun ən narahat, gözlənilməz, üsyankar, humanist, milli, yurdsevər, fəlsəfi şairi kimi təsdiqlənib. Kökə*

*qayıdış, milli ruhun oyanması, ana dilinin qorunması, xalqının mənəvi sərvətlərinin üzə çıxarılması və tarixinin qaranlıq səhifələrinin aşkarlanması kimi məsələləri həmişə gündəmə gətirməyi özünün vətəndaşlıq borcu sayıb. Poeziyanı insanları qəflət yuxusundan oyatmaq vasitəsinə çevirdiyindən "təhlükəli adamlar" siyahısına salınıb. Onu hədə-qorxu ilə susdurmaq mümkün olmadıqda "öz tərəflərinə" çəkməyə çalışıblar. Zaman B.Vahabzadənin xeyirinə işləyib...*

*Şairin yaşadığı dövr tarixin ləkəli mərhələlərindən biridir. Üç min illik uzun və şərəfli yol qət etmiş Azərbaycan ədəbiyyatında məhz XX əsr daha çox böhranları, təzadları ilə yadda qalıb. Doğrudur, bəşər oğlu dünyanı dərk etməyə başladığı andan əksliklər burulğanına düşüb, işıq - qaranlıq, gündüz - gecə, isti - soyuq, həyat - ölüm, ədalət - zülm, xeyir - şər qarşıdurmaları ilə üz-üzə dayanıb. Ana Təbiətin səxavətindən, bərəkətindən, barından faydalanan İnsan onun sərtliyindən, fəlakətlərindən yaxa qurtarmağa can atıb. Haqqa tapınaraq qorxusunu udub, bütün gücünü toplayıb həyatın mənasını nələrdə axtarmayıb ki... Ulu əcdad insanlığını anlayandan başı böyük bəlalarda, qalmaqallarda olub, şaqqalanıb, dərisi soyulub... Zamanla ayaqlaşmağa can atıb, sözün qüdrətinə sığınaraq ürəklərdəki buzları qırıb, dəmir dağları əridib, qayalar çapıb. Babalarımız zamanla, təbiətlə və iç dünyası ilə baş-başa qalanda da qılıncdan, top-tüfəngdən çox Tanrıya pənah aparıb. Azərbaycanın saz-söz ustaları və qələm sahibləri həmişə insanlığa böyük önəm verib, bəşər oğlunu yer üzünün əşrəfi, Yaradıcının zərrəsi, haqqa doğru uzanan yolun daimi yolçusu, işığın, istiliyin, xeyirin daşıyıcısı kimi dəyərləndirib, qaranlığa, şərə, zalımlığa meyllilərin haqq yoluna dönəcəklərinə ümid bəsləyib.*

*XX əsrin 20-ci illərindən sonra sosial ədalət bayrağı altında hamını bərabərləşdirməyə can atanlar nəticədə insanlığı şərəfsizcəsinə aldatmağı bacardılar. Ən ümdə şeyləri – kökünü, soyunu, özünü, millətini, xalqının tarixini, dilini, torpağını, yurdunu, ata-baba mülkünü, ulu əcdaddan qalan peşələri sevməyi yasaqladılar. Düşünən beyinləri iç dünyasından uzaq salıb beş-on siyasətbazın qoyduğu qayda-qanunların əsiri etdilər.*

*Ədəbiyyat bütün zamanlarda mənəvi aləmin aynası olub.*

*Kommunistlər isə iç dünyasına, özünüdərkə əsas vəsiqəni təmin edən amillərin, hətta dinin də üstündən xətt çəkdilər, ayrı-ayrı xalqların mühüm tarixi-mənəvi dəyərlərinə "millətçilik" damğası basaraq arxivlərə atdılar. Guya Dədə Qorquq türk xalqlarının qəhrəmanlıq salnaməsi, müdriklik zirvəsi deyilmiş, keçmişin əsarətində saxlamaqla insanların inkişafına maneçilik törədən "şovinist" söz yığınağı imiş. Və Sovet imperiyası Cəfər Cabbarlı kimi istedadın cavan yaşlarında ürəyini partlatdı. Hüseyn Cavidi, Mikayıl Müşfiqi, Salman Mümtazı, Heydər Hüseynovu həbsxanalarda çürütdü. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mehdi Hüseyn dühasını çaşdırdı. Neçə-neçə istedad kommunist partiyasının köləsinə çevrildi. Yaradıcı insanların çoxu zamanla barışdılar və bədii sözü hakim ideyanın xidmətinə yönəldib ancaq öz şan-şöhrətlərinin, güzaranlarının qayğısına qaldılar. Dünyanın bir rəngdə göstərilməsi İnsanlığın mizan-tərəzisini pozdu. Zamanın oyunlarına aldananlar kommunist partiyasını "bəşərin vicdanı, eşqi, düşüncəsi.., əzəl mübtədası..." (S.Vurğun), "ürəyi, canı" (S.Rüstəm), şər xislətli Lenini və cəllad Stalini isə insaniyyətin nişanəsi, ən kamili, mükəmməli (R.Rza) saymaqla özlərini də, soydaşlarını da manqurtlaşdırdılar. İndi yeni yüzilliyin başlanğıcında ötən əsrin ədəbiyyatına nəzər salanda bütün zamanlarda yaşamağa qadir neçə-neçə fövqəladə istedadın yaratdıqları şablon əsərlər adamı ancaq təəssüfləndirir. Dövranın haqsızlıqları ilə barışanlarla zaman əslində çox amansız rəftar etdi. Heç 50 il keçmədi, tarixin mühakiməsində ələkdən keçirildilər. Bir vaxtlar böyükdən kiçiyə hamının məcburi şəkildə öyrəndiyi, yüksək dövlət mükafatlarına layiq bilinən şeirlər, poemalar bu günün prizmasında çox cılız görünmürmü? Öz dövrünün karikaturası təsiri bağışlamırmı, gülüş, istehza və hiddət doğurmurmu? Zaman ötdükcə həmin əsərlər ancaq İnsanlığın maymaqlığını əks etdirən dəlillər kimi xatırlanacaq. Nə yaxşı ki, o vaxtlar S.Vurğun Azərbaycana "yurdum, yuvam, məskənimsən" deməyə, R.Rza birrəngli ölkəsindən boylanıb dünyadakı bütün rənglərin varlığını təsdiqləməyə özündə cəsarət tapdı...*

*Bəxtiyar Vahabzadə isə kommunizmin iri addımlarla irəlilədiyi çağlarda "yolunu azdı", "Gülüstan" harayını" saldı, dilinin, soyunun təəssübünü çəkdi. İnsanı dövrün amansız mənganəsindən qurtarıb bö-*

*yüklüyünü, aqilliyini, mübarizliyini göstərdi. Dünyanın ağrı-acılarını, ağlığını, qaralığını danmadı. Son beş il ərzində qələmə aldığı əsərlərdə özünü, yaşıdlarını mühakimə etməyə başladı, İnsanlığın səhvlərini boynuna almaqla kifayətlənmədi, yolunu azmışları müdrik ağsaqqal kimi tənbehləyib haqqa qaytarmağa cəhd göstərdi.*

*Dünyanın hər üzünü görüb haqsızlıqlara üsyan qaldıran, insanlığın bəşəri hiss və duyğularını, arzu və istəklərini buxovlayanlara qarşı savaşan, ən ülvi hisslərə, duyğulara nəğmələr qoşan, haqqın, ədalətin carçısına çevrilən şair yaşının müdriklik çağında ötənlərə nəzər salaraq düşüncələrə dalır. Bu halında insan həmişə görmək istədiklərini yerinə yetirməyə vaxt qalmadığından şikayətlənir və Allahdan bir ömür payı da istəyir. Lakin B.Vahabzadə bütün yaradıcılığı boyu realist olub, heç vaxt mümkünsüz şeylərdən yapışmayıb, xəyalpərəstliklə barışmayıb. Ona görə də Yaradıcıdan qismətindən artıq heç nə istəmir və günahlarını üzə çıxardıb etiraf etməklə iç dünyasını təmizləməyə can atır. Onun ən böyük arzusu bir az da macal qazanmaqdır.*

**Bir az da macal ver mənə əcəldən,**
**Hələ görülməli çox işlərim var.**
**Hələ bu dünyadan doymamışam mən**
**İstək çox, arzu çox, ürək gen, vaxt dar.**
**Hələ gileyliyəm özüm özümdən.**
***(“Ölümlə üz-üzə” şeirindən)***

*Unutqanlığı xalqının başına böyük müsibətlər açmışdı. Özünün yaddan çıxarılması ürəyini göynətsə də, düşmənin şər xislətinin xatirələrdən silinməsini hiss edəndə əlləri həyatdan üzülürdü. Bir də bədənində tibbi əməliyyatlar aparılması ona əzab verəndə yaşamaqdan bezdiyini dilinə gətirirdi. Şair ağrılardan təngə gəlib yazıb-yarada bilməməyinə görə narahatlıq keçirirdi. Masa arxasında əyləşib qələmini işlətməyə özündə güc tapanda isə yenə böyük şövqlə yarımçıq qalmış işlərini tamamlamağa başlayırdı.*

*İnsanlığın itməsinin səbəblərini arayan B.Vahabzadə unutqanlıqla rastlaşdığından alın yazısının əvvəldən pis cızıldığını düşünür:*

**Bilmədik, dünyaya gəlmədən öncə**
**Biz tələ qurbanı, dünya tələymiş -**
**Biz hardan biləydik, qədər beləymiş.**
***("Tələ" seirindən)***

*Bu, onun təslimçiliyidirmi? Yox, özünüdərkdə buraxdığı səhvlərin acizanə etirafıdır.*

*Əslində, unutqanlığı türkün ən böyük bəlasıdır: mənfur qonşular XX əsrin əvvəllərində də haqqımızı tapdalamışdılar, hiylə və məkrlə torpaqlarımızı ələ keçirmişdilər. Qırğınlar törətmiş, hamilə qadınlarımızı, körpələrimizi qətlə yetirmişdilər.*

*Üstündən 10 – 15 il ötmədi, təzədən heç nə olmayıbmış kimi onları bağrımıza basdıq, süfrəmizin başında əyləşdirdik. Erməninin burnunun qanamasını ustalıqla "genosid" adlandırıb əsrlər boyu dünyanın gözünə soxmasına isə acıdıq, yalanlarının arxasında məkrli niyyət durduğunu ağlımıza gətirmədik. Zaman arxada qaldıqca faciələrimizi tamam unutduq və özümüz də erməni şivəninə inanıb yas qurduq. B.Vahabzadə xalqının unutqanlığını aradan qaldırmağa, sözlə, şeirlə yaddaşların donunu açmağa çalışırdı.*

*İnsan yaşlaşdıqca Tanrıya yaxınlaşır, əməllərinin haqq-hesabını aparır. Şair bu bəşəri duyğuya toxunanda belə özünəməxsus münasibət nümayiş etdirir:*

**"Ulu Tanrım, əfv et", - deyə**
**Əllərimi açdım göyə.**
**Qarış-qarış, addım-addım**
**Etirafa gəlib çatdım.**
**Son zirvəni, tam tövbəni**
**Bacarmadım.**

*Ömrün sonu yaxınlaşdıqca insanın ürəyi günahlarının bağışlanması istəyi ilə çırpınır. Düşünür ki, qarış-qarış, addım-addım geri dönsə, səhv buraxmayacaq. Şairə görə isə sona çathaçatda əvvələ qayıdıb hər işi təzədən başlamaq günahın ən böyüyüdür:*

**Bu, əvvəlki günahımdan**
**Daha betər günah olar.**
***("Amal, inam" seirindən)***

*Doğrusu, tövbə ilə haqq yoluna çıxıb haqq zirvəsinə çatmaq mümkündür.*

*İnsanın bəlalarından biri də gecikməyidir. Məqsədə, amala, mənzil başına hansı səbəbdənsə vaxtında çatmamaq uğursuzluğu damcı-damcı həyata soxmaq deməkdir. Şair də bilmədən çox şeylərə gecikib, onu ən çox üzən isə özü ilə görüşə gecikməyidir:*

**Məni vurdu gah yerə, gah da uçurdu göyə,**
**Gecikdim ömrüm boyu özümlə görüşməyə.**

*Özü ilə görüşməyinin arxasında insanın Dünyanı və Allahı dərk etməyi gizlənir. Şairin gecikdiyi şeylər sırasında isti göz yaşları və içində doğan arzulara çatmaması da var.*

**İztirablar içində yox olsam da varımdan,**
**Gecikmişəm həmişə isti göz yaşlarımdan**
**Su verib becərdiyim bəhərimə, barıma.**
**Gecikmişəm içimdə doğan arzularıma.**

*Göz yaşları nə zaman isti sayıla bilər? Şair sevincdən insanın göz bəbəklərinin islanmasınamı işarə edir? B.Vahabzadə kimi ruhu, canı, qanı ilə xalqına, torpağına bağlı adamlar ancaq Ana Vətəninin müstəqilliyə çatmasını görəndə hönkürüb gözlərindən isti yaş axıdar. Azadlığın, istiqlalın, boyunduruqsuzluğun şirinliyini dadandan sonra isə fələyin soydaşlarına qarşı nə qədər böyük haqsızlıq etdiyini anlayır, qəlbi sınır.*

*Həyatı həyatdan ummayan, ən uca, ən müqəddəs hissin başına dolanmayan başqasına gün ağlaya bilərmi? Görəsən, Allahın sevdiyi bəndəsinə pay kimi göndərdiyi, çoxlarını əzabıyla bezdirən, şairi isə qanadlandıran möhtəşəm qəm nədir? Bu, Vətən uğrunda şəhid, istiq-*

*lal savaşında qurban verməkdən doğan qəmdir. Uzaqda mələyən eşqinə çatmaq istəməyən insanın öz qəlbini küsdürüb sındırması faciədir.*

**Gecikmişəm uzaqda mələyən eşqimə də,**
**Macal da tapmamışam özümlə tək qalmağa.**
**Özümdən küsdürdüyüm sınıq, qırıq qəlbimi**
**Bir gün ələ almağa.**
***("Gecikmişəm" seirindən)***

*Amansız gerçəkliyi çox gec anlayan İnsan ona görə sarsılır ki, bu dünyanın əyrisi, düzü, Zamanla yarışda dala qalmağı ağ yalanmış! Həqiqət odur ki, dünyaya gəlməkdə gecikdiyindən taleyi ömrü boyu onu özündən ayrı salıb.*

*Ağ yalan utancaq həqiqətin qarşısında çox həyasız və abırsızmış:*

**Yalan min boyalı, gerçək boyasız.**
**Yalan – qıpqırmızı, gerçək ağ olur.**
**Yalan – qışqırıcı, yalan – həyasız,**
**Gerçəksə həmişə utancaq olur.**
***("Yalan - gerçək" şeirindın)***

*İlk dəfə babamız Zərdüşt "Avesta"da, qatlarda 2500 il qabaq ağlı-qaralı dünyanı daim işıqlı görmək uğrunda ağlın üsyanını meydana gətirdi. O, yalanı, şəri zülmətdə əbədi boğmaq uğrunda insanın min illər boyu mücadilə aparacağını elan etdi.*

*B.Vahabzadə də həqiqət axtarışına çıxan bəşər oğlunun iki aləm arasında durub sevinclə qəmi bölüşdüyünü, haqqa çatanadək məşəqqətli qaranlıqdan keçdiyini irəli sürür:*

**Varlıq-yoxluq! İnsan durub**
**İki aləm arasında.**
**Biz dünyanı dərk edirik**
**Sevinclə qəm arasında.**
***("Körpü salmaq istəyirəm" şeirindən)***

*Şair qarşıdurmalar, sonsuz təzadlar içərisində itib-batmamaqdan ötrü iki aləm arasında elə bir körpü salmaq istəyir ki, ancaq xeyir əməllilər keçə bilsinlər:*

**Orta yolu tapammırıq**
**Xeyirlə şər arasında.**
**Mən bir körpü istəyirəm**
**Göy ilə yer arasında.**
***("Körpü salmaq istəyirəm" seirindən)***

*Qaranlığın da, soyuğun da ömrü gec-tez bitir, çünki günəş əbədi yoxluğa qovuşmaq məqsədi ilə deyil, təzədən doğmaq üçün batır.*

**Yer günün başına dolanır, həm də**
**Günəşə əbədi ehtiram üçün.**
**Gələn bir xeyirdən, bir şərdən gəlir.**
**Doğuş da, batış da bir yerdən gəlir.**
***("Səhər erkən çıxır..." seirindən)***

*Bütün əksliklər arasında o səbəbdən möhkəm körpü salınmalıdır ki, qarşı-qarşıya gələn varlıqların hamısının mayası eyni xəmirdən yoğrulub, bir bətndə yetişib. Onlar gəldikləri yerə də birlikdə dönəcəklər.*

*Ölümlü dünyada yoxluğu anlamaq lap üzücüdür. Zamanın yoxluğunda itib-batmaq qorxusu adama güc gələndə dünyanı anlamaq məqsədi ilə yağdırılan sorğu-suallar bitib-tükənir:*

**Qamçı vurub sola, sağa**
**At çapardım dağdan-dağa.**
**Bu dünyanı anlamağa**
**Artıq bir sualım yoxdur.**
***("Sualım yoxdur" şeirindın)***

*Əslində suallarsız insan həyatda kor kimidir. Dünyaya yenicə göz açan körpə şüuru oyanar-oyanmaz, dili açılar-açılmaz suallar yağ-*

*dırmaqla mühitin sirlərini anlamağa can atir. Və yaşantılarının bütün mərhələlərində öyrənmək istəyi ilə sonsuz suallara cavab arayır. Ahıllaşanda sorğularının bitəcəyini düşünənlər yanılırlar. Çünki:*

**Şübhə qıfılını suallar açar,**
**Kimini açammaz,**
**Kimini açar.**
**Suallar önündə dayanıb insan,**
**Sirlər dünyasına yol açar kamal -**
**Hər daşın, hər dağın yaranışından,**
**İlki də sualdır, sonu da sual.**
***("Sualımız yoxsa..." şeirindın)***

*B.Vahabzadənin suala müdriklik yaşında bir silsilə əsər həsr etməsi təsadüfi deyil. "Sualım yoxdur", "Hardan bilək", "Özüm suala döndüm", "Əyribel suallar", "Hardan biləydim", "Neylim?", "Nədir etiraf?", "Cavabsız sual", "Görən niyə təklənirəm?", "Eyni ola bilərmi?", "Sualımız yoxsa..." kimi şeirlərinin yaranma tarixi son 3-4 ildən uzağa getmir. Şair suallara cavab tapdıqca daha çox sirrlə qarşılaşır. İnsan yaşadıqca görür ki:*

**Şiş dağlar sualdır, gen düzlər cavab,**
**Gecələr sualdır, gündüzlər cavab.**
**Çıxıb axtarışa uçur xəyallar,**
**Hər böyük uçuşun dayağı yerdir.**
**Ağıldan fışqıran min-min suallar**
**Gerçəyə açılan pəncərələrdir.**
***("Sualımız yoxsa..." şeirindın)***

*Ən güclü insan da suallar qarşısında diz çökür. Lap başlanğıcdan bəşər oğlunun dəyəri, qyməti cavablarıyla ölçülür. Ulularımız yaratdıqları nağıllarda qəhrəmanlar suallara düzgün cavab tapmaqla ölkəni əsarətdən qurtarırlar. "Dara çəkərdilər suallar bizi" – deyən B.Vahabzadə görün ancaq özünə verdiyi sualları necə mənalandırır:*

**Özümə verdiyim öz suallarım**
**Həyatın özütək cavabsız qalır.**

*Zülməti işığa çevirmək üçün sualdan ulduza, aya tor atan Adəm övladının sualsız qalması dünyanı məhvə gətirib çıxardardı:*

**Sualımız yoxsa əgər dünyaya**
**Nə özümüz varıq, nə də dünya var.**
***(“Sualımız yoxsa...” şeirindın)***

*Polşada təbəssümə görə xüsusi ordenin təsis edilməsi şairi duyğulandırır. Polyakları alqışlayaraq bu qənaətə gəlir ki, insanlığın mühüm cəhəti başqalarına sevinc paylamaq, kindən, qəzəbdən uzaq yaşamaq, özgə bostanına daş atmamaq, tikə bilmədiyi bir qəlbi yıxmamaqdır. Dünyanın min rəngli görünüşündə bir sifətli qalıb günaha batmayanların -*

**Özgəyə təbəssüm paylayanların**
**Təbəssüm ordeni yanır döşündə.**
***(“Təbəssüm ordeni” seirindən)***

*Xalqın müdrik kəlamlarının B.Vahabzadə poeziyasında mənalandırılmasına diqqət yetirək: “Göy üzü damar-damar, Göydən yerə nur damar” –atalar sözündən təsirlənən şair göydən yerə axan nuru görməməsinə təəssüflənir.*

**“Xalq hikməti heç zaman yanlış olammaz” -**
**deyə**
**Bir daha baxdım göyə.**
**Gördüm, vızıltılarla uçan bir anaş arı**
**Qondu gül ləçəyinə.**
**Düşündüm: „Bu arının məramı nə, qəsdi nə?”**
**Qızıl gül dilə gəldi**
**(Ya mənə elə gəldi).**

**„Göydən enən o nuru görə bilməkçün sənə**
**Üçüncü göz gərəkdir”.**

*Şeirin poetik sistemində gercəkliklə fantaziya vəhdətdə verilir, alleqoriya, təmsilçilik ünsürlərindən istifadə edilir. Üçüncü göz əslində insanın təbiətin füsunkarlığını və məna çalarlarını anlamasıdır. B.Vahabzadə "qəlbin gözü" adlandırdığı "üçüncü göz"lə insan gecələrin gündüzləşməsinə, mənaların açılmasına heyranlıqla baxa bilər.*

**O göz ilə baxanda mən yalnız üzü deyil,**
**Həm də özü görürəm.**
**Birə baxıb o birin arxasında gizlənən**
**Onu, yüzü görürəm.**
***(“Üçüncü göz – könül gözü” şeirindən)***

*Könül gözü ilə baxanda İnsan onu da görür ki, dünya dayanmadan gedən bir qatar, adamlar isə o qatarın əbədi sərnişinləridir.*

**Harda dayanacaq, görən, bu qatar?**
**Bunları dərk edib çözələməyə**
**Nə mənim, nə sənin ağlımız çatar.**
***(“Dünya bir qatar” şeirindən)***

*Yer qatarından heç kəsin düşməməsini istəyən şair insanların şərə meylliyi ilə heç vaxt barışmır və təkliyindən ona görə qorxur ki, ürəyindən keçənləri anlada bilməyəcək, özü ilə sonsuzluğa aparacaq:*

**Taleyim tikmişdi ömür mülkümü,**
**Qorxuram, dağıdam, özüm sökəm mən.**
***(“Təkəm mən” şeirindən)***

*Ümid işığa bənzəyir, bitib-tükənərsə aləmi zülmət bürüyər, yoxluğun dövranı gələr.*

**Dünya cəfasından, cövründən toxam,**
**Ümidim ölərsə, demək, mən yoxam.**
***("Yuxu" seirindən)***

*İnsan zamanla barışar-barışmaz etirafa başlayır. Həmişə özündən narazı qalan B.Vahabzadə son danlağını özünə ünvanlayır:*

**Mən baxmadım nə yada, nə həmdəmə,**
**Nöqsanımı faş elədim aləmə,**
**Hey danladım öz-özümü...**
**heç demə**
**Mərdliyim də etirafa qədərmiş...**
***("Nədir etiraf?" şeirindən)***

*Poetik sözün əbədiliyi etiraf və tövbədən sonra başlayır. İnsanların qəlbini isitmək üçün yazılan seir o zaman uzun ömürlü olur ki, hər şey könül gözüylə görünub tərənnün edilir, bütün rənglər bəzək-düzəksis göstərilir və onun vasitəsilə haqqın təntənəsinə inam oyadılır.*

*Şeirin fəlsəfəsində işıq, istilik, şəfqət, ülvilik tapan B.Vahabzadə bir məsələdə bəlkə də yanılır: onun mərdliyi elə bir möhürdür ki, illəri, əsrləri arxada qoyaraq həmişə xatırlanacaq, istiqlal mücadiləsinin tarixi yazılanda adı qızıl hərflərlə həkk olunacaq.*

*Hamını və hər şeyi içində əridən Zaman və Fələk ona qalib gəlmədi. Çılğınlığından istifadə edib bəzən ensə də, şairi yoxluğa qovuşdurmağa güc çatdırmadı. "Sən yanmasan, mən yanmasam, o yanmasa, Necə çıxar qaranlıqlar aydınlığa?" - sorğusu qarşısında cavabsız qalıb öz axarına qatdı. Zaman B.Vahabzadəni daim özü ilə aparacaq. Sonralar onun neçə-neçə sorğusuna da cavab tapılacaq. Daim xeyirlə şər arasında yetim ürəyinin səsini dinlətməyə can atan B.Vahabzadəni min illər keçsə də, dinləyəcəklər. Çünki o sözə möhtəşəm heykəl qoymağı bacarıb.*

***Ramazan Qafarlı***

# ƏLVAN ÇİÇƏKLƏR



*Sənziz mənim üçün bomboşdu dünyam,*
*Səninlə göylərə uçuşdu dünyam.*
*Sənsiz başdan-başa yoxuşdu dünyam,*
*Səninlə ən gözəl, ən xoşdu dünyam.*



## SALAM OLSUN BAHARA

Ey mənim əzizlərim,
Sizin üzünüzdədir daim mənim gözlərim;
Oxumaq istəyirəm mən öz hal-əhvalımı
Sizin üzünüzdəki o xəfif kölgələrdən.
Nə qədər zilləsəm də gözlərimi,
amma mən
Bir şey duya bilmirəm, -
Kölgələrin sirrini heç oxuya bilmirəm.

Bəlkə şıltaqlığımla incidirəm mən sizi?
Aman günü, çəkməyin üstümdən
kölgənizi.

Ey mənim əzizlərim,
Çəkdiyiniz zəhməti halal edin siz mənə;
O isti qayğılardan dərman verdiniz mənə.
Sağalsam, sanaram ki, daha
mənə ölüm yox,
Başqa bir müşkülüm yox.

Xatırlayıb yaşanan uzun, xoşbəxt illəri
Vicdan tərəzisində çəkirəm xeyri, şəri:
Bax, bu qaram, bu ağım,
Bir sorun, sizdən mənim nə imiş
umacağım?
Mehribanlıq, təbəssüm, xoş qılıq,
bir xoş sifət, -
Bir də... bir az məhəbbət!

Hərdən yalqız qalanda baxıram
sol-sağıma, -
Yox, inana bilmirəm mənim
sağ olmağıma.
Məni soyuq tər basır, əsir dilim,
dodağım -
Fikirlərim qarışıq, ürəyim lağım-lağım.
Hərdən durub xəlvəti boylanıram aynaya:
Tanımıram özümü, vallah,
bu boyda dünya
Ürəyimə dar gəlir;
İçimdəki tufanı yatırtmağın özü də
Mənə bir az ar gəlir.

Yad edin tez-tez məni!..
Qoymayın yalqız məni...
Böhranlı anlarımda tanıya bilmədiyim
Gözlər zillənir mənə –
Düşürəm bir anlığa bu gözlərin sehrinə.
Öz-özümü danıram,
Özümdən xoflanıram.

Ey mənim əzizlərim,
Şirin-şirin söz ilə gəlin, aldadın məni -
Öldürün içimdəki ölüm adlı düşməni.

Qoymayın yalqız məni!..
Bəlkə can verirəm mən, özümdən
xəbərim yox,
Ola bilməz mənim ki, bir ağrıyan yerim yox.
Nədir məni qorxudan? Üşüyürəm...
Bu nədir?

İndi ölüm bəlkə də lap mənim
böyrümdədir?
Sən ey mənim əzizim -
Ölümün də sahibi, dirimin də sahibi -
Sən mənim hər dərdimə qalırsan ana kimi,
Göz qırpmayıb gecələr
Keşiyimi çəkirsən sən mənim sübhə qədər.

Bu yataqdan qalxmağa ümid varmı
görəsən?
Ey Allahım kömək ol, necə
xilas olum mən
Ölüm hədələrindən?
Cavab sualdan betər, sual cavabdan betər!
İlan kimi qıvrılır ürəyimdə şübhələr.
Ölüm ki var, min adlı, həm də
min sifətlidir -
Onun özündən də çox, qorxusu
dəhşətlidir.

Öz hökmü var anın da...
Beləcə çırpınarkən fikir burulğanında
Gəldi qulaqlarıma bayırdan bir
quş səsi -
Bəlkə elə bu səsdir xilasımın çarəsi?
Həyat səsidir bu səs, ölüm hara,
mən hara?!
Qarşıdan bahar gəlir,
Salam olsun bahara.

*7 may 2006*

## ƏL AÇDIQ GÖYLƏRƏ

Nə vaxtdan ölçüldü vaxt zaman ilə?
Dünya gözəlləşdi ilk insan ilə.
İnsan sonsuz eşqin qadir səsidir,
Allahın yerdəki xəlifəsidir.

Bir yerdə həyatın zövqünü daddıq,
Çalışdıq, gecəni gündüzə qatdıq.
Allahın verdiyi ağlın gücüylə
Bomboş yer üstündə dünya yaratdıq.

Biz uca göylərdən gəldiyimizdən
Sığmadıq hüdudu bilinən yerə.
Dünya dərdimizi sormadı bizdən,
Əl açdı imdadçün insan göylərə.

*Oktyabr 2005*

## İKİ SƏYAHƏT

O, təyyarə ilə sərhədlər aşdı,
Bir ilə dünyanı gəzdi, dolaşdı.
Mən də dünən gecə səhərə kimi
Çıxdım səyahətə öz ürəyimi.
Bir saat ərzində mən dönə-dönə
Daldım ürəyimin dərinliyinə.
Qəlbimdə qütblər durdu üzbəüz –
Solla sağ, düzlə dağ, gecəylə gündüz.
Biri təsdiq edir, o biri inkar.
Anlaya bilmədim, bu zidd duyğular
Nədir ürəkdə?
Çaldıran döyüşü gedir ürəkdə.
Vuran da özüməm, ölən də özüm,
Ağlayan da özüm, gülən də özüm.

Nə etmək? Dünyanın xeyri-şəri var,
Qəlbimin qəribə şəhərləri var:
Məhəbbət şəhəri, nifrət şəhəri,
Ehtiyat şəhəri, cürət şəhəri,
Məlamət şəhəri, firqət şəhəri,
Görüşlər şəhəri, həsrət şəhəri,
Mərhəmət şəhəri, şəfqət şəhəri,
Hansısa bir hissə sərhəd şəhəri.
Qalalı şəhərlər, bürclü şəhərlər
Biri digərinə zidd olsalar da,
Biri digərinə borclu şəhərlər.
Gəzirəm birbəbir şəhərləri mən,

Doymuram maraqlı səyahətimdən.
Sevgi şəhərində duruxdum bir an,
Həqiqət utandı xəyallarımdan.
Fikirlər əlində haçalanıram
Onu qəbul edir, bunu danıram.
Biri gülür, biri qaşqabaqlıdır.
Savaş məqamında bilmək çətindir
Hansı günahkardır, hansı haqlıdır?
Bir onu bildim ki, dünyanı gəzən
Qayıtdı bir illik səyahətindən.
Heç yorulmadı,
Ömründən verdiyi o bir ilə də
Peşman olmadı.
Mən də qəlbimdəki bürc şəhərləri,
Qala şəhərləri
                    gecə sübhədək
Hey ələk-vələk
                    edib dolaşdım,
Qayıtdım geri.
Öz könül dünyamdan xəbərdar oldum,
Amma yoruldum.
Qəsdində doyumsuz bir səyyah kimi,
Ö, dünyanı gəzdi, mən öz qəlbimi.
Görünən dünyanı o, gəzdi, gördü
İki ayağıyla, iki gözüylə,
Üz-üzə gəlmədi özü özüylə.
Xəyal köhlənində qanad açaraq
Görünməz dünyanı mən gəzdim ancaq
Hissimlə, fəhmimlə, könül gözümlə,
Dayandım üz-üzə özüm-özümlə.
O, nəyi öyrəndi, deyəmmirəm mən,

Dünyanı bir illik səyahətindən.
Xeyrimi, şərimi çözələdim mən,
Öz könül dünyamı kəşf elədim mən.
Özümü tanıdım, bildim, nəhayət,
Özünü görməkdir qəlbə səyahət.

*12 noyabr 2005*

## GÜLÜSTAN - QARABAĞ

*Qarabağlı dostum, mərhum Xudu*
*Məmmədovum əziz xatirəsinə*

Qarabağ qəsb oldu, Qarabağ əhli
Yurdun hər yerinə səpələndilər.
Bu dərddən büküldü millətin beli,
Bu da başqa qəza, başqa bir qədər!
Gözləri yollarda, sinəsi dağ-dağ
Bizdən imdad umdu o dərdli torpaq.
Naləsi, fəryadı aləmi sardı,
Torpaq dilə gəldi, fəryad qopardı:
- Kömək əlinizi uzadın mənə!
Həddini bildirin zalım düşmənə!

* * *

Başının üstündə yırtıq damları,
Aranda yaşadı dağ adamları.
Qarabağ ləhcəsi, Qarabağ səsi
Aran bürküsündə dərbədər oldu.
Bulandı dağların büllur çeşməsi,
Tanrının qurduğu nizam pozuldu.
Bölünə-bölünə kiçildi Vətən,
Sinəsi dağlanan, gözü yol çəkən
Qarabağ hələ də gözləyir bizi,
Gözləyir dadına yetməyimizi.
İllər uzandıqca səbr qısaldı,
Qarabağın gözü yollarda qaldı.
Bu yerdə "Gülüstan" düşdü yadıma,

Ağır daş bağlandı qol-qanadıma.
“Gülüstan” sazişi bir qandal kimi
Keçdi qolumuza, biz məhkum olduq.
Əsir Qarabağım köhnə dərdimi
Sızlatdı, biz təzə dərdə tutulduq.

* * *

Səfərə çıxmışıq, Şəkidən birbaş
Üzü Qarabağa sürdük maşını.
Gördüm ki, yol boyu sürücü qardaş,
Gizlədə bilməyir öz təlaşını.

Yol boyu ağrıyla dünəni andıq,
Aşağı Qərvənddə gəlib dayandıq.
Halal torpağımda burdan o yana
Keçməyə yox bizim ixtiyarımız.
Bizə həsrət qalıb öz diyarımız.

Aşağı Qərvənddə durub yad kimi
Yuxarı Qərvəndə boylanan olduq.
Bizdən nicat uman əsir ananın
Halına uzaqdan biz yanan olduq.

Bir adlı bu kəndim, o toya həsrət!
Bu bir həqiqətdir, acı həqiqət!
Amma hər həqiqət, hər doğru haqmı?
Bu acı gerçəklə barışmışıq biz,
Dədələrin ruhu barışacaqmı?
Bu ağır suala sabah yox, bu gün
Cavab verməlidir hər nəfərimiz.

*Fevral 2006*

## ÜMİD, XƏYAL

Bir yuxu görmüşdüm, şirin bir yuxu,
Bu şirin yuxunun həsrətilə də
Gəlib keçdi mənim ömrümün çoxu.
Yuxu bir arzuydu, arzum gülmədi,
Amma ümiddən də əl üzülmədi.
Gözlədim arzumun gələcəyini,
Ümidim yaşatdı, ümidim məni.
Ümidlə, xəyalla çatdım bu yaşa,
Ey məni yaşadan ümidim, yaşa!

Dünya cəfasından, cövründən toxam,
Ümidim ölərsə, mən də heç yoxam.
Ümid çin olmadı, mən çin-çin oldum,
Ümidlə xəyalla mən təskin oldum.
Xəyal dünyasında qış bahar imiş,
Yaxşı ki, insanın arzularını
Gerçəyə döndərən xəyal var imiş.

Xəyaldan gerçəyi uman yanılmış,
Qəlbin ümidgahı diləkləriymiş.
Xəyal sevənlərin ən inanılmış,
Ən gözəl, ən şirin görüş yeriymiş.

*Fevral 2006*

## SƏSİNİ EŞİTDİM...

Səsini eşitdim telefonda mən,
Dünya mənim üçün cənnətə döndü.
Səsinin sövdalı titrəyişindən
Otaq da yaşıla, ala büründü.

Sənziz mənim üçün bomboşdu dünyam,
Səninlə göylərə uçuşdu dünyam.
Sənsiz başdan-başa yoxuşdu dünyam,
Səninlə ən gözəl, ən xoşdu dünyam.

Sənsiz daş-kəsəkli yoldu bu dünya,
Sənin gəlişinlə doldu bu dünya.
Səninlə özünü buldu bu dünya,
Sənsiz bir andaca boşaldı dünya!
Sən gəldin, yaz gəldi, yaşıldı dünya.

*İyul 2008*

## KÖRPÜ SALMAQ İSTƏYİRƏM

Gecələrdən qaranlığı
Boğub doğan səhər də var.
Bircə damcı sevinc ilə
Qəlb dolusu kədər də var.

Varlıq-yoxluq! İnsan durur
İki aləm arasında.
Biz dünyanı dərk edirik
Sevinclə qəm arasında.

Bəzənsə də uzun yol var
Harayla səs arasında.
Uzun-uzun yollar durur
Toy ilə yas arasında.

Biz sevincə sevinmədik
Qəm yükünü daşımadan.
Özümüzlə dərdləşmirik
Dərdimizi yaşamadan.

Bəzən olur, dayanırıq
İki yolun arasında.
İtiririk haqq yolunu
Sağla solun arasında.

Orta həddi tapammırıq
Xeyirlə şər arasında.

Körpü salmaq istəyirik
Göylə ilə yer arasında.

Müdam saat kəfkiri tək
Vurnuxuruq sola, sağa.
Ömür yoluna çıxmışıq
Həqiqəti axtarmağa.

*12 dekabr 2006*

## YALAN - GERÇƏK

Gözümdə gölləndi, gölləndi yaşlar,
Dağıldı başımdan dostlar, tanışlar.
Bədbəxtlik – ürəyə çarpaz dağ çəkən
Taleyin zamanda ekiz qardaşı!
Təklik – könül sıxan, təklik bel bükən
Dünyanın ən böyük, ən ağır daşı!

***

Yalan min boyalı, gerçək boyasız,
Yalan – qıpqırmızı, gerçək ağ olur.
Yalan – qışqırıcı, yalan – həyasız,
Gerçəksə həmişə utancaq olur.

*Aprel 2005*

***

Səhər erkən doğur, axşam gün batır,
Gün batmaqçun deyil, doğmaqçun batır.
Yer günün başına dolanır, həm də
Günəşə əbədi ehtiram üçün.
Gələn bir xeyirdən, bir şərdən gəlir.
Doğuş da, batış da bir yerdən gəlir.

*Noyabr 2005*

***

Sən elə unut ki, unutduğunu
Sənin gözlərindən oxuya bilim,
Rahat olduğunu mən duya bilim.
Gəldi bir zaman, sordum özümdən:
Gəldiyim qərara görən indi mən
Özüm inandımmı, ya inanmadım?
Hökmən atılmalı bu çətin addım!

*Oktyabr 2005*

## SUALIM YOXDUR
*(Yeni variant)*

Yazıb oxumaqdan özgə
Bir dərdim, məlalım yoxdur.
Bu dünyadan umacağım
Başqa qeylü-qalım yoxdur.

Könlümü sənətə verdim,
Mən də sevib sevilirdim.
O vaxtlar elə bilirdim
Bu dünyada ölüm yoxdur.

Yazdığım çox-çox ilim var,
Saçlarımda boz külüm var,
Ağım, qaram, yaşılım var,
Qırmızım yox, alım yoxdur.

Bəzən çiçək, bəzən yonca
Becərdim ömrüm boyunca.
Bu dünyaya bir doyunca
Baxmağa macalım yoxdur.

Qamçı vurub sola, sağa
At çapardım dağdan dağa.
Bu dünyanı anlamağa
Artıq bir sualım yoxdur.

*Noyabr 2005*

## SUALIMIZ YOXSA...

Şübhə qıfılını suallar açar,
Kimini açammaz,
Kimini açar.
Suallar önündə dayanıb insan,
Sirlər dünyasına yol açar kamal -
Hər daşın, hər dağın yaranışından
İlki də sualdır, sonu da sual.

Şiş dağlar sualdır, gen düzlər cavab,
Gecələr sualdır, gündüzlər cavab.
Çıxıb axtarışa uçur xəyallar,
Hər böyük uçuşun dayağı yerdir.
Ağıldan fışqıran min-min suallar
Gerçəyə açılan pəncərələrdir.

Suallar önündə çox donmuşuq biz,
Sual bağrımızı çox yardı bizim.
Hələ şagird ikən cavablarımız
Dönüb qiymətimiz olardı bizim.

Müəllim imlaya sual qoyardı,
Dara çəkərdilər suallar bizi.
Bizim də nə qədər sorğumuz vardı,
Cavabsız qoydular sualımızı.

Sualı sualla dilləndirmirəm,
Mən də cavabsızam o da cavabsız.

İndi mən heç kəsə sual vermirəm,
Özümə verirəm, özümə yalnız.

İndi bu dünyaya qeylü-qallarım
Nə bir sual verir, nə cavab alır.
Özümə verdiyim öz suallarım
Həyatın özütək cavabsız qalır.

Sualdan tor atdıq ulduza, aya.
Zülməti işığa çevirir onlar.
Sualımız yoxsa əgər dünyaya
Nə özümüz varıq, nə də dünya var.

*May 2005*

***

Gah güləş, gah da ki, pərişan gülüm,
Özü özü ilə vuruşan gülüm.
Uzun tərəddüdlər qaldı arxada
Qəlbi kamalıyla barışan gülüm,
Sabahını məndən soruşan gülüm.

*20 iyul 2008*

## DEMƏ, KÖNLÜMDƏYMİŞ...

Budaqdan budağa qonub mən yazıq
Bir həmdəm axtardım özümə, yarəb.
Gecikmiş olsam da, mən indi artıq
Çatmışam doğruma, düzümə, yarəb.
İndi Allahımdan əfv dilərəm,
Qibləmi sözlərə çevirir qələm.
Arzuma, eşqimə Allahdan kərəm!
Demə könlümdəymiş könül həmdəmim.
O, həm sevincimdir, həm də dərd-qəmim.

*25 avqust 2008*

## TAPINMAQ

Yaman nigaranam mən səndən yana,
Hələlik sevgini qoyaq bir yana.
Çox sınmışam, ay gülüm,
Ancaq səndə gördüyüm
ruhani kamilliyə
Tapınmışam, ay gülüm.

*Avqust 2008*

## TƏLƏ

Zövqdə, duyğuda iki yox, birik -
Biz eyni məzmunlu şeirə bənzərik.
Vəzn bir, bölgü bir, ölçülər də bir,
Nə fayda, misralar qafiyələnmir.
Yoxuşa dirənən düzə bənzərik,
Atəşi qaralan közə bənzərik.
Odumuz eynidir, közümüz eyni,
Ruhumuz, eşqimiz, sözümüz eyni.
Bunlar bir gerçəkmi, yoxsa düşüncə?
Bilmədik, dünyaya gəlmədən öncə
Biz tələ qurbanı, dünya tələymiş -
Biz hardan biləydik, qədər beləymiş.

*Yanvar 2006*

## ÇƏTİN ADDIM

Qəlbimi gəmirən tərəddüdləri
Sənə birər-birər açandan bəri
Hər gün öz-özümü danlayıram mən.
Amma çox şadam ki, qurtara bildim,
Nəhayət, çəkdiyim üzüntülərdən...
Gerçəyə əyildim, haqqa əyildim.
Bir yolluq qurtarsın o şirin nağıl.
Yaşasın hissimin od-alovunu
Söndürən ağıl!

Əfv eylə, ey gülüm, məni əfv elə,
Qalmasın istəyim daha bir gilə.
Sən elə unut ki, unutduğunu
Sənin gözlərindən oxuya bilim...
Rahat olduğunu mən duya bilim.
Keçdi bir zaman, sordum özümdən:
Verdiyin o hökmə inandınmı sən?
Xəbərin oldumu öz ürəyindən?
Ey könül, inandım, ya inanmadım,
Hökmən atılmalı bu çətin addım!

*Aprel 2008*

## SUSMAQ

İzləyir il ili, qovur gün günü:
«Danışmaq gümüşsə, susmaq qızılmış».
Zaman bu kəlamın «müdrikliyini»
Rədd edib inamla söylədi: Yanlış!

Amma bu kəlamda bir gerçək də var:
Danışmaqdan əvvəl bizim atalar
Susub dinməməyi öyrətmiş bizə.
Susmaqla nifrəti gizlətmək olar,
Susmaqla sevgini gizlətmək çətin!
Hər şeyin əvvəli sözdür, söz ancaq,
Bir sözə bağlıdır bu göy, bu torpaq.

Susub danışmamaq əgər fərz isə
Neyləyək yaxşıya daş atan kəsə?

Ürək partlamazmı məni qəhr edən
Dərdimi kimləsə bölüşdürməsəm?
Məndən kömək uman bir zavallıya
Təsəlli verməsəm, ümid verməsəm?

*May 2007*

## TƏSƏLLİM

Ayrılıq müsibət, ayrılıq zülüm!
Bu fani dünyaya, indi ay gülüm,
Sənin tellərinlə bağlanmışam mən,
Ruhum qanadlanır hər «can» sözündən.

Mən çoxdan tapmışam özümü səndə,
Məstəm, hisslərinin təlatümündən.
Dünya dərdlərindən incik düşəndə
Yeganə təsəllim sənsən, təkcə sən.

Özün bir yanasan, eşqin bir yana,
Səni hər dərdimə məlhəm bilmişəm.
Bu zalım dünyanın əzablarına
Sənə sevgim ilə üstün gəlmişəm.

*Avqust 2007*

## TƏBƏSSÜM ORDENİ*

Təbəssüm ordeni varmış, heç demə,
Bəs kimə verilir bu orden, kimə?
Nə yaxşı işçinin, nə qəhrəmanın,
Nə məslək yolunda ölən insanın
Haqqı deyil bu.
Düşün, adamsansa ilkin borcunu!

Uzaq, şərdən uzaq, riyadan uzaq
Bir bax gülüşünə gülün, gülşənin.
İnsansan, insana sevinc paylamaq,
Təbəssüm paylamaq borcundur sənin.
Yaşa kindən uzaq, qəzəbdən uzaq,
Özgə bostanına heç vaxt daş atma!
Tikə bilmədiyin bir qəlbi yıxmaq
Ən böyük günahdır,
                    Günaha batma!

Çalış, bir sifətin, bir üzün olsun
Dünyanın min rəngli görünüşündə.
Özgəyə təbəssüm paylayanların
Təbəssüm ordeni yanır döşündə.

*Mart 2007*

*Polşada “Təbəssüm ordeni” var.

## ÜÇÜNCÜ GÖZ –
## KÖNÜL GÖZÜ

“Göy üzü damar-damar,
Göydən yerə nur damar”.
Ha baxdım göy üzünə,
Nuru görə bilmədim.
„Gözlərimin işığı bəlkə azalmış» - dedim.
«Xalq hikməti heç zaman yanlış olammaz” - deyə
Bir daha baxdım göyə.
Gördüm, vızıltılarla uçan bir anaş arı
Qondu gül ləçəyinə.
Düşündüm: „Bu arının məramı nə, qəsdi nə?”
Qızıl gül dilə gəldi
(Ya mənə elə gəldi).
„Göydən enən o nuru görə bilməkçün sənə
Üçüncü göz gərəkdir”.
Göydən enən nur seli yerdə çiçək-çiçəkdir,
Gözəlliklər önündə susub heyrətdəyəm mən.
Çıxmaq da mümkün deyil, gördüyüm gözəlliyin
Sirli cazibəsindən.
Gözəlliyə heyrətim, başqa göz verdi mənə
Görmədiyim nuru da o göz göstərdi mənə.
Anladım, üçüncü göz - mənim könül gözümdür
O göz ilə baxanda gecə də gündüzümdür,
O göz ilə baxanda mən yalnız üzü deyil,
Həm də özü görürəm.
Birə baxıb o birin arxasında gizlənən
Onu, yüzü görürəm.

O göz ilə baxanda daşda da, torpaqda da,
Otda da, yarpaqda da,
Düzəndə də, dağda da,
Qarada da, ağda da
Mən özəyi görürəm.
Bu günə baxmaq ilə gələcəyi görürəm.
O göz ilə baxanda,
Heç kəsin görmədiyi bir gizli sirr görürəm.
Hələ misralanmamış nəğmə, şeir görürəm.
Bir nəğmədir, şeirdir bu dünya başdan-başa
Könül gözüylə baxsan.
Könül gözün yoxdursa, bu hikmətdən uzaqsan.

*2 yanvar 2006*

## DEMƏ, MİN RƏNGİ VARMIŞ
*(Mühakimə"dən)*

Dünya əzablarından bezikib usananda
Durar gözüm önündə dərhal sənun surətin.
Demə, min rəngi varmış arzunun, məhəbbətin.
Səni düşünən kimi
                              unuduram bir anda
Başqa qayğılarımı, başqa fikirlərimi.
İndi mənim dünyada bir dərdim bar: O da sənsən!
Yolumda mayak olub, mənə yol göstərənsən.
Bütün düşüncələrim, dərdim, arzum bir yana,
Amma sən bir yanasan.
                              İndi istəyim budur:
Ələmli günlərimdə mən səni andığım tək
Sən də məni anasan.
                              Məni doğman sanasan.
Sən yadımdan çıxmamış, yenə düşürsən yada
Şükür olsun Allaha, sən varsan bu dünyada!

*Noyabr 2006*

## GETSƏN, GƏLSƏN

Sən getdin, mənimçün bomboşdu dünya,
Sən gəldin, nə gözəl, nə xoşdu dünya.
Sən getdin, ayrıldım özüm-özümdən,
Sən gəldin, özümə qayıdıram mən.
Sən getdin, baharım dönüb qış oldu,
Sən gəldin, hər anda qış yalnış oldu.
Sən getdin, elə bil boşaldı dünya,
Sən gəldin, gül açdı, dil açdı dünya.
Mənimçün göylərə uçuşdu dünya.
Sən getsən, mənimçün zülmətdi dünya,
Gəlsən mənimçün
                    başdan-başa cənnətdi dünya.

*Avqust 2008*

## RİCA

Şirin duyğulardır qəlbin məskəni,
Mənimçin yaradıb Allahım səni.
Sən varsan, bu dünya bu aləm mənim,
Eşit, bil nə deyir ah-naləm mənim,
Ey dərin kamallı həyuləm mənim.

Əgər sən olmasan, yox kimiyəm mən,
Yelkənsiz, sükansız bir gəmiyəm mən.
Hər gizli baxışın könül titrədir,
Gülüşün şəfqətli, baxışın dərin.
Məni məndən alıb sənə bəxş edir,
Şirin ədaların, şirin sözlərin.

Özün sirr, sözün sirr, təbəssümün sirr.
Sənin tilsiminə düşəndən bəri
İlahi vəhdətə məni səsləyir
Yaralı könlümün döyüntüləri...
Özümü yandırır öz könül ahım.
Sevincim, güvəncim, ey səcdəgahım,
Əbədi möhtacam, sənə möhtacam.
Yenidən oyanır köhnə həvəslər,
Səndən bir ricam var, tək bircə ricam:
Sev məni, mən səni sevdiyim qədər.

*23 avqust 2007*

## DÜNYA BİR QATAR

Mən ki ömrüm boyu bir insan kimi
Duyub yaşamağa müdam can atdım.
Ömür-gün, elə bil, ötdü an kimi,
Bilmirəm bu yaşa mən necə çatdım.

Çoxda ki, ömrümün zirvəsindəyəm,
Hələ bişməmişəm, hələ mən çiyəm.
Hələ də bilmirəm nədir bu dünya
Görən, hardan hara gedir bu dünya?
Yatır fikrimizdə min-min suallar
Ayıra bilmirik xeyirdən şəri.
Dünya dayanmadan gedən bir qatar,
Adamlar əbədi sərnişinləri...

Gəliş sirr, gediş sirr, dünya da bir sirr,
Sərnişin dəyişir, qatar dəyişmir.
Dərk edə bilmirik kimdir yaradan
Bu sirli ahəngi, sirli nizamı?
Nə imiş, görəsən, qəsdi, məramı
Bu gəliş-gedişin, bu dövretmənin?
Bildiyimiz budur: nə mən öz mənimən,
Nə sən öz sənin.
Harda dayanacaq, görən, bu qatar?
Bunları dərk edib çözələməyə
Nə mənim, nə sənin ağlımız çatar.
Yaxşısı budur ki, heç düşünməyək,
Bildiyimiz aza “kafidir” - deyək.

Dünya dayanmadan, bir an durmadan
Daim fırlanır ki,
Heç kəs macal tapıb Yer qatarından
Düşə bilməsin.
Həyatın verdiyi ağrı-acıya
"Qismətim" - desin.

Dünyada şəkər yox, zəhər yeyənlər,
Acılıqdan bezib, həyatdan küsüb.
Özünə cürətlə qəsd eyləyənlər
Dünya qatarından özünü çölə
Atanlar imiş,
Həyatın verdiyi iztirabları
Böyük ağrı ilə dadanlar imiş,
Ölümlə məqsədə çatanlar imiş.
Müftə qazandığı şirin həyatı
Ölüm bahasına satanlar imiş.

*May 2005*

## İLİSU

*Köhnə dost S.Murtuzayevə*

O dünyadan xəbərimiz yox bizim,
Bu dünyanın cənnətidir İlisu.
Bəkarəti pozulmayan dağ-daşın
Təmizliyi, iffətidir İlisu.
Dörd tərəfi dağ ormanı - İlisu.
Ab-havası can dərmanı - İlisu.
Təbiətin yeddi rəngi, yeddi səsi - İlisu.
Möcüzələr möcüzəsi - İlisu.

*İyul 2005*

## SƏBƏBSİZ KƏDƏR,
## SƏBƏBSİZ QƏM

Könlüm göylər kimi birdən tutuldu,
Anlaya bilmədim, mənə nə oldu?
Nə könlümdə ağrı, nə sinəmdə dağ -
Gördüm, öz yoluyla dolanır gərdiş.
Hönkürüb ağladım, bilmədim ancaq
Mənim hönkürtümün səbəbi nəymiş?
Hər saat bir rəngə çalır bu aləm.
Mənim də əhvalım dəyişir hər dəm,
Amma səbəbini tapa bilmirəm.
Bir günün içində neçə halım var.
Sonu yox özümlə gizli davamın,
Dəyişir ovqatlar, dəyişir hallar.
Bəzən düşünürəm könül havamın
Bakı havasına çox bənzəri var.
İnsan öz-özünü anlaya bilmir,
Bəzən seçə bilmir əyridən düzü.
İnsançün ən çətin anlaşılan sirr
Hər kəsin özüdür, hər kəsin özü!
Bir günün içində neçə rəng alır
Ovqatım, qılığım, xəyalım mənim.
Çoxalır günbəgün, artır ilbəil
Həyata, dünyaya sualım mənim.
Vallah, özümə də qəribə gəlir,
Gah sakit, gah çılğın əhvalım mənim.
Səbəbi özümçün aydın olmayan
Şadlığın içində qəhərim də var,

Gəlişi, gedişi anlaşılmayan
Gizli sevincim də, kədərim də var.
Bəzən birdən-birə, bilmirəm, nədən
Qəmliykən qəlbimdə bir işıq doğur.
Mənə elə gəlir, sabah, biri gün
Qarşıma çıxacaq gözəl bir uğur.
Hər kəs içindəki gizli aləmin
Quludur,
            səbəbsiz kədərin, qəmin
Səbəbi bir deyil, yüz deyil, mindir.
Səbəbsiz qüssə, qəm
Səbəblilərdən
                        qat-qat dərindir.
Nədən ki, hər əməl gec-tez doğrulur,
Düşünsək, səbəbi dərindən dərin.
Nədən ki, əlacı çox çətin olur
Səbəbi naməlum xəstəliklərin.

*May 2005*

## KÖNÜLLÜ MƏHKUM
*(Sənə təsliməm)*

Bir sirli, mənalı kitabdır üzün,
Oxuya bildinmi özünü özün?
Oxuya bildinsə, onda bilərsən
Nə çəkirəm mən?

Getmir gözlərimdən sənin surətin
Qəddin, qamətin.
Hələ üstəlik də həlim xislətin.
Kamil gözəlliyin təcəssümü tək
Mümkünmü, ay gülüm, səni sevməmək?
Qəlbim "gəl-gəl" deyir, ağlım "get" deyir,
"Səni məhv edəcək o afət", - deyir.
"Əl çək bu arzundan, bu niyyətindən",
Mənim ittihamçım həqiqət - deyir.

Neyləyim, qalmışam yol ayrıcında,
Adın düyümlənir dilim ucunda.
Nə deyə bilirəm, nə də qaytara.
Sözüm boğazımda çəkilir dara.
Bilirsən kim idim, indi mən kiməm,
Mən bu gün könüllü sənə təslimәm.
Verdiyin əzablar, söylə, nədir bəs?
Könüllü məhkuma cəza verilməz.

*İyul 2005*



# İNSAN VƏ ZAMAN

*Nər bir dərdə, hər azara*
*Əsl çara torpaqdadır.*
*Hər kəsin də üz ağlığı*
*Yenə qara torpaqdadır.*





## İNSAN

Bilmirsən nədir insan?
Yaşayıb yaratmağa
Daim təşnədir insan,
Yaranmışlar içində
Hər müşgülü açmağa
Qadirdi, qadir insan.
Yaratmaq qüdrətilə
Nadirdi, nadir insan.
Nəhayət, bitir ömür,
Dünyaya gətirdiyi
Övladların çiynində
Dünyadan gedir insan.

*İyul 2005*

## AMAL, İNAM

“Ulu tanrım, əfv et”, - deyə
Əllərimi açdım göyə.
Qarış-qarış, addım-addım
Etirafa gəlib çatdım.
Son zirvəni, tam tövbəni
Bacarmadım.
Geriyəmi dönməliyəm
Qarış-qarış, addım-addım?
Geri dönsəm
Bu, əvvəlki günahımdan
Daha betər günah olar.
Yox, qarşıda
Etirafdan daha uca,
Tövbə adlı haqq yolu,
haqq zirvəsi var.
Mən könlümü haqqa verib
Aşmalıyam o zirvəni.
Əminəm ki, çatdıracaq
o zirvəyə -
Ürəyimdə bayraqlaşan
Amal məni, inam məni.

*Fevral 2006*

## İLK VƏ SON
## DƏRDİM - VƏTƏN

*Qürbətdə yaşayan*
*bəstəkar dostum Adil Bəbirova*

İlk dərdım vətəndir, son dərdim Vətən,
Burnumun ucunda göynərtim Vətən.
Vətəndə bir parça çörəyə möhtac,
Qürbətda çörək var, ürəyə möhtac.

O ürək gücünü özümdən almış
O ürək heç demə Vətəndə qalmış.
Mən necə yaşayım Vətəndən ayrı?
Yaşayan ruhumdur, bədəndən ayrı.
Vətən, torpağına, daşına qurban,
Səhər də, axşam da sən yanımdasan.

Dedim, hər əzaba döz Vətənində,
Dözmədi, özümə qaldı gileyim.
Ürək var, çörək yox öz Vətənimdə,
Çörək var, ürək yox qürbətdə, neylim?

Üzümü qarsıdır çəkdiyim hər ah,
İndi necə dözüm, necə bu dərdə?
Məni qınamayın, qürbətdə, vallah,
Başqa rəngə çalır göylər də, yer də.

Vətən itirmişəm, ay ellər, Vətən!
Vətən torpağına kim səcdə qılmaz?

Qürbətdə tapılar hər nə istəsən,
Vətən torpağının ətri tapılmaz...

*Yanvar 2006*

## GECİKMİŞƏM...

Mən həmişə bu gündən sabaha göz dikmişəm,
Amma özüm-özümlə görüşə gecikmişəm.
Qalaq-qalaq işlərim,
Qələmlə dostluğumdan göyərən vərdişlərim,
Məni vurdu gah yerə, gah da uçurdu göyə,
Gecikdim ömrüm boyu özümlə görüşməyə.
İztirablar içində yox olsam da varımdan,
Gecikmişəm həmişə isti göz yaşlarımdan
Su verib becərdiyim bəhərimə, barıma.
Gecikmişəm içimdə doğan arzularıma
Gecikmişəm həyatı, həyatımdan ummağa.
Gecikmişəm ən uca, ən müqəddəs hissimin
                                        Başına dolanmağa.
Gecikmişəm, çoxunu əzabıyla bezdirən,
                                        Mənəsə qanad verən
Hər qəmə yox, Allahın sevdiyi bəndəsinə
Pay kimi göndərdiyi o möhtəşəm qəmə də.
Gecikmişəm uzaqda mələyən eşqimə də.
Macal da tapmamışam özümlə tək qalmağa.
Özümdən küsdürdüyüm sınıq, qırıq qəlbimi
                                        Bir gün ələ almağa.
Vallah, özüm özümə çata bilmirəm daha,
Qaç-tutdu oynayırıq, yol uzun, mən özümü
                                        Tuta bilmirəm daha.

O zaman ki, yorulub çəkilirəm təkliyə
Taleyimlə barışıb endirirəm başımı

Amansız gerçəkliyə.
Heç demə, bu dünyanın əyrisi də, düzü də
Zaman ilə yarışda, gecikməyin özü də
Yalan imiş, ağ yalan!
Bəlkə də taleyimmiş məni ömrüm boyunca
Özümdən ayrı salan?
Çəkirəm gündüzümün hesabını hər gecə
Öz-özümlə gizlicə.
Yanlış addımlarımı anlayınca sonradan
Min bir əzab çəkmişəm.
Dünyaya gəlməkdə də, deyəsən, gecikmişəm.

*12 iyul 2005*

## İKİ GÜNÜN
## BİR-BİRİNƏ BƏNZƏSƏ...

Günlər keçir, aylar keçir ömürdən,
Ömür keçir, nə sən sənsən, nə mən mən!
Hər günümüz bir addımdır ölümə,
Bu gerçəkdən içim sığmır çölümə.

Bəxtəvərlik qismət deyil hər kəsə,
İtiririk özümüzü anbaan.
İki günün bir-birinə bənzəsə
Hər anın ziyandır, hər günün ziyan.

*Yanvar 2006*

## İNAM

Torpağın nəfəsi, yarpağın səsi,
Suyun şırıltısı, quşun nəğməsi,
Qürub şəfəqləri, dan şəfəqləri
İlkimiz - Adəmdən, Həvvadan bəri
Allahın dilidir...
O dili bilmək,
O dildən axırı, əvvəli bilmək,
Həm eşidə bilmək, həm duya bilmək,
Göydəki rəngləri oxuya bilmək,
Bizə Allah payı - bir inam gərək!

Allahdan o payı ənam istərəm,
Şübhədən sıyrılan inam istərəm.
Ey qadir Allahım, inam ver mənə!
Rəngdəki hikməti dərk etdir mənə!
Səsdəki mənanı eşitdir mənə!
Adəmə dediyin o ilk söz nədir?
O ilk söz, ilk kəlmə hansı dildədir?
Özün yaratdığın o söz var ikən
Bizimlə səslərlə danışdın nədən?

Haqqın şərbətini biz damla-damla
İçib qovuşarıq sənə inamla.
Əgər inam varsa, demək mən varam,
Atəşdə yanmaram, suda batmaram.
Allah, hikmətini əta et mənə!
O sirli dilini sən öyrət mənə!

Bilim, quş nə deyir, bulaq nə deyir,
Külək nə, ağac nə, yarpaq nə deyir?
Hikməti nə imiş göylərin, yerin.
Üfüqdə qızaran əlvan rənglərin?
Göz qırpıb ulduzlar birbəbir bizə
Göylərin sirrindən nə deyir bizə?
Aləmdə hər şeyin bir sonu varsa,
Axan dayanırsa, yanan sönürsə,
Sənin sığındığın sonsuzluq nədir?
Allahım, özün de: - Var nə, yox nədir?

Başımın üstündə bir quş uçurdu...
Verdiyim suallar üzümə durdu.
Seyr etdim göyləri, seyr etdim yeri,
Mənə hay verirdi sanki dağ-dərə.
İnamla dinlədim mən o səsləri,
Könül gözü ilə baxdım rənglərə
Dinlədim və baxdım,
                    Eşitdim, gördüm,
Səsdən söz, rəngdənsə məna götürdüm.

*İyun 2006*

## XEYİR - DUA

***Anadan şikəst doğulmuş İlahə və Ülviyyə bacılarının anası Mətanət xanıma***

Ucalıb gözəllik mərtəbəsinə,
Üzünü çevirdin dərd qibləsinə.
Nələr çəkdiyini anlayıram mən –
O gül balaların şikəstliyindən.
İki xoşbəxtliyi bir yerdə vermir
Allah yaratdığı bəndələrinə.
Əzəldən belədir,
Allah birinə
Var-dövlət verirsə, bir övlad vermir.
Səxavət verirsə, istedad vermir.
Bu da başqa məna, bu da başqa sirr!
O Gözəgörünməz, o böyük Xuda,
Bir yerdən verirsə, bir yerdən kəsir.
Bilənlər bu dərdə alışdı, yandı.
Duyan ürəklərdə bir sual doğar:
Niyə bu balalar belə yarandı?
Qismətmi, talemi, burda günahkar?
Bunu dərd edərək istərdin ki, sən
Allahın verdiyi gözəlliyindən
Kəsib apaşkar
Qızların bəxtinə calayaydılar.
Mümkünmüdür bu?
Xeyir, bu istək
Bir böyük ürəkli,

Min bir diləkli,
Gözəl bir ananın könül arzusu!
Bu böyük arzuya başqa tərəfdən
Qoşuluram mən:
Allaha yetişsin sənin ah səsin.
Allah verdiyini səndən kəsməsin.
Möcüzə yaratsın, Allah, möcüzə!
Yəni bircə anda dağ dönsün düzə.
Xəyalın, arzunun gerçəyə gedən
Yolu açılsın,
Qızların qəflətən dili açılsın.

Bu gül balaların nə günahı var?
Onların daş dələn könül ahı var,
Bu gül balalara qıyma, Allahım!
Onları çarəsiz qoyma, Allahım!
Allah sevindirsin balalar, sizi
İşıqla doldursun ürəyinizi.

Qızım, şir ürəyi var imiş səndə,
Dərdini kimsəyə bildirməsən də,
Nələr çəkdiyini hiss edirik biz,
Dərdinə şərikdir ürəklərimiz.
Dözüm də verirmiş dərd verən Allah,
Dərdi bəxşiş kimi göndərən Allah.
Sənə dözüm verir, dözürsən yenə,
Sənin göz yaşların axır qəlbinə.

Daş çiçək açardı göz yaşlarından,
Allah dərd daşını əgər əritsə,
Bil ki, hər şey itər ümidin itsə.

İtirmə ümidi, qızım, itirmə,
Dərdin caynağına qəlbini vermə.
Üzmə əllərini ulu Tanrıdan.
Ümidlə yaşamış həmişə insan!
Yenə də Allaha duaçıyam mən –
Allah öz ilahi kəramətindən
Bu gül balalara əlac göndərə.
Bu çəkilməz dərdə bir nicat verə.

A qızım, bu dünya gəldi-gedərdi.
Bu gündən sabahı düşün dərindən.
Balalar sarıdan çəkdiyin dərdi,
Allah çəkdirməsin nəvələrindən.
Sabah qucağında sənin, ay qızım,
Quş tək dil-dil ötən nəvələr görək.
Səni nəvələrlə şən, gülər görək.
Axı hər gecənin bir gündüzü var,
Bu gün ağlayanın, sabah, birigün
gülər üzü var.
Hər şaxtalı qışın bahar çağı var.
Hər əyri ağacın düz budağı var.
Dilləri qadaqlı bu gül qızların,
Dünyadan xəbərsiz günahsızların
Dilinə qadağı bətnində ikən
Təbiət vurmuşdu, bilinmir nədən?

Doğmalar bu dərdə alışdı, yandı.
Həssas könüllərdə bir sual doğar:
Niyə bu körpələr belə yarandı?
Qədərmi, qismətmi burda günahkar?

Balalar yaşadı dil həsrətilə
Sinəyə çəkilən bu çarpaz dağı?
Demə zamanın da, cəmiyyətin də
Varmış insanlara başqa qadağı.

## *Cəmiyyət qadağı*

Deyirəm, dözməzdi bu dərdə dağ da,
Bir zaman bağlıydı bizim dilimiz.
Yalanı deməyə azad olsaq da,
Doğrunu deməkdən çəkinərdik biz.

Könüldə qalardı könlümüzdəki,
Danışa bilməzdik o vaxt lal təki.
Dilimiz altında qadaq yoxsa da,
Amma cəmiyyətdə qadağa vardı.
Dərdli ürəklərdə şimşək çaxsa da,
Adamlar gizlində dərd dağıdardı...
Zülmdən törəyən hədlər, hüdudlar
Bizim ağzımıza daş bağlamışdı.
Qorxu kilidiylə o zaman yadlar
Danışan dilləri qadaqlamışdı.

Ötdü günlər, aylar, qovdu il-ili,
Bu köhnə dünyadan dərd əskilməyir.
Təbiət qadaqla bağlayan dili
Bəs niyə cəmiyyət aça bilməyir?
Kim idi yaradan dar dalanları?
Hədd qoydu, sədd çəkdi dövran hər şeyə.
Hər gün eşitsək də ağ yalanları

Qoyduq özümüzü eşitməzliyə.
Susub danışmadıq, beləydi dövran.
Biz həm də kar olduq lallığımızdan.

Axır götürüldü dillərdən qadaq,
Fikir ağızlarda qalmadı dustaq.
Təbiət zamanca gerimi qaldı?
Gəlsin bahar fəsli, güllər açılsın.
Cəmiyyət bağlayan dillər açıldı,
Təbiət bağlayan dillər açılsın!

*18 dekabr 2005*

* * *

Bir gizli nizam var göydə və yerdə,
Hamısı yaranıb insandan ötrü.
Anlaya bilmirəm, bu çək-çevirdə
Mən necə yaşadım bir insan ömrü?

Yaman uzun çəkdi bu dərd, bu həsrət,
Məqsədə gedən yol yaman dik imiş.
İtirib özümü, bildim, nəhayət,
Mənim sənsizliyim mənsizlik imiş.

*Fevral 2006*

## DİBÇƏK GÜLLƏRİ

Təbiətin sinəsinə dağ çəkən,
Kəlləsində turp əkən
Hər şeyə qadir insan -
Fitrətindən, ruhundan
Ayrı düşəndən bəri
Mənzilində bəsləyir
Saxta dibçək gülləri.
Çayda, göldə, dənizdə
Balıqlara tor qurur,
Ceyran vurur, quş vurur.
O elə düşünür ki,
Təbiəti
            mənzilinə gətirmiş,
Təbiət sevgisinin
Davamıdır bu vərdiş.
Bütün əməllərində,
İnsan oğlu hər işdə
Özünü haqlı sayır.
Mənzilində görk üçün
Akvarium saxlayır.
Çöldə, çayda, dənizdə
Tələ qurur, tor qurur.
Belə əyləncələrlə
O, vaxtını öldürür.
Təbiətə, torpağa
“Ana” deyən də bizik,
Quşları, balıqları

Evimizə gətirib
Akvariumda, qəfəsdə
Həbs eliyən də bizik.

O, elə düşünür ki,
Ana təbiət ilə
O  indi vəhdətdədir.
Həbs etdiyi canlılar
Kağızdandır elə bil.
Ətriylə yox, rəngiylə
Cəzb edir könülləri -
Saxta dibçək gülləri.
Nə yayın bürküsündən,
Nə qışın şaxtasından
Yox onların xəbəri.
Amma gözəlliyilə
Bəzəyir mənzilləri.

Bir az külək əsdimi
Yarpaqları büzüşər,
Ləçəkləri soluxar.
Belə adamlar da var:
Bu dünyanın qışından,
Boranından xəbərsiz,
Yaşar dərdsiz, kədərsiz.
Daim kölgə axtarar,
Amma özü heç kəsin
Üstünə kölgə salmaz,
Yüzündə də qocalmaz.

*Oktyabr 2006*

## BİR ŞEY UMARDIMMI?

Neyləyim, mən bütün diləklərimi
Xəyalda yaşadım bir röya kimi.
Çoxdan üstələyib yoxum varımı,
Vaxt məni arxada qoyub hər zaman.
Yaşaya bilsəydim xəyallarımı,
Bir şey umardımmı mən bu dünyadan?

*Aprel 2005*

## SƏHV EDƏNDƏ…

Düşür mənim ürəyimə
Dərhal şübhə toxumu.
O andaca anlayıram
Günahkar olduğumu.
Həmsöhbətin ürəyinə
Dəydiyimi anladım.
Peşman olub
               ürəyimdə
Öz-özümü danladım.
"Lənət olsun şeytana",
Deyib susdum.
Keçəmmədim
Etirafdan o yana.
Fərqi yoxdur: bu günah
Ağlımınmı, hissiminmi xatası?
Axı, mütləq olmalıdır
Bu günahın cəzası?
Cəza deyil, etiraf -
O tövbəyə çatmasa,
Öz "mənəmlik" yuxusundan
O bizi oyatmasa,
Cəzanı kim verməli?
Günahkar da özüməm,
Hakim də mən, vəkil də mən -
Özüm özümə düşmən.
Səhvlərim yay kimi
Mənim əsəblərimi

Tez-tez çəkir tarıma,
Dönür əzablarıma.
Çəkdiyim bu əzablar
Xoş gəlir mənə bəzən.
Onda qisas alıram
Elə bil öz-özümdən.

*Oktyabr 2006*

## QANA BİLMƏDİ

Filin ayağına hələ körpəykən
Zəncirli, qıfıllı qandal vurdular.
Niyə?
Çünki filin gələcəyindən,
Ağır zərbəsindən çox qorxurdular.
Günlər aya döndü,
              aylar il oldu.
Böyüdü,
              bala fil, yekə fil oldu.

O, elə bildi ki, elə sandı ki,
Bəzəkdir, zinətdir qandallar filə.
Fil elə bildi ki, elə qandı ki,
Dədə, babası da yaşamış belə.

Onu incitmədi bu dustaq halı,
“Yəqin ki, bu mənim haqqımdır” - dedi.
Fil öz ayağında gördü qandalı,
Məhbus olduğunu qana bilmədi...

*Dekabr 2006*

## GÜL

O gülün sehrilə ovsunlanmışam,
Dilsiz əşya kimi baxmayın gülə.
Səssizcə danışır bizimlə, müdam,
Ətrilə, mənalı təbəssümüylə.

*Dekabr 2006*

***

Bu dünyadan o dünyaya yollar çoxdur çox!*
O dünyadan bu dünyaya bir cığır da yox!
Bu dəhşəti düşünəndə
        ürəyimdə yellər əsir,
                üşüyürəm.
        İç havam soyuq!

*Noyabr 2004*

*Kimi xəstəlikdən, kimi avtomobil, ya təyyarə qəzasından ölür, kimi çayda, yaxud dənizdə batır, kimi də öldürülür.

## AHIN DAĞLARA

İşim düşmüşdü dara,
Boylanıb uzaqlara
Bir an çəkdim dərindən.
Yanımdakı dostlarım
Dedi: - Ahın dağlara.
Qarşı yatan dağların
Başını duman aldı.
Baxdım, göy də,
Yer də tamam qaraldı.
Parça-parça buludlar
Göy üzündə göründü,
Birdən yağış başladı.
Dedim, ahım dumana,
Duman yağışa döndü.
Qəlbimin atəşi ah
Su oldu giləndi,
Suyamı döndü indi?
Atəşlə suyun kökü
Birmiş...
Bu necə sirmiş?
Allah, sirrinə qurban,
Atəş suya dönərmiş!

*Dekabr 2004*

## AĞLINI DİNLƏ

***Romantik təbiətli xəyalpərvər bir dosta***

Kamalda, camalda yalnız öndəsən,
Amma bir xülyanın həsrətindəsən.
O xəyal al-əlvan arzudan doymur,
Səni yaşamağa qoymur ki, qoymur.

Xəyalı gerçəyə çevirmək üçün
İmkan axtarırsan bəlkə də hər gün.
İmkanın taledən çox-çox yeyindir,
Amma unutma ki, o müdhiş xəyal
Sənin ən dəhşətli bədbəxtliyindir.

Bir vaxt keçirmişəm mən də bu halı,
Gerçəyə çevirsən sən o xəyalı
O gerçək özündən alacaq səni,
Nəhayət, ilan tək çalacaq səni.

Sən otur üzbəüz özün özünlə,
Heç kəsi dinləmə, özünü dinlə.
Getmə arxasınca o boş nağılın,
Boğsun xəyalını sənin öz ağlın.

Sınaq məqamında çox-çox ərlərin
Qəlbini ağlıyla sirdaş görmüşəm.
Xəyalın dalınca yürüyənlərin
Əlini ən sonda bom-boş görmüşəm.

Dağıt qəlbindəki dumanı, sisi,
Çox da çətin deyil düz yolu tapmaq.
İnsanın ən böyük məsləhətçisi
Onun öz ağlıdır, öz ağlı ancaq.

Sən mənə söykənmə, özünə söykən,
Səni haqq yoluna çağırıram mən.
İnsanı ucaldar özünə inam,
Sənin kamalına mən inanmışam.

Ağlının önündə səcdə qıl, əyil!
Ağıl düşüncənin mötəbər şahı!
Ağlını eşidən hər kəsi deyil,
Allahı eşidir, yalnız Allahı!

*3 yanvar 2005*

## TƏKƏM MƏN
### *(yeni variant)*

Allahim, üzümü tutdum qiblənə,
Hanı könül dostu, könül qəmxarı?
Mənim özüm qədər kim yanar mənə?
Çəkdiyim dərdləri, iztirabları
Ancaq tək başına gərək çəkəm mən,
Çoxluq içində də təkəm, təkəm mən.

* * *

Dərdimi sevincə döndərmək üçün
Allahdan nə qədər umdum kərəm mən.
Ya rəbbim, özün de, gül dərmək üçün
Gərək ürəyimə vaymı əkəm mən?
Dərdin rəngində də təkəm, təkəm mən.

* * *

Gündüzlər çalışdım, gecə yatmadım,
Arzular dalınca qaçdım, çatmadım.
Bu yolda qarşıma çıxdı qan, qada,
Gərək ömrüm boyu ahmı çəkəm mən?
Göyün yırtıq yeri düşdü payıma,
Səs verən olmadı hay-hayarıma,
Ətrafa boylanıb, gördüm təkəm mən.

* * *

Bəzən özüm üçün dönürəm yada,
Dərd yükü nə qədər ağır olsa da,
İstərəm yükümü özüm çəkəm mən.
Tapmadım həqiqi ortaq, təkəm mən,
Özüm özümə də artıq yükəm mən.

* * *

Könlümdə yurd salan, beynimi dələn
Ağır dərd yükünü necə çəkim mən?
Ağrımı, acımı hansı daş ilə,
Hansı tərəzilə ölçüm, çəkim mən?
Enişim qurtarıb, düz yol əyilib,
İndi sərt yoxuşam, indi dikəm mən.
Ürək əldən düşüb, hisslər korşalıb,
İndi ağlım ilə həmşərikəm mən.
Taleyim tikmişdi ömür mülkümü,
Qorxuram, dağıdam, özüm sökəm mən.

* * *

Çox zaman qalmışam yol ayrıcında,
Bəzən sözüm qalıb dilim ucunda.
Demək istədiyim sözümü bəzən
Geri qaytarmışam düşünərəkdən.
Ağıl zəfər çalıb, hiss mələr qalıb,

Elə bil dövrəmi duman, çən almış.
Bəlkə, bu dünyanın özü boşalmış.
Hal bilən, dil bilən, yol, yöntəm bilən
Bir Allah bəndəsi tapammadım mən,
Başa düşmədiyim bu boşluq nədir?
Bu boşluq dediyim dünyada deyil,
Bəlkə elə mənim öz içimdədir,
Bəlkə buna görə elə təkəm mən?
Bu dolu dünyaya öz boşluğumla
Artıq yükəm mən?

Bəlkə, qum təpəsi olan mənciyəz
İstərəm gözlərə dağ görükəm mən?
İndi dünya ilə məni bağlayan
Bircə bağım yox.
Könlümü açmağa dərd ortağım yox.
Qorxuram, dərdimin ağırlığından
Dizlərim bükülə, birdən çökəm mən,
Bu boyda dünyada təkəm, təkəm mən.

*4 yanvar 2005*

## DÖNDÜM
*(Fəhm)*

Bir məram dalınca gedirdim, birdən
Yolun yarısında geriyə döndüm.
Mənə məlum ikən işim, məqsədim,
Özüm də bilmədim, mən niyə döndüm.

Sonradan anladım, nə yaxşı ki, mən
Qayıtdım, səbəbi naməlum ikən.
Səhvimi fəhmimlə hiss eləyirkən
Yerdən üz döndərib mən göyə döndüm.

Nəsə dayandırdı məni bu anda
Gedim, ya getməyim astanasında.
Gah onu, gah bunu doğru sananda
Bir idim, bölünüb ikiyə döndüm.

Ağlım ilə hissim haçalananda,
Seçim qarşısında gücsüz qalanda,
Gah ona, gah buna təslim olanda
"Bəli"dən əl üzüb, bəlkəyə döndüm.

Sahmana salmaqçun güzaranımı
Sürdüm zəhmət ilə öz dövranımı.
Biləndə səhvimi, ya nöqsanımı
Özüm öz gözümdə ləkəyə döndüm.

Öyrənmək eşqinə mən baş əyəndə
Görməkçün dünyanı dolaşdım mən də.

Fəhmimlə yurd üçün qəribsiyəndə
Səfəri saxlayıb Şəkiyə döndüm.

Yalanı, yanlışı, doğru-düzüylə
İnsan savaşdadır daim özüylə.
Ölçüb-biçən zaman fəhmin gözüylə
Bilirəm fikrimdən mən niyə döndüm.

*5 noyabr 2004*

## “SON GÖRÜŞ” (“MÜHAKİMƏ”) POEMASINDAN PARÇALAR

*Yalçın müəllimə həsr olunur*

### 1. MƏN YENİDƏN QOCALDIM

Dünyanın qayğıları,
Həyatın ağrıları.
Masamın arxasında alışıb sübhə qədər.
Keçirdiyim əzablı, o yuxusuz gecələr
Əzabkeş ürəyimin iztirab laylarında,
Ömrün dolaylarında
Gəncliyin çılğınlığı, atəşi itdi, batdı.
Zaman məni qocaltdı.

Qəlbimin göylərində parlayıb ulduz kimi
Özün qaytardın mənə bir gün itirdiyim,
Sövdalı gəncliyimi.
Məhəbbətlə bərabər gənclik geri dönərmiş
Sevgi-qüvvət, sevgi-güc, sevgi-sonsuz hünərmiş!

Amma beşgünlük oldu bu qayıdış, bu sevda,
Aparıb gəncliyimi
Bir gün uçdun quş kimi.
Gəlişin bahar idi, gedişin qışım oldu.

Mən sonra anladım ki,
Birdən gələn bu sevda
Mənim yanlışım oldu.
Yenə təklik, yenə qəm.
Bir mənəm, bir də qələm.
Bir də mənim əzablı, yuxusuz gecələrim,
Bir də sənsizliyimdən boylanan dərdi-sərim.
Özüm-özümlə qaldım,
Mən yenidən qocaldım.

*Dekabr 2004*

## 2. ƏBƏDİ EHTİYAC

Qulaqlarim səsinə ac,
Gözüm gözünə möhtac.
Özüm özünə möhtac
Sən olmusan mənimçün
Əbədi bir ehtiyac.

Bu gerçəklə yanaşı
Başqa bir söz pıçıldar
Qulağıma bu həyat:
Bizim bu sevdamıza
Nə imkan var. Nə nicat.

*Noyabr 2004*

## 3. İSTƏYİM BUDUR Kİ...

İstəyim budur ki, ürəyimdəki
Arzun, taleyinə bir hakim olsun,
Çöldə tufan qopsun, qar yağsın, təki
Evinin havası mülayim olsun.

Hamının önündə dik olsun başın.
Yalnız bircə gözə gözün dikilsin.
İstərəm, həmişə ömür yoldaşın
İçini üzündən oxuya bilsin.
Qəlbindən keçəni o, duya bilsin.

Nəsibin olmasın bir suç, bir günah,
Həmişə üzünə gülsün bu dövran.
İstəyim budur ki, o qadir Allah
Səni güvəndirsin balalarından.
Nə gözəl yaradıb, yaradan səni,
Amma dərk eyləməz hər nadan səni.

Nə qədər uyğundur təbiətinə,
Fitrətindən doğan sənin öz adın.
Könül çalanların "səxavətinə"
Nəzakət üçün də məhəl qoymadın.

Gerçəklə xülyanı sən eyni tutma,
Xülya xoş olsa da amma unutma,
Əvvəldə daddığın şirinlik qədər
Axırda əzab var, peşmançılıq var.

Sənin iradənə inanıram mən
Sənə həmsirdaşdır sənin iradən.
Əgər ürəyini çən, duman sarsa,
Al öz qüdrətini özündən, qızım.
Ata övladına nə arzularsa,
Onu arzularam sənə çən, qızım.

## 4. HANI O GÜNLƏR

Hanı o sevdalı günlərim mənim?
Hanı çətinliklə tuta bildiyim
Sənin qəlbindəki öz yerim mənim?

Hanı günlərimi barmaqla sayıb
Həftəni ovcumda ovduğum günlər?
Sənlə olacağım bircə gün üçün
Ləng ötən günləri qovduğum günlər?

Sən gedəndən sonra söz-söhbətini
Bir daha şərbət tək içdiyim günlər?
Hanı hər sözünü, hər misalını
Misqalla ölçdüyüm, biçditim günlər?

Hanı otağıma sən girən zaman
Ürəyimə dolan işığım, hanı?
Tarimar edərdin sən gedişinlə
Mənə bəxş etdiyin gözəl dünyanı.

Bizim aramızda bir dağ var idi.
O dağa vuruldu indi düyünlər.
Söylə bəs bir daha qayıdacaqmı
Bizi birləşdirən o gözəl günlər?

Sənin mustağınam ölürcəsinə
Sən getdin, on oldu mənim bir dərdim.
O şirin günlərin tək bircəsinə
Ömrümü, günümü qurban verərdim.

Dilində cəh-cəhin cənnət quşu tək
Həm gəldin, həm getdin bir ay içində
De, necə yaşasın bu sınmış ürək
Sənsiz qopardığım haray içində?

*Fevral 2005*

## SƏNİNLƏ
**("Son görüş" /"Mühakimə"/ poemasından)**

*Böyük duyğularla yaşayan fədakar insan Yalçın müəllimə həsr olunur*

***(Yalçının gündəliyindən)***

Sənsiz bu dünyada heçəm, artığam,
Tufanlı dəryada üzən qayığam,
Yoxdur yelkənim.
Səninlə mövcuddur varlığım mənim,
Sən varsan, mənimçün bu dünya da var.
Olmasan, dünyam da uçar, məhv olar.

Sənə ürəyimi verdiyim gündən,
Kiçilib min dəfə bu uca dünya.
Çıxıb hərləndiyi öz məhvərindən,
Bu qədim, bu köhnə, bu qoca dünya.
Sənsiz dünya özü köçüb dünyadan,
Sənsiz mənim üçün dayanıb zaman.
Sənsiz, elə bil ki, özümsüzəm mən,
Dəyərsiz, lazımsız, lüzumsuzam mən.

Mən öz otağımda tək olan zaman,
Sənin həsrətinlə qovrulan zaman,
Ruhən yanımdasan, ruhən yanımda,
Hissimdə, fikrimdə, həyəcanımda.

Hissim hissim qədər gələmmir dilə,
Sən mənim yanımda olmasan belə,
Mənim ruhumdasan, düşüncəmdəsən.
Sənsiz daha artıq səninləyəm mən.
Əgər inanmırsan onda yaxın gəl
Gülüm, əlini qoy nəbzimə, əvvəl.
Adını anbaan çəkib zikr edən
Yetim ürəyimin səsini dinlə.
Sənsiz səninləyəm, sənsiz səninlə!

## NİCAT
***(Yalçının son məktubu)***

Yuxuma gəlmişdin, tutub əlimdən
Köhnə bir məscidə apardın məni.
Dedin: - Burda elə sən öz səcdəni.
Allahın bu gözəl, bu xoş günündə
Mən səcdəyə gəldim mehrab önündə,
Baş vurdum yerə.
Dedim: - Ya rəbb, bütün çarəsizlərə
Özün kömək elə, özün arxa dur,
Bu zülmət könlümü işıqla doldur.
Səndən istəyirəm dərdimə dərman,
Məni xilas elə əzablarımdan.
Çarəsiz dərdimə çarə qıl özün,
Açılsın bəxtimə düşən kor düyün.
Əl tut,köməyim ol, Allah, sən mənim,
Çıxart o afəti qəlbimdən mənim.
O, adından böyük, boyundan uca,
Təpədən-dırnağa o, əfsun, o, sirr.
Mən onu fikrimdən qovaladıqca,
Qəlbimə daha çox hakim kəsilir.
Çarəsiz dərdlərin əlacı sənsən,
Məni də bu dərddən xilas eylə sən.
Allah, sidq ürəklə gəldim səcdənə,
Düşdüyüm tilsimdən nicat ver mənə.

*İyul 2005*

## NƏ FƏRQİ VARMIŞ

*("Mühakimə" poemasından)*

Çoxdandır üzünü görə bilmirəm,
Biganə olmuşam sənsiz hər şeyə.
Dərdimi deməyə yoxdur bir həmdəm,
Bəhanə gəzirəm səni görməyə.
Çoxdandır hər yerdən əlim üzülmüş,
Sənsiz mənim üçün bu dünya ölmüş.

Nədənsə həmişə sənin yanında
Quruyur boğazım, dolaşır dilim.
Tanınmaz olursan sirr dumanında,
Bir yandan çılğınsan, bir yandan həlim.
Əsl xidmətini mən necə bilim?

Bəzi mətləblərin yoxdur niyəsi,
Axı hər niyədən yüz niyə doğar.
Ürəyim doludur, sənə deyəsi
Qəlbimdə nə qədər söz-söhbətim var.

Ömrümün yolları dolama, daşlıq,
Ağlım – övladdırsa, hissim cədd imiş.
Bizim o ilk görüş, o ilk tanışlıq
Təsadüf içində zərurət imiş.

Mənə yad olmusan sən artıq bu gün,
Təklikdən həsrətin gözü yaşarmış.

Deyirəm, bəlkə də indi səninçün
Mənlə başqasının nə fərqi varmış?

*Sentyabr 2005*

## YUXU

Bir yuxu görmüşdüm, şirin bir yuxu,
Bu şirin yuxunun həsrətilə də,
Ötüb keçdi mənim ömrümün çoxu.
Yuxu - bir arzuydu, arzum gülmədi,
Amma ümidimdən əl üzülmədi.

Gördüm ağlayanı, gördüm güləni,
Ümidim yaşatdı, ümidim məni.
Ümidlə qol-boyun çatdım bu yaşa,
Ey məni yaşadan ümidim, yaşa!
Dünya cəfasından, cövründən toxam.
Ümidim ölərsə, demək, mən yoxam.

Yuxum çin olmadı, mən çin-çin oldum,
Ümidlə, xəyalla mən təskin oldum.
Xəyal dünyasında qış bahar imiş.
Yaxşı ki, insanın xəyallarını
Arzuya çatdıran xəyal var imiş.

Xəyaldan gerçəyi uman yanılmış,
Qəlbin ümidgahı diləkləriymiş.
Xəyal - sevənlərin ən inanılmış,
Ən qorxusuz, gözəl görüş yeriymiş.

*Fevral 2005*

## HARDAN BİLƏK?

Bilsəydim hardan-hara
Dolanır çarxım mənim,
Bu dünyada heç nədən
Olmazdı qorxum mənim.

Bilə bilsəydim əgər
Əvvəlcədən sonumu,
Bəlkə ilk addımımda
Dəyişərdim yolumu.

Yox-yox, yenə yanıldım,
Məni əfv et, Allahım,
Bu da mənim mininci,
Min birinci günahım.

«Yenə yanıldım» - deyə
Günahımı anladım,
Öz-özümü danladım.
Ömür yolu - öncədən
Alnımıza yazılmış.

Bir qədərin quluymuş.
Əvvəli bər-bəzəkli,
Sonrası daş-kəsəkli,
Dumanlı, çən-çisəkli,
Gözlənilməz döngəli,
Dolanbaclı yoluymuş.

Ömrümüzün yollan
Elə dumanlıdır ki,
Beşcə addım qarşını
Görə bilmir gözümüz.
Gedirik, xəbərsizik
Özümüzdən özümüz.

Bilmirik, an içində
Dolanan çərxi-fələk
Bizə nə göstərəcək?
Bu yolun əvvəlindən
Sonunu hardan bilək?

*Oktyabr 2006*

## ÖZÜM SUALA DÖNDÜM

Mən kimən, mən nəçiyəm?
Sirrlərlə doludur
Yaşadığım bu dünya.
Seyr etdiyim bu aləm.
Bura hardan gəlmişəm?
Əvvəlim nə, sonum nə?
Vətənimiz bu dünya, -
Müdam dönüb dolanır
Yer günəşin eşqinə.
Elə biz də bu eşqin
Pərvanəsi olmuşuq.
Sual doğur sualdan
Heç birinə cavab yox.
Sualların önündə
Məlul müşgül olmuşuq.
Mənim uçan dünyanın
Mənası yox, zövqü yox.
«Kim qurdu bu nizamı?» -
Deyə düşünür hamı.

İnsan oğlu
Bu dünyaya gələli
Düşündü zaman-zaman.
Bu dünya başdan-başa
Suallarla doludur.
Sualların hər biri

Haqq-həqiqət yoludur.
İlk gənclik illərindən
O əyribel suallar
Özü kimi mənim də
Əydi dümdüz qəddimi.
Aldı mənim əlimdən
Neçə-neçə ilimi.
Özümü dərk eyləmək
Mənim məramım oldu.
Dərk eləyə bilmədim,
Dünya haramım oldu.
Düşündükcə, düşündüm -
Özüm suala döndüm.

*4 avqust 2008*

## MƏNİM ANA DİLİM
*(Yeni variant)*

Mənim ana dilim - mənim kimliyim,
Pasportum, özümə öz hakimliyim.

Mənim mənliyimin füsünkarlığı,
Danışan kamalı, ağlıdır dilim.
Millətin varlığı, yurdun varlığı
Sənin varlığına bağlıdır, dilim.

Məni həm babamla, həm də nəvəmlə
Bağlayıb, uzanan tarix bağımsan.
Dünənim, sabahım, üstəlik hələ
Mənim söz hünərim, səs bayrağımsan.

Fərqini bilməyib ağdan qaranın,
Gədalar bu dili yad sayar bu gün.
Dədəsi bu dildə cəbhə yaranın
Özü özgə dildə banlayar bu gün.

Sənsiz adım - haram, vətənim haram,
Ana südü kimi halalım - dilim.
Harda sən varsansa, orda mən varam,
Ey mənim ulduzum, hilalım - dilim.

Daşlardan süzüldün sən zaman-zaman.
Suyu saflaşdırır daşdan keçməsi.

Yarandı dumduru damcılarından
Bayatı çeşməsi, dastan çeşməsi.

Sözü öz yerinə qoymaq təhrini
Ustadlar öyrətdi bizə birbəbir.
Sənin qüdrətini, sənin sehrini
Göstərdi dünyaya Füzüli, Sabir.

## ƏYRİBEL SUALLAR

İçimdə baş qaldıran
Əyribel suallarım
Bir-bir dönür nidaya,
Şükür olsun xudaya.

İçimdə çarpazlaşan
Toqquşmalardan bəri
Fəhmimin gözlərilə
Anlayıram, görürəm
Gözə görünməzləri.

*21 iyul 2008*

## HARDAN BİLƏYDİM?

Sən Pissən, müqəddəs ayəmsən mənim
Yaşamaq, yaratmaq qayəmsən mənim.
Mən harda varamsa, sən də ordasan
Könlümdə bəslənən arzulardasan.
Dünyanı düşündüm, xəyala daldım
Sənin fitrətini anlamaq üçün.
Mən öz qüdrətimi eşqindən aldım
Daim duaçıdır təpə, dağ üçün.
Mən sənə borcluyam, sən mənə yox-yox!
Qaynayıb, qarışıb bir can olmuşuq.
Daim borclu bilib sənə özümü
Boğmaq istəyirəm səbri, dözümü.

Ən ağır xəstəyə dərmandır səsi,
Üzü ayətlərlə süslənən gözəl,
Cənnət diyarında bəslənən gözəl.
Mələksən, göylərdən ay enən gözəl
Quşların səsilə dillənən gözəl.
Sözü işarədən ay bilən gözəl
Yalnız eşq önündə əyilən gözəl!

Mənim ürəyimdə sən taxt qurmusan,
Məni bu məqama sən qaldırmısan.
Daim borclu bilib sənə özümü
Boğmaq istəyirəm səbri, dözümü.
Mənə hər yönüylə şərəf-şan, gülüm,
Xisləti adına yaraşan gülüm.

Sən mənim ilk andım, son niyyətimsən,
Dünyada ən böyük zərurətimsən.
Nə qədər uzaqsan, o qədər yaxın!
Ey mənim sevincim, məlalım, dərdim!
Bu vecsiz dünyaya, sən olmasaydın
Niyə gəldiyimi hardan bilərdim?

*Şəki, 20 avqust 2008*

## TANITMA ÖZÜNÜ

Söz sözdür, söz ilə gül açan deyil,
Keflənə bilərmi gül öz meyindən?
Dünyanı anlamaq, dünyadan deyil,
Keçir qəlbimizin dərinliyindən.

Təzə bir sirr açır mənə hər yaşım,
Ömrü yaşayırıq biz qana-qana.
Anlaşılmaq üçün deyil, qardaşım,
Biz anlamaq üçün gəldik cahana.

“Qara” ağ rəng ilə yazılsa belə,
Onun mənasını dəyişə bilməz.
Tanıtma özünü xoş sözlərinlə,
İş işlə görülər, sözlə görülməz.

*7 dekabr 2007*

## AURA

Başının dövrəsində
Halqalanan aura,
Səni sehirləndirən,
Məni danan aura
Qoymur sənin qəlbinin
Dərinliyində yatan
Sirli hissləri görüm.
Gördüyümdən özümçün
Həyat dərsi götürüm.
Sehirsən başdan-başa,
Tilsimsən başdan-başa.
Sən bu dəyərlərinlə
Layiqsən hər alqışa.
Allah səni qorusun
Düşündüyüm xatadan.
Bir ülviyyət umuram
Mən də sənə xudadan.
Sənin auran səni
Bəd nəzərdən saxlasın.
Mənim dualarımsa
Səni şərdən saxlasın.
İstərəm xülyan ilə
Savaşlarda həmişə
İradən mətin olsun.
Cəsarətin, cürətin
Sənin fitrətin olsun.

*2004*

## ÖZÜMLƏ SÖHBƏT

Hərdən soruşuram özüm-özümdən;
-Niyə bu dünyadan gileyliyəm mən?
İstəyim, tələbim artır günbəgün.
Bu qədər nankorluq nəyə gərəkdir?
Aqillik, dünyaya gəldiyimizçün
Bircə nəfəsə də şükr eləməkdir.

Mən heç gəlməsəydim dünyaya, məgər
Dünyadan bir çöpmü əksiləcəkdi?
Anamın bətində ölsəydim əgər
Dünya yoxluğumu nə biləcəkdi?

Nə verib almışdım bu ömrü görən?
Mən canı yaratdım, yoxsa can məni?
Müftə aldığımı qaytaram gərək,
Bəs nədir, görəsən, ağrıdan məni?

Başqası olsaydı mənim yerimdə,
Bəlkə də deməzdi: - Bu giley nədir?
Mənim bu dünyadan gileylərim də
Aldığım can kimi ancaq müftədir.

Nədir bu şikayət? Nədir bu danlaq?
Bəlkə bu dünyanın borcu var mənə?
... Günün doğuşuna bir dəfə  baxmaq
Dəyər bu dünyanın hər möhnətinə!

Göylər cəzb eləyir ürəyimizi,
İstərik xəyalla qoşa uçmağı.
Ucalmaq istərik,
Ancaq yer bizi,
Başqa bir cəzb ilə çəkir aşağı.
Ömrümüz boyunca bu xoş arzudan
Qurtara bilmirik...
                    Nə sən,
                              Nə də mən.
Çıxmaq istəyirik yerin hır zaman
Bizi yerə çəkən cazibəsindən.

Bəs çıxan oldumu?
                    Tək-təkdir hələ
Dünya qayğısından azad olanlar.
Göydə kosmonavtlar,
Yerdə eşq ilə
                    Yaşayıb
Dünyaya heyran qalanlar
Eşqdir eşidən,
                    Eşqdir görən.
Eşqdən ayrı söz tanımıram mən.
Biz eşqin cəzbilə çıxırıq yalnız
Yerin də əbədi cazibəsindən.

Ağırlıq getdimi,
                    Çəki itdimi,
Insan qanad açıb uçur ruh kimi.
Küçələr,
                    Döngələr,
                                        Evlər,

Divarlar.
Evdəki bucaqlar,
Döşəmə, tavan,
Hər şey həndəsidir,
öz hüdudu var.
Çıxmaq istəyirəm bu hüdudlardan.
Çığırmaq istərəm mən bu arzumu
Bütün qulaqlara...
Eşitsin hamı!

Cizgilər içində bu dünya, bu yer...
Hər cizgi nəyinsə həddidir ancaq.
Cizgilər içində ruh əzab çəkir,
Ruhsa cizgilərdən, qəlibdən uzaq!

Odur ki göylərə baxanda insan,
Ruhu azad olur yer hüdudundan.
Gəlin, cizgiləri könüldən silək,
Hüdudsuz göylərə baxaq, dincələk.
Göydə nə ölçü var,
Nə sərhəd, nə xətt.
Göy də hüdudsuzdur ruhumuz qədər.
Hüdudsuz, çəkisiz ruhumuz, əlbət
Hüdudsuz göylərdə dincələ bilər.

*Fevral 2006*

## ÖLÜMLƏ ÜZ-ÜZƏ

Evin hər küncündən bir kabus kimi
Mənə göz bərəldir ölüm hər gecə.
Hər an gözləyirəm son nəfəsimi,
Mənə "gəldim" deyir ölüm gizlicə.
Hər gecə anbaan, saatbasaat
Ölümü gözləmək!
                    Bir dəhşətdi bu!
Ölümlə üzbəüz söhbət eləmək!
                    Müsibətdi bu!
Sağımda ölümdür, solumda həyat,
Arada bir ömrün dolanbac yolu.
Ölümü gözləmək! Deyirəm, qat-qat
Ölümün özündən daha qorxulu!
Səslənir astaca qulaqlarımda
Qəlbimin boğunuq döyüntüləri.
Nəbzimə əl basıb tərəddüdlə mən
Bilmək istəyirəm, ölüyəm, diri?

Ölüm bizim nəslə xəbərsiz gəlir,
Yaşamaq şirindir yaman gündə də.
Həmişə, hamıya ölüm tez gəlir
Yaşın doxsanında, lap yüzündə də.
Zülm yox, gəlincə həyatın sonu,
Ölümlə üz-üzə durmaqdan betər.
Ölüm kabusunun nə olduğunu
Ölümü yaxından görənlər bilər.
Elə bil ölümün qanadlarında

Uçuram, deyiləm artıq mən, mənim.
"Mən indi ölümdən necə gizlənim?"
Yanıma gələnlər aramla bir-bir
Mənə şirin-şirin təsəlli verir.
Onlar mənə baxır yaxından, yaxın.
Onlara baxıram mənsə könülsüz,
Yüz illik, min illik bir məsafədən
Bilmirəm, nədən?
Gəlir qulağıma qəlbimin səsi:
"Bunlar bu dünyanın əziz bəndəsi,
Artıq o dünyanın adamıyam mən!"
Anlaya bilmirəm, hələ sağ ikən
Ölümü nə təhər yaşayıram mən?

Ölüm vahiməsi artır günbəgün.
Yanıma gələnlər, təsəlli üçün
Hər gün daha şirin söz axtarırlar.
Mənsə candan bezar, cahandan bezar!
Onlara həsədlə baxıram hərdən
Xoşum gəlməsə də təsəllilərdən,
Qəlbimdə hamıdan umduğum odur.
Təsəlli - həyata ümid yoludur,
Ümidlə yaşadım həmişə mən də.
Ümiddir, arzudur pənahım yenə.
İnsan möhtac olur dara düşəndə
Hamının rəhminə, məhəbbətinə.
Təzə ayaqqabı alıblar mənə
Təəssüf hissilə baxıram ona
Mən yana-yana.
Qəlbimdə deyirəm: "Biz hardan bilək
Nə sayır fələk?

Qismət olacaqmı, görəsən, mənə
Bu təzə çəkməni nə vaxtsa geymək?”

Hər nəfəs aldıqca düşünürəm mən
Sonuncu nəfəsdir bu nəfəs bəlkə,
Anlar ötüb keçir, ötür təhlükə,
Qorxusa sovuşmur hələ ürəkdən.
Nəbzimə baxıram... Şükür, çox şükür!
Diriyəm, hələlik döyünür ürək.
Saatda neçə yol ölüb dirilmək
Taleyin hökmüdür,
Allah, ya sənin hökmün?
Səbəblər səbəbi sənsən, sən özün!
Bir az da macal ver mənə əcəldən,
Hələ görülməli çox işlərim var.
Hələ bu dünyadan doymamışam mən
İstək çox, arzu çox, ürək gen, vaxt dar.
Hələ gileyliyəm özüm özümdən.
İnsandan ağırdır onun istəyi,
Həmişə təşnədir insan ürəyi.
Asılı qalmışıq istəyimizdən
İnsana dar gəlib həmişə cahan.
Özümüz həyatdan doysaq da bəzən,
Gözümüz doymayır heç vaxt dünyadan.
Allah, verdiyinə şükür, çox şükür
Bizə bəxş etdiyin beş günlük ömür
Çatdıra bilmədi əllərimizi
Ən şirin, ən dadlı istəyimizə,
Şəkər də, zəhər də daddırmış bizə.
Narazı deyiləm verdiklərindən,
Yenə də qarşında əl açmışam mən,

Dərgahına layiq əməllərim yox,
Neynim, savabım az, günahlarım çox.
Əf et sən məni,
Götürmə üstümdən bir an kölgəni.

*Avqust-sentyabr 2005*

## BİR SİRDAŞ İSTƏYİRƏM

*Xeyriyyəçi dostum C.Feyziyevə*

Bir mahnı istəyirəm -
Məni yerdən ayırıb
Göylərə qaldırası.
Möcüzə istəyirəm -
Əl-qolumu bağlayan,
İçimdə qan ağlayan
Tilsimimi qırası.
Bir ana istəyirəm -
Məni doğma bala tək
sinəsinə sıxası.
Bir qüdrət istəyirəm
Öz-özümü yıxası.
Mən bir pay istəyirəm -
Sığındığım Tanrıdan
Qədər-qismətim kimi
Ünvanıma çatası.
Bir mayaq istəyirəm -
Mənim qalan ömrümün
Dolama yollarını
Yanıb aydınladası.
Bir sirdaş istəyirəm
Nəbzimə əl qoyası,
İçimdəki ağrını
Mənim qədər duyası.

*Avqust 2007*

## NEYLİM?
### *(Mahnı üçün)*

Sehrsən, mehrsən, tilsimsən nəsən?
Kərəməm, sən mənim Əslimsən, nəsən?
Xəyali arzuna təslimsən, nəsən?
Mən sənin əsirin olmayım, neylim?

Mənimçün tükənməz arzusan, kamsan,
Mənə qanad verən ruhsan, ilhamsan.
Çətin anlaşılan sirli kəlamsan,
Mən sənin təfsirin* olmayım, neylim?

Son günlər yamanca yadlaşmışıq biz
Yoxsa, başqalaşıb dərdi-sərimiz?
Soyuyub, seyrəlib görüşlərimiz,
Sənin müqəssirin olmayım, neylim?

Könlümdə sızlayan bir sarı simsən,
Həm ötkəm, həm çılğın, həm də həlimsən.
Qızmar bir səhrada bitən gülümsən,
Üstündə çətirin olmayım, neylim?

Qiymətli daş-qaşsan, əvəz edilməz,
Qızılsan, almazsan, gövhərsən, heç kəs
Sənin qiymətini anlaya bilməz
Mən sənin iksirin** olmayım, neylim?

---

***Təfsir** - izah etmə, anlatma, açma.
****İksir** - Qiymətli daş-qaşın, qızılın əyarını, dəyərini təyin edən cövhər.

Sirli, müəmmalı kitabdır üzün
Oxuya bildinmi özünü özün?
Ruhən yanımdasan hər saat, hər gün
Həqirin, fəqirin olmayım, neylim?

Əlçatmaz, ünyetməz qəsrim, qalamsan,
Çıxa bilmədiyim çuxur, çalamsan.
Sən hər əməlində bütövsən, tamsan
Mən sənin kəsirin olmayım, neylim?

Vəhmimsən, fəhmimsən ilham çağında,
Əlimə qələmi aldığım anda
Gəlib dayanırsan göz qabağında
Mən sənin şairin olmayım, neylim?

*2004*

## RÖYADA GİZLƏNQAÇ

Səni qovmaq üçün fikrimdən tamam
Uzaq keçmişimi xatırlayıram.
Bəli, dünən gecə röyamda yenə
Qaçmışdım uşaqlıq dəcəlliyinə.
Tamam uzaqlaşıb bu günlərimdən
Baxışla gizlənqaç oynayıram mən:
Kolluğun içində gəzirəm onu,
Nə qədər axtardım, tapa bilmədim
Zalım oğlunu.
Kol-kos əl-qolumu yer-yer cızsa da,
Tapmadım,
Səslədim: - Baxış, ay Baxış!..
O, göyəmi çıxmış, yerəmi batmış?
Səsimə səs verdi gah bu, gah o dağ,
Gəlmədi Baxışdan nə səs, nə soraq.
Gəzdim bir də, bir də mən yan-yörəni,
Fızıllıq içində möhkəm gizlənən
Baxışın yerinə “tapıram” səni.
Elə bil səni yox, səni deyil mən
Özümü tapmışdım, səni taparkən.
Tapmışdım özümü, öz pənahımı,
Tapmışdım qibləmi, qibləgahımı.

Hər yerdə hər zaman görünür yerin,
Mümkünmü sehrindən bir an gen olmaq?
Yadıma saldığım xatirələrin
Sonu tamamlanır səninlə ancaq.

Fikirlərim çaşqın, hisslərim daşqın,
Mən öyrənən oldum, sən öyrədənsən.
Ən şirin, ən dadlı xəyallarımın
Əvvəli də sənsən, sonu da sənsən.

Çəkdiyim həsrətin üzüntüsündən
Mənim könül aynam çilik-çilikdir.
Aşmışam sevginin sərhədini mən
Yox, bu sevgi deyil, bu dəlilikdir.

Tilsimmi, sehrmi sənin qaş-gözün?
Səni bircə anlıq unutmaq üçün
Bəzən gözlərimi yumuram qəsdən.
İşıq topasına dönüb o dəmdə
Doğursan nur kimi sən hafizəmdə.

Şəklənir qulağım yalnız bir ada,
Görmək istəmirəm sənsiz kimsəni.
Yatmaqçün gözlərim yumulanda da
Könül gözlərimlə görürəm səni.

Mehri-məhəbbətim artır günbəgün
Əlinlə paylanır xeyirim, şərim.
Səndən qaynaqlanır, səndən büsbütün
Mənim xəyallarım, düşüncələrim.

## HƏR KƏS ÖZÜ KİMİ...

Qardaş, mən bələdəm dərindən dərin
Sevən kəslərin
Düşdüyü dəhşətli burulğanlara,
Gün qədər uzanan çılğın anlara.
Eşqin gətirdiyi üzüntülərdən
Xəbərdaram mən.
Sevirsən sən onu dəlicəsinə
Yoxdur sənin üçün onsuz bu dünya,
Onunla sonsuzdur, sonsuz bu dünya.
Yadından çıxmamış, o düşür yada,
Onu qısqanırsan yaxına, yada.
Əlində tutduğu gülə, çiçəyə,
Əsən küləyə.
Anlaya bilmirsən, onsuz bu dünya
Səninçün nədir?
Sənin xəyalında bir mələk kimi
O, göylərdədir.
İstərsən, o heç vaxt göydən enməsin,
Heç kəsin gözünə o, görünməsin.
Onu qısqanırsan aya, günə də,
Onu qısqanırsan lap özünə də.
Onun arxasınca sürünür ürək.
Bilmək istəyirsən, bilmək və görmək
Gününün hər anı, hər dəqiqəsi
Hardadır, neyləyir və kiminlədir?
Onun ürəyindən keçənlər nədir?
Bütün bu halları, qardaş, sənin tək

Yaşadım, bu dərdə dözəmmir ürək,
Çəkirəm, bu ağır yükü bu gün də.
Bununla bərabər, bil ki, hər sevən
Yalnız özü kimi sevir sevəndə.

## TUFANSIZ, FIRTINASIZ

Unutmuşam özümü,
Onu unutmaq çətin!
Girovuna dönmüşəm
Bir ülvi məhəbbətin.
Sevə bilməmək
   özü bir dərs imiş,
Sən mənə
Bu dərsi öyrətsənə.
Günahkaram, ilahi,
Köməyim ol sən mənim.
O afətin eşqini
Çıxart qəlbimdən mənim.
Mən bu xeyir-duaya
Min yol "Amin!" deyirəm.
Tufansız, fırtınasız
Yaşamaq istəyirəm.

*2005*


HƏSRƏT
NƏĞMƏLƏRİ

*Sevən bir ürəyə nə qayda, qanun?*
*Qara daş üstdə də sevgi göyərmiş.*
*Sənin məğrurluğun, sənin qürurun*
*Mənim istəyimə göz dağı vermiş.*





## KÜSMƏ

Küsülü olmaq da bir başqa dərd, qəm,
Heç kəslə küsülü qala bilmirəm.
Mən səni incitdim, ya da sən məni,
Fərqi yox, dözmürəm mən bu fırqətə.
Özünü bu boyda kin-küdurətə
Eləmə dustaq.
Mənimçün çətindir küsülü qalmaq.
Bir gün mənim üçün olur yüz bir il,
Mən səndən küsəndə, tək səndən deyil,
O dəmdə küsürəm həm də özümdən.
Dünya da, həyat da düşür gözümdən.
Küsmə, qadan alım, küsmə, amandır,
Nə özünü yandır, nə məni yandır!

Mənimçün əzabdır bir gün, bir saat,
Neçinsə, kimləsə küsülü qalmaq!
Barışdım, cənnətə dönür bu həyat,
Gözümdə qaram da olur ağappaq.
Barışdım, sevinclə qovur gün-günü,
Atıram çiynimdən əzab yükünü.
Küsmək - öz-özünə dönüb yad olmaq.
Bircə gün kimləsə küsülü qalmaq
O günü çalmaqdır iki ömürdən.
Günah səndədirsə, bağışladım mən.

Əgər məndədirsə, əfv et sən məni.
Gəl boğub öldürək içimizdəki

“Kin-küdurət” adlı gizli düşməni.
Atıb ilk addımı küsünü pozmaq,
Yaman ağır gəlir deyəsən bizə.
Bu addım sığışmır mənliyimizə,
Bunu istəsə də, ürəklərimiz.
Amma unuduruq, unuduruq biz,
Könül verən zaman bir-birimizə
Eynilik yazılıb qədərimizə.
Artıq səninkidir mənim mənliyim,
Həm də mənimkidir sənin mənliyin.
Vallah, mən anlaya bilmirəm indi,
Məğzini bu günkü bu düşmənliyin
Biz bir-birimizlə incik düşəndən.
Mənim tək sən də
Baş-başa qalırsan qəzəblə, kinlə,
Onda danışırsan özün-özünlə.
Belə məqamlarda tək bircə yol var:
Öldür qadan alım, qəlbində kini,
Barış, mənə danış qəlbindəkini.

*Dekabr 2005*

.

## SƏNƏ DEYƏSİ

Çoxdandır üzünü görə bilmirəm,
Biganə olmuşam artıq hər şeyə.
Yoxdur nə bir sirdaş, nə də bir həmdəm,
Bəhanə gəzirəm səni görməyə.

Necə yad olmusan mənə sən bu gün,
Vallah, həsrətin də gözü yaşarmış.
Sözüm haqq deyilmi? İndi səninçün
Mənlə başqasının nə fərqi varmış?

Sevən bir ürəyə nə qayda, qanun?
Qara daş üstdə də sevgi göyərmiş.
Sənin məğrurluğun, sənin qürurun
Mənim istəyimə göz dağı vermiş.

Bəzi mətləblərin yoxmuş niyəsi,
Axı hər niyədən yüz niyə doğar.
Ürəyim doludur, sənə deyəsi
Qəlbimdə nə qədər mənim sözüm var.

*May 2005*

## ƏRŞ İLƏ FƏRŞ ARASINDA

*Sadiq dost K.Rəhimliyə*

Dünyanı sığdırıb sən körpü çatdın
İki nöqtə boyda göz qarasında.
Bu sirli nizamı necə yaratdın,
Ey tanrım, ərş ilə fərş arasında?

Sənin haqq yolunu azdım az qala,
Dara çəkilirəm şübhələrimdən.
Özüm də bildiyim günahlarımla
Sənin dərgahına necə gəlim mən?

Ulduzlar fırlanır, günəş dövr edir,
Onları hərlədən hansı qüvvədir?
Hərənin öz yolu, öz dövranı var,
Sənin iradənlə hərləndiyindən
Azmır öz yolunu bu fırlananlar.
Amma biz insanlar azırıq, nədən
Sənin düz yolunu haqqı görmədən?

Axı, səmadakı ulduzlar kimi,
Allahım, bizi də sən yaratmısan.
Sənin iradənə təslim deyilmi
Sənin yaratdığın bu kamil insan?

*Yanvar 2002*

## YETİM ÜRƏYİMİN SƏSİNİ DİNLƏ...
***(Yoxdur yelkənim)***

Sənsiz bu dünyada heçəm, artığam,
Tufanlı dəryada üzən qayığam,
Yoxdur yelkənim.
Səninlə mövcuddur varlığım mənim,
Sən varsan, mənimçün bu dünya da var,
Olmasan, dünyam da uçar, yox olar.

Səni itirdiyim o ağır gündən,
Kiçilib min dəfə bu uca dünya.
Çıxıb birdən-birə öz məhvərindən
Bu köhnə, bu qədim, bu qoca dünya.
Sənsiz mənim üçün dayanıb zaman
Sənsiz elə bil ki, özümsüzəm mən,
Dəyərsiz, lazımsız, lüzumsuzam mən.
Mən öz otağımda tək olan zaman,
Sənin həsrətinlə qovrulan zaman,
Ruhən yanımdasan, ruhən yanımda,
Hissimdə, fikrimdə, həyəcanımda.
Hissim hissim qədər gələmmir dilə,
Sən mənim yanımda olmasan belə,
Mənim xəyalımda, düşüncəmdəsən.
Sənsiz daha artıq səninləyəm mən.

Əgər inanmırsan, onda yaxın gəl,
Əlini nəbzimə qoy, gülüm, əvvəl.

Adını anbaan çəkib zikr edən
Yetim ürəyimin səsini dinlə,
Sənsiz səninləyəm, sənsiz səninlə!

*Sentyabr 2005*

## SƏNSİZLİK,
## MƏNSİZLİK

*(Ömrümün sonunadək yazacağım*
*"Mühakimə " poemasından)*

Ömrümün sapına düşdü kor düyün
Açılıb yenidən dolanır, dönür.
Dünyaya ucadan baxdığın üçün
Hər şey gözlərinə xırda görünür.

Ucasan, baş əydim sənin qiblənə,
Gözümə işıqsan, qəlbimə ilham.
Sehrinə düşdüyüm o gündən sənə
Pəncəmin üstündə durub baxmışam.

Çox şey öyrənmişəm təbiətindən
Bənzədə bilmərəm səni heç kimə.
Doğrusu budur ki, inanmadım mən
Sevdiyim qədər də sevildiyimə.

Bu dünyanın bütün gözəllikləri
Elə bil yığılıb sənin çöhrənə.
Göydən seyr edirəm indi mən yeri,
Gözəlliyin qədər heyranam sənə.

Gözlərim önündən bir an çəkilmir
Qələm qaşlarının tağı yay kimi
Sənin soyuqluğun soyuda bilmir.
Mənim oddan keçən məhəbbətimi.

Kamillik, bütövlük - sənsən, sən ancaq.!
Məni də ucaltdı sənə can atmaq.

Məndə olan səbrə, dözümə heyrət!
Bəs hara aparır məni bu gərdiş?
İtirib özümü bildim, nəhayət,
Mənim sənsizliyim mənsizliyimmiş!

*İyul 2007, Şəki*

## SƏNİN SƏVİYYƏN

Yerə baxmısanmı sən ucalıqdan?
Ürək yıxılmaqdan qorxur anbaan.
Başın gicəllənir, gözün qaralır,
Səni xof alır.

Ucaldıqca qorxum, azalır səbrim,
Bomboz astarından üz alır səbrim.
Sənin gözəlliyin ucalığındır.
Hər dəfə dərədən sənə baxarkən
Durduğun zirvəyə ucalmaq üçün
Xəyalda yanına qanadlanıram,
Durduğum dərəni zirvə sanıram.
Mənim ürəyimə bələdsən özün,
Əiçatmaz olursan hər saat, hər gün.
Sənin səviyyənə qalxmaq mənimçün
İndi təhlükədir, böyük təhlükə!
Qorxuram gözümə qaranlıq çökə,
Mən birdən-birə
o ucalıqdan
yıxılım yerə.
Yanına qalxmağa çatmır cürətim,
Dogrusu, qorxuram məni məhv edə
Eşqim, niyyətim.

*Oktyabr 2005*

## HEYRANLIQ

Ay gözəl, gözəlliyə
                tapınanlar içində
Nə ilkəm, nə sonam mən.
Sənin özündən də çox,
Səni belə yaratmış
O möhtəşəm rəssamın
Rəsminə heyranam mən.

Sənin gözəlliyinin
Məna dərinliyini
Duyub mən də mən oldum.
Hökmüylə bu mənliyin
Sənin divanən oldum.

*Avqust 2006*

## SƏN BİR HƏZİN NƏĞMƏSƏN
*(Nəğmə)*

Qızıl güldən ətirli,
Sən nəğmədən incəsən.
Sən təpədən-dırnağa
Fikirsən, düşüncəsən.

Sən bir həzin nəğməsən,
Sənin zilin də sevgi,
Sənin bəmin də sevgi,
Sevincin də sevgidir,
Hələ qəmin də sevgi.

Elə bir nəğməsən ki,
Səni unutmaq çətin.
Məni ərşə ucaldır,
Sənin eşqin, şəfqətin.

Sən bu həzin nəğməni
Yaradan bir ürəksən.
Mənim qulaqlarımda
Daim səslənəcəksən.

Bir bulanıq sel idim,
Axdıqca durulmuşam.
Sənin heyranın olub,
Mən kamala dolmuşam.

Səsin, sösün nəğmədir,
Özün yalan olmusan.
Özün də bir nəğmə tək
Ürək çalan olmusan.

Sən bir həzin nəğməsən,
Oduna bürünmüşəm.
Dinləyib səni mən də
Bir nəğməyə dönmüşəm.

*Oktyabr 2004*



# QOŞMA, GƏRAYLI



***Mən baxmadım nə yada, nə həmdəmə,***
***Nöqsanımı faş elədim aləmə***
***Hey danladım öz-özümü...***
***heç demə***
***Mərdliyim də etirafa qədərmiş...***

***Vicdanımdan sordum: Nədir etiraf?***
***Cavab verdi: Bir tövbədir etiraf.***
***İndi bildim: Əməlsiz bir etiraf***
***Günah kimi nöqsandan da betərmiş.***

## DÜNYA YAMAN DÜNYADI

Dövranın gərdişi belədir, belə,
Bu dünya əzəldən yaman dünyadı.
Güclünü qaldırar çiyinlərinə,
Gücsüzü çiyinindən atan dünyadı.

Kimini qaldırar yerdən göylərə,
Kimini endirər göylərdən yerə.
Yaxşını yamana, xeyiri şərə,
Doğrunu əyriyə satan dünyadı.

Tutma bu dünyanı, tutma tək əlli,
Nagahan gülüşü yenə təsəlli.
Nə sevinci bəlli, nə qəmi bəlli,
Zəhəri şəkərə qatan dünyadı.

Bu necə anadır, düz ilqarı yox,
Kiminə sığaldır, kiminə yumruq.
Yeyə bilənlərə bir tikə quyruq,
Yeyə bilməyənə yavan dünyadı.

Uşaqla oynayar, gənclə bəhs edər,
Kim ona ağ olsa, ona qəsd edər.
Bizi əldən salar, bizi sinsidər,
Özü haman dünya, haman dünyadı.
Bu dünya əzəldən yaman dünyadı.

*Fevral 2003*

## HAQQA NİCAT ARADIM

Haqqa nicat aradım,
Bir dedilər yüzümə,
Yalanı gerçək kimi,
Söylədilər üzümə.

Bunu qədərə yozdum,
Ancaq doğrunu yazdım,
Aldandıqca uduzdum
Mən özümü özümə.

Xəyal göylərdən endi,
Təklənmişəm mən indi.
Haqq bucağa dirəndi,
Alışmışam dözümə.

Varmı könül həmdəmi,
Məndən ala bu qəmi,?
Calamışam gecəmi
Ümidsiz gündüzümə.

Dara çəkilmiş kimi
Asılmışam dözümdən.
Bildim: Bircə əlac var,
Qaça bilim özümdən.

*Sentyabr 2006*

## EŞQİNDƏ YANAN ÜRƏKDİR

Göz gördü, nəşələndi, sevindi,
Eşqində yanan amma ürəkdir.

Cismim, bədənin sızlamasın çox,
Cism arzuya, amala yedəkdir.

*2002*

## GÖYDƏ GÖRƏN VAR

Bəstəkar nəğmə qoşar,
Ona ilham verən var.
Bülbül cəh-cəh vurarsa,
Onu da dindirən var.

Sən söykənib bir dağa,
Vay əkdin soldan sağa,
Bilmədin, bu torpağa,
Gül əkib vay dərən var.

Başı üstdə ehtiyac,
Yox nə ümid, nə əlac.
Gözləri tox, qarnı ac,
Kişi ömrü sürən var.

Bir əyalın, bir özün,
Sən süd göləndə üzdün.
Bilmədin, bu el üçün
Sinəsini gərən var.

Meşədə gördün onu,
Xəlvət öldürdün onu.
Sandın, görən yox bunu,
Amma göydə görən var.

Dağdan bulud enirsə,
Onu bir göndərən var.
Çərxi-dövran dönürsə,
Onu da döndərən var.

*İyun 2003*

## TOY İLƏ YAS
## ARASINDA

Bənzəsə də uzun yol var
Harayla səs arasında.
Uzun, uzun illər durar
Toy ilə yas arasında.

Bəzən olur dayanırıq,
İki yolun arasında.
İtiririk haqq yolunu,
Sağla solun arasında.

Biz sevincə sevinmədik
Qəm yükünü daşımadan.
Dərdimizlə dərdləşmədik
O dərdləri yaşamadan.

Gecələrdən qaranlığı
Qovub gülən səhər də var.
Bir damlacıq sevinclə bir
Qəlb dolusu kədər də var.

Biz dünyanı dərk edirik
Sevinclə qəm arasında.
Bir dolambac ömür durur
İki məqam arasında.

Çatammırıq biz fərəhə,
Dərdə, qəmə tuş olmuruq

Sağlığa da qovuşmuruq
Dərd selinə qovuşmadan.

Nə qədər gözəl görünür
Kol-kosun içində çiçək.
İşığın qədri bilinməz
Zülmətdə zülm çəkməsək.

Boğaz necə cəh-cəh vurur
Sözlə avaz arasında.
Bir dolaylı yollar durur
Toy ilə yas arasında.

*12 dekabr 2006*

## XEYİRLƏ ŞƏR ARASINA

Vaxt gəmirir hər binanı,
Tavanla tir arasında.
Bir rəqəm də, demə, varmış
İkiylə bir arasında

Ucaldıqca biz ucaldıq,
Özümüzdən qisas aldıq
O gündən ki, körpü saldıq –
Göy ilə yer arasında.

Qardaş olub siçan-pişik,
Biz gül əkib, gül dərmişik.
Sərhədləri itirmişik
Xeyrlə şər arasında.

İki duyğum – iki aləm,
Birində qəm, birində dəm.
Amma ömür sürməmişəm
İki fikir arasında.

Fikir də bir, amal da bir,
İşarədən mətləb götür.
Gözünlə bax, ağlınla gör
Fikri sətir arasında.

Könül bulan, könül, durul,
Hər gün səfərə hazır ol.
Ömür dedin – beş addım yol
Beşik – qəbir arasında.

*May 2007*

## LAY – LAY
*(Anasının dilindən)*

***Balaca Çingizə***

Ata sayqılarıyla,
Ana qayğılarıyla
Görüm yaşa dolasan.
İki nəslin adına
Layiq oğul olasan.

Sən babanın adını
Daşıyırsan, ay oğul,
Gözəl əməllərinlə
Sən adına layiq ol!
Körpə Çingizim mənim,
Dilimdə mahnım olan
Ay şirin sözüm mənim.

Səni bir igid kimi
Gördüyüm röyalarım
İstərəm ki, çin olsun.
Xoşməramlı mələklər
Sənin gözətçin olsun.
Ay könlümün diləyi,
Gözlərimin bəbəyi.

Sənə qadir Allahın
Göndərdiyi pay deyim.
O gün olsun mən sənin

Balana lay-lay deyim.
Körpə Çingizim mənim,
Ay görən gözüm mənim!

*May 2006*

## NƏDİR ETİRAF?

Öz-özümü mənəm çəkən çarmıxa,
Nə biləydim, hökmü verən qədərmiş.
Öz içimdə hakim ilə məhkumun
Gecə gündüz çəkişməsi hədərmiş.

Çox düşündüm: nədir qəsdim, niyyətim?
Hara çəkir görən məni fıtrətim?
Bu dünyadan mənim payım, qismətim,
Sevincimdən oğurlanan kədərmiş.

Mən baxmadım nə yada, nə həmdəmə,
Nöqsanımı faş elədim aləmə,
Hey danladım öz-özümü...
heç demə
Mərdliyim də etirafa qədərmiş...

Vicdanımdan sordum: nədir etiraf?
Cavab verdi: bir tövbədir etiraf.
İndi bildim: əməlsiz bir etiraf
Günah kimi nöqsandan da betərmiş.

*31 Dekabr 1998*

## ALLAHA
## GEDƏN YOL

Boşalıram, dolmuram,
Çaşdırmışam sağ-solu.
Axtarıram, bulmuram
Allaha gedən yolu.

Necə çatım mən ona?
Şeytan girir min dona.
Daş atır haqq yoluna,
Azır Allahın qulu.

Özüm-özümə qənim,
İçimdədir düşmənim.
Yolumu kəsmiş mənim
Bağ çəpəri, dağ kolu.

Hər bütə ram olmuram,
Dönüb səcdə qılmıram.
Heç cür ayılammıram
Yuxuluyam, yuxulu.

Boşalıram, dolmuram,
Çaşdırmışam sağ-solu.
Axtarıram, bulmuram
Allaha gedən yolu.

*Oktyabr 2001*

## CAVABSIZ SUAL

Ömür boyu qəlbimizdə
Arzular çırağı yanır.
Budaqdan Ana Həvvanı
Aldadan alma sallanır.

Onu danan, bunu danan,
Xəyalına havalanan,
Öz-özünə heyran olan
Əyrisini doğru sanır.

“Bu dünyadan, axı, niyə,
Kam almayım?” - deyə-deyə
Dünya yükünü çəkməyə,
İnsan könüllü çullanır.

Ömür keçir bir an kimi,
Fırlanırıq dövran kimi,
Bir arzuya çatan kimi,
O birisi xəyallanır.

Gəncliyini salıb yada,
Qoca qəmdə boğulsa da,
Acılığı dada-dada,
Həyat getdikcə ballanır.

İlkin, sonun fərqini bil.
Cavanlıq - şirincə nağıl,

Qocalıq - dərincə ağıl
Coşub daşmır, amma qanır.

Eşq oduna yanan zaman
Haldan-hala düşür insan.
Qanad alır xəyalından
Ömrü, günü nağıllanır.

Başdan-başa ömür yolu
Daşla- kəsəklə dopdolu.
Tez yaşlanan insan oğlu
Bəs niyə gec ağıllanır?...

*Avqust 2001*

## QANDINSA....

Qanmasan, salamatsan,
Hər qayğıdan azadsan.
Qandınsa, narahatsan,
Düz yolda da xata var.

Batırsansa dərində,
Çapalama yerində.
Dərdin dənizlərində
Bir xilaskar ada var.

Ağılla hiss yan-yana,
Mələk-iblis yan-yana.
Yaxşıyla pis yan-yana
Bu var isə, o da var.

*Şəki, avqust 2003*

## BƏDBƏXTLİK

Qızılı döydülər... haray-həşirsiz,
Yapıxıb mum kimi zindanda qaldı.
Dəmiri döydülər... Qışqırığından
Qulaqlar tutuldu, gözlər qaraldı.

Qızıl dedi: - Dəmir, söylə nədir bu?
Məni də döydülər, axı sənin tək.
Səsimdən bir adam xəbər tutdumu?
Dəmirsən, əzaba dözəsən gərək.

Dəmir söylədi ki: - O zərbələrdən,
Ahu-nalə çəkib ağlamadım mən.
Bədbəxt yaranmısam, sənsə bəxtəvər.
Səni dəmir döydü - özgəsi döydü.
Ona ağladım ki, məni döyənlər
Özgəsi deyildi, özümünküydü.

*Avqust 2006, Şəki*

***

Ömrün neçə-neçə pillələri var.
                    Uşaqkən hələ
Verdiyi cürbəcür suallar ilə
Dünyanı öyrənmək istər uşaqlar.
Hər yaşın öz sözü, öz sualı var.
Sualla başlanır ömür, bu haqdır,
Amma nida ilə qurtaracaqdır.
Elə ki, ömrün gedir payız fəsli,
                    Gəlir qış fəsli.
Əyilir bədəni, bükülür beli,
Vücudu bənzəyir əyri suala.
Ona xəndək kimi dərin görünür,
Önündə dikələn hər çuxur-çala.
Bir ömür yaşayıb çox bilən qoca,
Özü bir suala çevrilən qoca
İndi heç kəsə yox, özünə verir
Uşaqkən verdiyi min bir sualı,
Uşağa bənzəyir onun bu halı.

## QİTƏLƏR

* * *

Bilsəydim gecələrdə
Sabahların hökmünü,
İstəyimcə yaşardım
Ötüb keçən hər günü.

*Mart 2006*

* * *

Özgə qüsurunu gördük nə qədər,
İnsan öz-özünə sirdir, sirr ancaq.
Bizə bu dünyanı göstərən gözlər
Bir yol öz-özünü görəmmir ancaq.

*May 2005*

* * *

Taleyin hökmüdür xeyir də, şər də,
Onu da, bunu da haqdan sanmışam.
Ağlımın qüdrəti çatmayan yerdən
Fəhmimə, hissimə arxalanmışam.

*İyul 2008, Şəki*

* * *

Təpədən dırnağa qadınsan, qadın!
Ey həssas qəlbinə heyran olduğum.
Ümidsiz eşqindən peşman olmadın,
Cismimiz ayrıdır, qəlbimiz qohum.

*11 avqust 2008*

* * *

Bir bax, açılan sübh, qızaran dan, doğulan gün
Bir töhfəsidir Allahın insanlara hər gün.
Min töhfə umub aldığı bir töhfədən insan,
Neyçün bu gözəlliklərə heç olmadı şükran?

* * *

Çeynənmiş sözlərlə qulaqlar dolmuş,
Təzə söz istərəm, onu ver mənə.
Dünəndən bu günə yol tapdaq olmuş,
Bu gündən sabaha yol göstər mənə.

\

* * *

Tamahkar həmişə dilənçi, acgöz
Borcunu dəbbələr, dəbdələdikcə.
Tamah iştahıyla yeyən dələduz
Heç vaxt doya bilməz, acar yedikcə.

* * *

Buludlar – gözünün kökü saralmış
Ayrılıq çəkənin ahı deyilmi?
Ümid – hər istəkdən bir az kam almış
Xəyal ölkəsinin şahı deyilmi?

* * *

Allahın varlığı - sirri qədimdir,
Allahı anlayan varsa, de, kimdir?
Allahı anlamaq, onun sirrini
Heç cürə anlaya bilməməyimdir.

* * *

Dünyanın kalına dəymədi dəymiş
Sığalı - aldanış, qəsdi-tələymiş.
Bu qədər yaşadım dünya evində
Bilmədim bu evin qibləsi nəymiş.

* * *

Özünü hər şeyə qabil sayanlar
"Ən ali məqama layiqəm", - deyir.
Bir qəlbi tikməyi bacarmayanlar
Millətin qəlbinə girmək istəyir.

* * *

Bizim sükançımız qədərmi yalnız?
Çalışmaq, çarpışmaq boş əfsanədir?
Əgər mütləqdirsə alın yazımız
Bəs bizə verilən bu ağıl nədir?

* * *

Rəhbər cahildirsə, millət də qafıl,
Demək, bu məmləkət üz üstdə batmış.
Millət də, rəhbər də oyanan deyil,
Oyada bilərmi yatmışı yatmış?

* * *

Yandım atəşinə hissin, idrakın
Yalnız öz dünyamı anlamaq üçün.
Ağıl girməyən yer bəs-bəlli, aydın!
Ağıl girdiyi yer sirdir büsbütün.

* * *

Bizim gözümüzü tozlama, qardaş
Xəyaldan həqiqət gözləmə, qardaş.
Bu gündən sabaha yol çox uzundur.
Balığı dənizdə duzlama, qardaş.

* * *

Adımı dəyişin, bilinsin yolum,
Məgər bəxtiyaram, Bəxtiyar olum?
Sinəmə dağ çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum?

* * *

İçimi göstərmədim cahil tutan güzgüyə
İçdə gülüb içimdə müşgülümə ağladım.
Öz dərdimi çox zaman ünvanlayıb özgəyə
Özgəsinin yasında öz ölümə ağladım.

*2003*

* * *

Oğuzdan törədim, türk oğlu türkəm,
Poladdan kövrəyəm, dəmirdən bərkəm.
Alçalda bilməzsən məni, a nadan,
Mən bu görkəmimlə dünyaya görkəm.

* * *

- Yoxluq nə imiş? Öz-özünü var kimi sanmaq,
Varlıqları yoxdan var edən Allahı danmaq.
Varlıq nə imiş? Mütləqə qəlbinlə vurulmaq,
Eşqində var olmaq üçün Allahda yox olmaq.

* * *

Könlümlə duymuşam nəyi duydumsa dünyada
İdrak edir, fəqət nə edək, ağlın odu yox.
Könlümdür üzdürən məni ruhani dünyada
Ağlın hüdudu var isə, könlün hüdudu yox.

* * *

Qovşağı böyükdür cismimlə ruhun,
Bulanıq göl idim, axdım, duruldum.
Ruhumu şeirimdə yaşatmaq üçün
Cismimi kölgəmdə gizlədən oldum.

* * *

Hərdən yaşasaq da fərəhli günlər,
Yenə də dünyanın yükü çiyində.
Kölgənin üstünə nə töksən hədər!
Kölgə qalmalıdır kölgəliyində.

* * *

Yay ayları - Vaxtla savaş ayları,
Üzə çıxır içimdə dərd layları.
Birdən qışa döndərəydi Allahım
Məni məndən ayrı salan yayları.

* * *

Öz hakimi zaman olur tarixin,
Sabaha bax, ey bu günə hökm edən.
Məhkəməsi yaman olur tarixin,
Axı, tarix rüşvət almır kimsədən.

* * *

Dostsan mənə, yalnız özünə sanki qənimsən.
Mən heç də sənin olmamışam, sənsə mənimsən.
İlkim nə idi, mən kim idim, indi kim oldum?
Sən kimsən, əzizim! Məni sən “mən” edənimsən.

* * *

Eşqin odu, keçmişdə deyirdin ki, - vüsaldır.
Bitmiş o vüsal, eşq uzanır, bəs bu nə haldır?
Sönmüş o həvəs, köhnə diləklər unudulmuş,
Hicran niyə bəs indi vüsaldan şirin olmuş?

*1980 - 1995*

* * *

Özüylə savaşı nə bilsin naşı?
Daim savaşdadır aqil, özüyiə.
Dostun pis işini üzünə qarşı,
Yaxşı işlərini ardınca söylə!

*2004*

* * *

O gülün sehriylə ovsunlanmışam,
Dilsiz əşya kimi baxmayın gülə.
O bizlə səssizcə danışır müdam,
Ətrilə, mənalı təbəssümüylə.

*2006*

* * *

Mədənin gözüylə dünyaya baxdın,
Ağla güvənməli, ağla, ay yazıq,
Başından mədənə keçdisə ağlın,
Ağlının gününə ağla, ay yazıq.

* * *

Yalnız son nəfəsdə gercəyi bulmuş
Dünyanı əbədi mənzil sayanlar.
Elə doğulanda ölü doğulmuş
Vaxtında ölməyi bacarmayanlar.

* * *

Heykəl qarşısında heykəlləşirkən
Onu yaradanı düşünürəm mən,
Aynada özümə baxdığım zaman
Həmişə özümü düşündüm nədən?

## GÖRDÜKLƏRİM

Elə gün görmüşəm əsrə bərabər,
Gündən uzun olur bircə anlığı.
Elə həyat da var, yuxuya bənzər,
Doğumdan ölümə zindəganlığı.

Bir heykəl görmüşəm, şair heykəli -
Baxanı ağladır pərişanlığı.
Bir şəhər* görmüşəm tamam məhv olmuş,
Yanında yaşayış qəbirstanlığı.

Bir ağac görmüşəm qollu-budaqlı,
İlin dörd fəslində meyvəsi kaldır.
Bir rəngsaz görmüşəm sirli-soraqlı,
Qaranı ağardır, ağı qaraldır.

*Fevral 2006*

*Karfagen şəhərinə işarədir.

## GÖRDÜM

Bol olsa meynəsi, bol olsa barı
Əyilən budaqdan ibrət götürdüm.
Başını dik tutan ədəbazları
Daim özündən də aşağı gördüm.

*2004*

## SƏNİN UCALIĞIN

Sənin sehrindəki bu hikmət nədir?
Sənin ucalığın fitrətindədir.
Zirvələr təpəyə heç vaxt əyilməz,
Zirvələr heç zaman alçala bilməz.

*2005*

## İDEAL

İdeal demişdim sənə bir zaman
İdeal deyirəm, sənə mən yenə,
Zaman ötüb keçdi, bu müddətdə sən
İdeal qəlbini göstərdin mənə.

*2005*



# MÜXTƏLİF SƏBƏBLƏRDƏN CİLDLƏRƏ DÜŞMƏYƏN VƏ YENİDƏN İŞLƏNƏN ŞEİRLƏR



*Nər bir dərdə, hər azara*
*Əsl çara torpaqdadır.*
*Hər kəsin də üz ağlığı*
*Yenə qara torpaqdadır.*

## VƏTƏN MARŞI
### *(«Mühakimə» poemasından)*

Ey vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünəndir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var,
Vətən uğrunda ölənlər ölümündən doğular.
Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik,
Biz Vətən naminə ölsək, dirilərdən diriyik.
Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: "Yönü bayraqdakı üç rəngdən alım!"
Sən bu al bayrağın altında məramınca yaşa,
Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Günəş hər gün doğulur öz içimizdən vətənə.
Bizim iqbalımızı yazdı qılıncın kəsəri,
Bizi biz etdi Dədəm Qorqud oğuznamələri.
Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi qızlar Vətəni.
Sənin haqqındır azadlıq, sənin eşqindir inam,
Tapınar haqqa və insanlığa haqdan doğulan.
Bəşərin dərdini öz dərdi bilib millətimiz,
Bizim öz niyyətimizdən doğub hürriyyətimiz.
Gecələr yatmadan əvvəl sor özündən ki:"Bu gün
Mən nə etdim məni yurddaş edən öz yurdum üçün?"

*1999*

## AZAN SƏSİ

Evim sükut içində, saat vurur takkatak.
Hamı yatır mışhamış, təkcə mənəm, mən oyaq.
Gecələr sirdaşımdır, gecələr həmsöhbətim,
Gecələr – gecələrdə qazandığım sərvətim –
Şeirlərim, sözlərim, sonsuz xəyalım mənim.

Gecələr dünya ilə min həsbi-halım mənim.
Mənimçün həm sevincdir, həm ələmdir gecələr.
Öz könlümə açılan pəncərəmdir gecələr.
Yalqızlığın içində özümlə baş-başayam.
Bölünürəm ikiyə, gah bu tay, gah o tayam.
Mənim ən xoş əhvalım-özümlə söhbətimdir.
Bəzən də lap özümdən özümə qiybətimdir.
Qulağımda səslənir sükuutn min çaları
Gecələri hərfsiz, sözsüz pıçıltıları...
Uçur fikrim – xəyalım, uçur qolum – qanadım.
Gecələrlə başlanır mənim əsl həyatım.
Neylim? Yuxu haramdır, mənə haram, gecələr.
Mən bir insan ömrünü yaşayıram gecələr.

Gecə sükut içində... yer göy yuxuda... birdən
Açılan ələ bənzər uca minarələrdən.
Gəlir qulaqlarıma “Allahu–Əkbər səsi.
Bu, göylərin səsidir, ola bilməz yer səsi.
Bu səsdə zaman məkan bir-birinə qarışır,
Bu səsin tilsimiylə ölümlə də barışır,
Ölümün caynağını ana qoynu sanırsan,

Elə bil yuxudaydın qəflətən oyanırsan.
Tüklərin biz-biz olur, sən lərzəyə gəlirsən,
Bu dünyadan
ilahi dünyaya yüksəlirsən.

**- 2 -**

Bilirsən həyat nədir, ölüm nədir, əzab nə?
Ürəyin təslim olur o səsin tilsiminə.
Sən bu azan səsində çimib təmizlənirsən.
İçindən baxa-baxa içində gizlənirsən.
Duyduqca o səsdəki sehirli ülviyyəti,
Cilvələnir gözündə zaman-məkan vəhdəti.
O anlarda elə bil sən səcdəyə gəlirsən.
Özün də heç bilmədən qəlbinin hökmü ilə
Sən səcdəyə gəlirsən.
Atıb cismin yükünü sən ruha çevrilirsən.
Silkələnib gecə də yuxusundan oyanır,
Yaşıllaşan dünyanın yaz rənginə boyanır.

Mən səsdə görürəm gözə görünməzləri,
İlahinin yolunda yolundan dönməzləri.
Bu xoş dəqiqələrdə "Allaha vardım" – deyə
Mən təpədən dırnağa çevrilirəm səcdəyə.

*20 mart 2003*

## GORƏN NİYƏ TƏKLƏNİRƏM?

Qocaldiqca
İtirdiyim illərimin
Həsrətilə yüklənirəm.
Ucaldiqca
Bir o qədər öz gözümdə
            mən, enirəm.
Duyğularım yuxaldiqca
Öz-özümdən şəklənirəm,
Dost-tanışım çoxaldıqca,
Görən, niyə təklənirəm?

*İyul 1988*

## ƏŞYALAR DANIŞIR...

*H.Üzeyirbəyin əziz xatirəsinə*

Yolun son mənzili ilkinii dandı,
Güney bitən yerdən başlanır quzey.
Elə ki, dahinin qəlbi dayandı,
Adı - tarix oldu, evi - bir muzey.

Dahinin qələmi, mizi, dəftəri,
Eksponat oldu o gündən bəri.
Bu cansız əşyalar ilkini dandı,
İtdi o əvvəlki vəzifələri,
Onlar tamam başqa dəyər qazandı.

Dahinin gözləri qapanan zaman
Dahinin yerinə onlar dindilər.
Çıxıb adiliyin dar otağından
Qeyri-adiliklə rütbələndilər.

Əşyalar danışır...
                    Günlər incitək
Xatriə sapına düzülür indi.
Əşyalar üfürür...
                    Şönən bir ürək
Boz külün altından çözülür indi.

Amma insan kimi dolayı deyil,
Qartal bu mətləbi kəsə anladı:

«Bütün qartallann bir xisləti var -
Düşməni də bəlli, dostu da bəlli.
Bir xislətdə deyil bütün adamlar
Hər biri mm üzlü, min bir əməllii...
Qanımı axıtdı onların biri,
Yaramı sarıdı amma digəri.
Baş aça bilmirəm bu dolaşıqdan –
Ovçu da insandır, çoban da insan...»

*Mart 2004*

## DOĞUM HAQSIZ, ÖLÜM HAQLI

İstəyimə yol gedirəm
Gözü bağlı, sinə dağlı.
Mən dünyaya neyləmişəm
Mənə baxır qaşqabaqlı?

Qəmim şahdır, mənsə vəzir,
Hər əmrinə mən müntəzir.
Sevinc məndən kənar gəzir,
Oldum dərdimə adaxlı.

Baxdım sola, döndüm sağa,
Nəfsimə qoydum qadağa.
Məni qoymur yaşamağa,
Neyləyirəm mən bu ağlı?

Mən bu dağı çapammadım,
İstəyimdən qopammadım,
Gəzdiyimi tapammadım
Axtardım əli çıraqlı.

"Doğum haqdır" – deyən yoxdur,
Hamı deyir ölüm haqdır.
Dünyada hamı qonaqdır
Doğum haqsız, ölüm haqlı.

*Oktyabr 2000*

## ZAHİRƏ BAXMA

Göz gördü, xumarlandı, bəyəndi,
Eşqində yanan amma ürəkdir.

Cismim, bədənim sızlamasın çox,
Cism arzuya, amala yedəkdir.

Sevdiysə könül ömrü boyunca
Fəryad çəkərək, göynəyəcəkdir.

İlk ilə sonun fərqi böyükmüş,
Bir bax, balın əcdadı çiçəkdir.

Sən qiymət üçün zahirə baxma,
Tut yarpağı əslində ipəkdir.

*2002*

## BELƏ GETSƏ...

Bir sirdaş istəyrik
Qəlbimizi duyacaq;
Təmizsə qəlbimizi
Gəlin özümüz açaq.

Acgöz yedikcə acar,
Dilənçiyə əl açar,
Zənn etmə ki, tamahkar
Axır bir gün doyacaq.

Ucaldıqca biz endik,
Düz yoldan geri döndük;
Özümüzü düşündük,
Özümüzü biz ancaq.

Qana həris zəlilər
Sorduğunu az bilər;
Belə getsə ölülər
Mürdəşiri yuyacaq.

*Oktyabr 1999*

### AH
***(Yeni variant)***

Dünən qəlbə çəkilən dağ
Zaman keçmiş, unudulmuş.
Zalım məzlumun önündə
Geci-tezi zəlil olmuş.

Zalımların günahı var,
Məzlumların min ahı var.
Haqq adlanan pənahı var,
O haqqla da haqqı bulmuş.

Axdıq, axdıq durulmadıq.
El dərdinə yad olmadıq.
Ah çəkmədən yorulmadıq,
Ah - Allaha gedən yolmuş.

Göz yaşımı tökə-tökə,
Gecələr ah çəkə-çəkə
Allahımı bula bildım.
Boşaldıqca dola bildim.
Əllərim göyə açılmış
Ah - Allaha gedən yolmuş.

Ucaldıb könül ahımı
Tanımışam Allahımı.
Allah bizə pənah olmuş,
Ah – Allaha gedən yolmuş.

Minnətdar oldum hər zaman
Nalə dolu qəlb ahıma,
Mənim sözsüz dərdlərimi
Ah çatdırır Allahıma.

*2006*

## MƏKTUB

***("Mühakimə" poeması ndan)***

Sağım sənsən, solum sənsən,
Mənim sabaha gedən
Uzun, sonsuz yolum sənsən.
Masamın üstündəki
Qələmim, varağım sən.
Başımın üstündəki
İşığım, çırağım sən.
Mən hara baxıramsa
Səni görürəm, səni.
Gözlərim görə bilmir
Səndən başqa kimsəni.
Günüm keçir beləcə,
Necə çox sanmış, necə!

Eşitdiyim nəğmə sən,
Səda da sən, söz də sən,
Gecə sən, gündüz də sən.
Sıxır, necə dar gəlir
Bu boyda cahan mənə.
Rahatlıq ver, amandır,
Gündə bircə an mənə.
O bircə anda sənsiz
İstəyirəm tək qalım.
Bircə an xilas olum
Sənin əsarətindən.

Kimdən imdad istəyim,
Səndən başqa de, kimdən?
Sən, ey başımın tacı,
Hər dərdimin əlacı.
Bütün arzularımın
Önü sənsən, sonu sən -
De, bildinmi bunu sən?
Səndən başqa nə varsa
Görünür yalan mənə.
Dünyanın mərkəzidir
Sizin dar dalan mənə!
Hər yerdə səni görən
gözlərimdən
Yuxum da
Qaçaq düşüb, qayıtmır.

Mən sənsiz itirmişəm
Var-yoxumu, sevgilim,
Pəncərənin önündən
Qov yuxumu, sevgilim!

*18 noyabr 1996*

## BAŞ DAŞINDA SAAT

Yazıldı saatsaz məzarı üstdə:
“Filan il doğuldu, filan il öldü”.
Mərhumun kimliyi bilinsin deyə
Qəbrin baş daşına saat “hörüldü”.

Körpəykən - doğumu keçmiş zamandı,
Onun ölümüysə - gələcək zaman.
Ölümün özü də onda gümandı,
Ölüm gerçəyində dayanır zaman.
Dünyadan köçəndə
əslinə baxsan,
Qəbrə yox, keçmişə gömülür insan.

Elə bil saata gülür qəbir də,
Nə dönüb dolanır, nə dinir saat.
Vaxtın, hərəkətin donduğu yerdə
Nə qədər qəribə görünür saat.

Üz-üzə dayanır ölüm həyatla,
Zaman üst qatdadır, alt qata sığmır.
Həyatı həmişə ölçdük saatla,
Ölümsə zamana, saata sığmır.

Burda yatanlara ölüm paylayan,
Vaxt da onlar kimi ölmüş bu yerdə.
Həmişə öndədir gələcək zaman,
Keçmiş zaman isə yatır qəbirdə.

Vaxt - yerin üstündə keçəridirsə,
Əbədiyyət olur yer altında an.
Yerin üst qatında o, dövr edirsə,
Yerin alt qatında nüvədir zaman.

*İyun 2004*

## ÖNDƏ İŞIQ VAR

Ayrılıq hökmünü verdin sən özün.
Bəlkə də sən özün deyildin o gün.
Söylə, indi mənim günahım nədir?
O gündən bu günə həsrətindədir
Qulağım səsinin, gözüm üzünün.
Həsrətin, möhnətin artır günbəgün.

Mənim ümidgahım tək sənsən, Allah.
Ürəkdən keçəni bilənsən, Allah.
Demişəm həmişə, deyirəm yenə
Möhtacam mən sənin kəramətinə.
Yox! Yaman uzandı həsrətin yolu
Dözəkmi bu dərdə axıra qədər?
Sən mənə kömək ol, yol göstər, məgər
Bir iz, bir çığır da yoxmu geriyə?
Niyə belə oldu, bilmirəm, niyə?
Həsrətin əzabı olarmı bunca?
Ey mənim diləyim, ömrüm boyunca
Səni harayladım, mən ancaq səni.
Öz qibləm bilmişəm sənin qibləni,
İndi mən üz tutum hansı qibləyə
"Mənimsən" – deyə?
Yox, yox! Ümidliyəm, öndə işıq var,
Qiblə dəyişdirən qiblәsiz qalar.

*Mart 1981*

## GÖZ ÖZÜNÜ GÖRMÜR

Düşünək anbaan, enək günbəgün
Əqlin varmadığı dərinliklərə.
Yerin hikmətini anlamaq üçün
Göydən baxmalıyıq anamız yerə.

Bilək öz rəngini hardan alır qan,
Neyçin yatanda da döyünür ürək?!
Çiçəyin ətrini bilək tumundan,
Çeşmənin gözünü suyunda görək.

Bilək nədir nifrət, nədir məhəbbət,
Bilək ruhumuzu, tiynətimizi...
Bilək bu ağ saçlı ana təbiət
Nə üçün yaradıb yaşadır bizi?!

Bilək – hara gedir əməllərimiz?
Neçin ömrün yolu düyün-düyündür.
Bilək – dünya üçün yaranmışıq biz,
Yoxsa, dünya özü bizim üçündür.

Niyə könül yaxan nəğmənin, sazın
Yanğısı görünür, közü görünmür?
Niyə ağlımızın, idrakımızın
Əməli görünür, özü görünmür?

Bilək bu dünyada dünya yaradan
Ömürlər dünyanı niyə tərk edir?

Göyləri, yerləri dərk edən insan
Bəs niyə özünü çətin dərk edir?

İnsana gizlidir insan fitrəti,
Quzuykən qəflətən o, dönür şirə.
Bu gücü, hünəri, bu cəsarəti
İnsan hardan alır bəs birdən-birə?

Bir də görürsən ki, bir anda onun
Nifrətə çevrilir məhəbbəti də.
Qırx il can dediyi "əziz" dostunun
Demə, xəyanətmiş "sədaqəti də".

Pişik pişikdir ki, dostu düşməndən
Çox gözəl ayırır, seçir birbəbir.
Pişiyin dünyaya gəldiyi gündən
Qorxuzduğu siçan, qorxduğu itdir.

Dost-düşmən bir yana, hələ də insan
Tanıya bilməmiş özünü bir an...

Bəzən bir çiçəyin, gülün iyində
Böyük bir aləmi görüb, duyuruq.
Ancaq qəlbimizin dərinliyində
Yatan duyğulardan xəbərimiz yox.

Özgə qüsurunu gördük nə qədər, -
İnsan öz-özünə sirdir, sirr ancaq.
Bizə kainatı göstərən gözlər
Təkcə öz-özünü görəmmir ancaq.

*Avqust 2000*

## MƏN DƏRDDƏN QAÇANDA

**(“Son görüş”, “Mühakimədən”)**
***(Yeni variant)***

Mənim ürəyimdə verib baş-başa
Dayanır dağ boyda dağlar sükutda;
Biri digərindən xəbərsiz, səssiz
Dərdlərim şam kimi ağlar sükutda.

Zaman dara çəkir fikri, xəyalı,
Zaman damcı-damcı axır gözümdən.
Arzular başıma qaxıınc olalı
Özümü sükuta tapşırmışam mən.

Qalmışam su üstdə tənha qu kimi,
Fikrimə dar gəlir bu yerlər mənim.
Mən dərddən qaçanda, bir oğru kimi,
Tutur ayağımdan fikirlər mənim...

Solub ürəyimdə saralır dən-dən
Hələ açılmamış tər qönçələrim;
Yatmaq istəyəndə dərdin əlindən
Mənə yorğan olur düşüncələrim...

Mən dərddən qaçanda, yolda iz qalır,
Alov közdən qaçır, közə dərd olur.
Dərdimdən qaçanda dərd yalqız qalır,
Bu da mənim üçün təzə dərd olur.

Solan bir çiçəyəm, gün batan kimi
Min hala düşürəm bu dövran kimi;
Bir günlük nəşəmiz ötür an kimi,
Bir anlıq qəmimiz bizə dərd olur.

Saralıb yox olur min arzu, dilək,
Bu dərdi də çəkən ürəkdir, ürək;
Düzəndə bürküdən solur gül-çiçək,
Çiçəyə dərd olmur, düzə dərd olur.

*Noyabr 1965*

## ZÜLMƏTDƏ OYAĞAM, İŞIQDA YATMIŞ

Soruşma, dahilər görəsən, neçin
Ögey övladıdır zəmanəsinin?
Xalq üçün yananlar Adəmdən belə
Qarşı - qarşıyadır zəmanəsilə...

Görünməz içdəki atəş hər gözə,
Baxan xəbərsizdir onun içindən.
Ruhumda, duyğumda hər gün bir təzə
Qitəni kəşf edən bir səyyaham mən.

Tapdığım qitədə yer zolaq-zolaq:
Üstü gah çaladır, gah dik, gah oyuq.
Torpağın üstünü görürəm ancaq,
Torpağın altından xəbərimiz yox.

Gör məni Allahım necə yaratmış,
Zülmətdə oyağam, işıqda yatmış.

*Oktyabr 2000*

## GÖZÜMÜ YUMSAM DA...

Hələ uşaq ikən könlümü verdim
Qanadlı xəyala, sadəliyimdən.
Gözümü yumanda elə bilirdim
Heç kəs məni görmür, görmürəmsə mən.

Gör hara çatdırdı bizi bu dövran,
Qarışıb zülm ilə haqqın hədləri.
Görmək istəmirəm indisə bir an
Gözümlə gördüyüm müsibətləri.

İtib hədd-hüdudu dərdi-sərimin,
Könlümdə yas tutur min dərd, min fikir.
Axı mən neyləyim, gördüklərimin
Göynək ağrısını ürəyim çəkir.

Necə də puç oldu şirin xəyallar,
Dünya qan ağlayır, zaman hönkürür.
Gözümü yummağın nə mənası var,
Gözümü yamsam da ütəyim görür.

Yarəb, ürəyimə necə deyim mən
Səni sən eliyən xalqa nankor ol.
Axı nə gələcək sənin əlindən,
Ürəyim, eşitmə, ürəyim, kor ol.

İtirdim sadədil uşaqlığımı,
Durub göz önündə çılpaq həqiqət.

Gözümü yumsam da görəcəm, axı,
Məni də, çəkdiyi zülmü də millət.

*18 yanvar 2001*

## YAXŞI Kİ, BİLMİRİK...

İmkanın həddini bilsə də insan,
Xəyala, arzuya yenə təşnədir.
Bizi yuxularda kama çatdıran
Arzunu güldürən yuxular nədir?

Sonsuz arzularla həyat tən-olsa,
O şirin olmazdı yuxular kimi.
Yuxular həmişə əgər çin olsa,
Yaşamaq insanı bezdirməzdimi?

Ömrümüz boyunca xeyirdən, şərdən,
Könül bir möcüzə gözləyir nəsə.
Yaşamaq əzaba dönərdi
hərdən
Xəyala gələnlər başa gəlməsə.

Xəyal - qovulduqca qaçan bir pəri
Bəzən kül üfürür gözlərimizə.
Alıb əlimizdən nəğd günləri
Nisyə gələcəyi bəxş edir bizə.

Al-əlvan boyalı düşüncələrdən
Bəzən yol salırıq toy-düyünlərə.
Qanadlı, qanadsız yuxular, bazən
Şəkər damcılayır acı günlərə.

Yuxuda uçuruq, bu çəmən, ba dağ -
Arzu gülşəninin çiçəkliyinə.

Bu ki, günah deyil... Bəzən aldanaq
Şirin yuxuların gerçəkliyinə.

Ürəkdə doğulan sirli bir səsə
Uyuruq...
Bilmirik hardandır bu səs?
Əgər öz yuxumda uçan mənəmsa,
Onda çarpayıda yatan kimdi bəs?

Biz hələ bilmirik nədir bu axın
Dolan - o tərəfdən boşalır yenə.
Biz hələ bilmirik öz dünyamızın
Bu tayında nə var, o tayında nə?

Çox şeyi bilmirik,
Sirlər qatbaqat.
Bitməsin insanın arzusu, dərdi.
Yaxş ki, bilmirik...
Yoxsa bu həyat
Tamam adiləşər, bəsitləşərdi.

*1980-81*

## SEVİNCİN ZİRVƏSİ, DƏRDİN ZİRVƏSİ

*Köhnə dostum M.Sadıq müəllimə*

Qarışıb dünyanın yaxşı-yamanı,
Əzabı, ləzzati, sevinci, qəmi.
Göründüyü kimi gördüm dünyanı,
Çox vaxt görəmmədim olduğu kimi.

Gəldim zaman ilə bəzən döş-döşə,
Bəzən ala bildim öz istəyimi.
Həyat qurtarardı,
əgər həmişə
Dünya görünsəydi olduğu kimi.

Dünya çalın-çarpaz dağlayan kəsi
Özgəsinə sevinc paylayan gördüm.
Ən böyük sevincdə ağlayan kəsi
Dərddə qol götürüb oynayan gördüm.

Arzu tənliyində, hiss tənliyində,
Tutur ağ qaranı,
Bəm səs zil səsi.
Birləşir duyğunun dərinliyində
Sevincin zirvəsi, dərdin zirvəsi!

Ey könül, dünyadan nə küs, nə inci,
Sevincdə qəmi gör, qəmdə sevinci.

## O QƏDƏR QORXMUŞAM

Təhdidlə, qərəzlə üz-üzə gəldim,
Usanıb yoruldum, düzü, mən daha.
Görürəm, yamanca üstələnmişəm,
Yoxdur umacağım zülümdən daha.

Yoxdur bir sərvətim sözümdən özgə,
Əlacım qalmadı dözümdən özgə,
Düşmənim özüməm özümdən özgə,
İndi qorxmalıyam, de, kimdən daha?

Adladım Arazdan, keçdim Fəratdan,
İndi piyadayam, düşmüşəm atdan.
O qədər qorxmuşam mən bu həyatdan,
Zərrəcə qorxmuram ölümdən daha.

***

Uzun illər boyu öz vətənindən
Qovdular səni,
Doğma dil bildilər bizə gəlməni.
Şükürlər olsun ki, qayıtdın yenə
Doğma vətəninə, doğma elinə.
Səni vətənində daim var görüm!
Həmişə üzün ağ, başın dik olsun,
Alqışlarım sənə üzərlik olsun.
Sən bizə gərəksən, biz sənə gərək,
Özünə qayıdan haqqın mübarək!

*Sentyabr 1989*

## KÖKÜNDƏN XƏBƏRSİZ

*İslamı qəbul etmiş*
*alman dostum H.Əhməd Şmideyə*

Suyun axarına daim üzənlər
Xeyrindən savayı heç nəyi bilməz.
Sabahı eşitməz, bu günü dinlər,
Dünya dağılsa da, vecinə gəlməz.
Nə Vətən tanıyar, nə millət bilər,
Belə söhbətləri qəbahət bilər.

Heç zaman, heç kəslə bəhsə girişməz,
Nə toyda irişər, nə yasda ağlar.
Dözər təhqirə də, əsəbiləşməz,
Onun nə düşməni, nə də dostu var.

Ehtiyac içində boğulanlara
O, yardım eləməz, nəsihət eylər.
O hara, özgəni düşünmək hara?
Nə iztirab çəkər, nə qəlbi göynər.

Koldan elə qorxar, bir gülü üzmək
Qəlbinə gəlsə də, yaxına gəlməz.
Suyun axarını tərsinə üzmək
Könlündən keçsə də, ağlına gəlməz.
Asandır axarla üzmək hər kəsə,
Su özü irəli aparar onu.
O bilir, axarın tərsinə üzsə,
Dalğa əldən salar, tez yorar onu.

Özündən böyüyə başını əymiş,
Ömründə bir dəfə ərlik bacarmaz.
Düşünməz öz kökü, öz əsli nəymiş,
Hardan gəldiyinin fərqinə varmaz.

Ancaq o bilmədi qəbahətdi bu,
Rahatlıq həmişə ağlı çaşdırır.
Suyun axarına üzdükcə o su,
Onu ilk qaynaqdan uzaqlaşdırır.

Hər kəs öz ilkini, kökünü bilsə,
Çox olar dünyanın bozundan ağı.
Üzənə öz kökü bəlli deyilsə,
Nəyinə gərəkdir suyun qaynağı.

*Yanvar 2000*

## EYNİ OLA BİLƏRMİ?

Dan yeri, qürub çağı... günün ömrü arada,
Biri əvvəl, biri son.
                    Amma hər ikisində
Əlvan-əlvan şəfəqlər çıxıb sanki parada.
Bu ilahi mənzərə min bir duyğu oyadır
Həm məndə, həm də səndə.

Bu duyğular eynimi?
Mən görürəm mən kimi,
          sən görürsən sən kimi.
Mən qürub, sən dan yeri.
Eyni ola bilərmi
Doğanın şəfəqləri, batanın şəfəqləri?

*İyul 2000*

## ƏTİR - ÇƏTİR

Qışın oğlan çağı hava isindi,
Çılpaq budaqlarda quşlar da dindi.
Amma lüt ağaclar çətirlənmədi,
Çiçəklər boy atdı, ətirlənmədi.
Bu qış şaxtasını gerimi çəkmiş?
Ətirsiz bir çiçək necə çiçəkmiş?
Torpaq da isinib cana gəlsə də,
Yuxudan oyanıb o, dirçəlsə də,
Çiçəyə isti yox, bahar gərəkmiş
                    Ətirlənməyə.
Ağaca yarpaqlı budaqlarıyla
                    Çətirlənməyə.

## YER, GÖY

Gözlər dikilən yer göydü, səmadı,
Göydən haqq istəyir yerdən umanlar.
Göyün hikmətini yer anlamadı,
Yerin hikmətini yenə göy anlar.

Yer göysüz adicə torpaqdır hələ,
Yer göyün hökmüylə dolanır belə.
Göy yerin düşünən başıdır dedim,
Dərdlərə əlacı göydən istədim.
Hökmüylə fırlanır dünya göylərin,
Göy yoxsa, varlığı yoxluqdur yerin.

*2000*

# OLMAZ

Cəsarət cəbhələr yarar,
Ehtiyatda hünər olmaz.
Cəsarət mərdlik gətirər,
Cəsarətsiz zəfər olmaz.

Bir anaya oğuluq biz,
Ona borclu bir quluq biz.
Varsa Vətən qeyrətimiz,
Bu Vətənə xətər olmaz.

Bu dünyada varmı bekar?
Hörümçək də tor toxuyar.
Görülən iş gül qoxuyar,
Vaxt da keçsə, hədər olmaz.

Arzular da, diləklər də,
Mənimkidir göy də, yer də.
Çırpıntısız ürəklərdə
Gün də doğsa, səhər olmaz.

Nə eybi var unudulsam,
Yaddaşlardan itər olsam,
Mən Vətəndən gedər olsam,
Vətən məndən gedər olmaz.

*2003*

***

Məni məhkum eyləyən
Hisslərimin üzünə
Ağ olmaq istəyirəm.
İtirmək istəməyib
Mən özüm özlüyümü,
Görüb gücsüzlüyümü
Ağlamaq istəyirəm.

*2000*

## GÖZƏL BİR XƏBƏR

Bu gündən sabaha "gəl" - deyən zaman
Sabahın eşqinə gülür həyatım.
Nəyisə, kimisə gözləyən zaman
Şirin duyğularla dolur həyatım.

Dəniz dəniz olur çalxalananda
Çıraq çıraq olur yalnız yananda...

Bir hiss istəyirəm ölənə qədər
Mənim ürəyimdə od qalayacaq.
Xəbər gözləyirəm, gözəl bir xəbər
Məni dəniz kimi çalxalayacaq.

*2000*

## SÖNDÜR,
## ÇIRAĞI SÖNDÜR!
***(Yeni variant)***

-Fikirlisən?
-Yox! - dedim.
Kədərimi gizlədir, mən qəmimi danıram,
Özüm öz dərdlərimdən çəkinir, xoflanıram.
-İstəmirəm, mən, - dedim, -
Məni sevən kəsləri dərdimə ortaq edim.
Kədərli anlarımda məni kimsə görməsin.
Söndür, çırağı söndür!
Sevincim hamınınsa, kədərim özümündür.

*1965-1990*

## VERƏRDİM
***(Yeni variant)***

Mən bir tarzən olub çala bilsəydim
Arzumu, sözümü telə verərdim.
Xanəndə eşqimi car eyləsəydim,
Min bəmi bir kəsik zilə verərdim.

Bülbül nalə çəkər hicran dəmində,
Gülün ləçəkləri solar çəməndə.
Təbiətin hökmü olsaydı məndə,
Qanqalın ömrünü gülə verərdim.

Əgər yanındasa könül həmdəmi,
Gözəldir, şirindir onun hər dəmi.
Səninlə olduğum bir dəqiqəmi
Sənsiz keçirdiyim ilə verərdim.

*1956-2005*



# QANADLI MİSRALAR VƏ AFORİZMLƏR

*Nər bir dərdə, hər azara*
*Əsl çara torpaqdadır.*
*Hər kəsin də üz ağlığı*
*Yenə qara torpaqdadır.*



# ƏSƏRLƏRİ, I CİLD

* * *

Kənarda tapılan dəfinə kimi,
Misir talan oldu, Misir soyuldu.
Ehramlar ölkəsi bir iynə kimi,
Aləmi bəzədi, özü lüt oldu.

*"Misir"*

* * *

Könülsüz bir tikə ötməz boğazdan,
Ürəklə yeyərəm ancaq yüz tikə.
Gərək ayrılmasın könüldən insan,
Cana dərd gətirər könülsüz tikə.

*"Ürək"*

* * *

Çay çaya qovuşmaz sular daşmasa,
Ulduzun ulduzla ünsiyyəti var.
Göydə buludlar da qoşalaşmasa,
Nə ildırım çaxar, nə yağış yağar...

Yol tapa bilərmi saz ürəklərə
Mizrab asta-asta telə dəyməsə?
Çıxarmı qönçədən tək bircə kərə
Bülbülün nəfəsi gülə dəyməsə?

Dostların qəlbidir yurdum, məskənim,
Ürəkdə bir nisgil gərək olmasın.
Sağlığım bir yana, deyirəm, mənim
Soyuq məzarım da heç tək olmasın!

*"Təklik"*

* * *

Fikrim dağda, dərədə, yuxu hara, mən hara?!
Kirpiklərim sancılır ox kimi ulduzlara.

Ürəyimdə səhərin necə həsrəti varmış...
İntizar anlarında gecə uzun olarmış...

*"Gecələr"*

* * *

Sızlar ürəyim, könlümə çövrün az olanda,
Təskin oluram hicr dağı çarpaz olanda.

Könlüm açılır hər dəfə gördükdə camalın,
Güllər açılır bir dəfə, ancaq yaz olanda.

Hər bir ürəyin öz sözü, öz aləmi varmış,
Eşq, aləm olar, ortada bir az naz olanda.

*"Pərvaz olanda..."*

* * *

Sərçə uçdu budağından,
Budağını bəyənmədi.
Bağa çıxdı çanağından,
Çanağını bəyənmədi.

Bağlı olsan torpağa sən,
Nə oddan qorx, nə küləkdən.
Xan çinarı söylə nədən
Tufan qopdu, əyəmmədi?!

*"Bəyənmədi"*

* * *

Könlüm Vətən torpağı, arzum qızıl bir səhər.
O torpaqdan göyərmiş şeir adlanan çiçəklər.

*"Könül çiçəkləri"*

* * *

İş qurtaran deyil ki... iş özü işdən doğur.
Yoxuş, enişdən doğur.
Vaxt çatmaya-çatmaya ömrümüz çatır sona,
Xoşbəxtdir o adam ki, təslim olur vaxt ona!

*"Vaxt çatışmır"*

* * *

Gündüz - şıltaq bir uşaqdır,
Baxışından nur tökülür.
Nə dərdi var, nə qayğısı,
Qah-qah çəkib gülür, gülür.

Gecə isə elə bil ki,
Dünya görmüş bir qocadır.
Baxışı da, gülüşü də
Müəmmalı tapmacadır.

O, düşünür dərin-dərin,
Düşündürür həm də səni.
Ürəyini görəmməzsən,
Zilləsən də gözlərini!

*"Yay gecəsi"*

* * *

Ölüm belə qəm deyil bu həyatı duyana,
Mən bu ağ saçlarımla öyünürəm, ay ana!
Qara, şəvə saçları təbiət vermiş mənə,
Mən güvənə bilmərəm onun bu töhfəsinə.
Zəhməti həyatımın hər mənası sanmışam,
Ağ saçları həyatda mən özüm qazanmışam.

*Qara saçlar, ağ saçlar"*

* * *

Bahar gəlir, fərəhindən gülür aləm,
Bahar gəlir, hər il gələn bahar kimi.
Mənsə hər il dəyişirəm
                    Əynimdəki paltar kimi.

*"Bahar və mən"*

* * *

Gecikmisən, yazıq bülbül,
Bağ-bağçalar xəzan olub.
Vaxtsız ötmə, bahar keçib,
Gül dərilıb, gül sovulub.

Bizim qoca təbiətin
Bir amansız qanunu var:
Vaxtsız dəyən bir meyvəni
Şaxta kəsər, dolu vurar.

*“Gecikmiş məhəbbət”*

* * *

Bu büsat, bu cəlal kimin üçündür?
Bayırda əl açıb dilənir millət.
Ey imam övladı, de bu nə gündür,
Məsciddə var-dövlət, küçədə zillət!

*“Aclardan toxlara”*

* * *

Gözlər qamaşsa da bu bər-bəzəkdən,
Həyat qaranlıqdır, qatı qaranlıq.
Bu gur işıqların arxasında mən
Gizlənən zülməti görürəm açıq.

*“İşıq-zülmət”*

* * *

Sənət can yanğısıdır mənim üçün, a dostlar,
Bu dünyanın oduna gərək yana sənətkar.

*“Can yanğısı”*

* * *

Yel əsər, ağaca ağac sürtüşər,
Meşədə başlanar yanğın o anda.
Ürəklər alışar, üzə yaş düşər
Evdə də zövqlər bir olmayanda.

Min əzab çəksə də əkinçi qarda,
Taxılına yorğan yenə qar olur.
Əliylə tikdiyi evi axırda
Barama qurduna bir məzar olur.

Xəstə dərman içib özünə gələr,
Dərman həm xeyirdir ona, həm zərər.
Arı öz balında boğulub ölər,
Qardaşdır xeyirlə şər bu dünyada.

Sapı dərziyə ver, zəri zərgərə,
Qiymətdə su hara, simuzər hara!
Suya bənzəsə də, anlayanlara
Zərdən qiymətlidir tər bu dünyada.

*"İztirabın sonu"*

* * *

Bəli, rəyasət eşqi yaman olur, çox yaman!
Onun əlindən aman, onun felindən aman!
Bu dərdə tutulanlar insanlığa yad olur,
Adı insan olsa da, əslində cəllad olur!

*"Əmi qatili"*

* * *

Güvənmə hökmünə, təxti-tacına,
Zamanın yolları düyün-düyündür.
Zülmün qılıncını götür, sal qına,
Gülə əl qaldırmaq gücsüzlüyündür.

*"İki hökmdar"*

* * *

Günəş saraldı, getdi,
Göylərə daldı, getdi.
Ayı Leylası bildi,
O da yan aldı getdi.

Ürək vurur, yorulmur.
Könül yanır, qor olmur.
Sənə baxan gözlərim
Niyə sənsiz kor olmur?

*"Ah, o zalım ovçular"*

* * *

Şairəm, qəm içində keçir gecəm, gündüzüm.
Sevdalı xəyalların övladıyam mən özüm!
Yalnız yalan gerçəkdir. Mən bu haqqı danmıram,
Mən öz varlığıma da şəkk edir, inanmıram,
Varsa bir inandığım: yalnız eşqdir o da,
Min dünya kəşf etmişəm, eşqimlə bir dünyada.
Özüm də heç bilmirəm bu dünyaya nə deyim?
Nə gecəm bir gecədir, nə gündüzüm bir gündüz.
Ey mənim məhəbbətim. eşqim, hissim, diləyim,
Siz həm mənim həyatım, həm də ölümümsünüz!

*“Ah, o zalım ovçular”*

* * *

Sultanları məhv edib zaman aldı kamını,
Füzuliysə zamandan aldı intiqamını.
Ulduzlar baxışları, buludlarsa ahıdır,
Əbədidir şahlığı, o, könüllər şahıdır!

*“Leyli və Məcnun”*

* * *

Nola, qəlbim anam kimi ananın
Hər cövrünə, cəfasına dayana.
Sənin zəif vücudunun önündə
Alçalmaq da ucalmaqdır, ay ana!

*«Ana»*

* * *

Sonrakı sevdalar bir yamaq olur
İlk eşqi unutmaq çətindir, çətin!
Riyadan, məqsəddən çox uzaq olur
Cövrü, cəfası da ilk məhəbbətin.

*«İlk məhəbbət»*

* * *

Baxışdan söz götür, söz anla sözdən,
Həssas ol, sevgilim, ömrün boyu sən.
Əgər sevirsənsə, ayaq səsimdən
Gərək biləsən ki, Bəxtiyar gəlir!

*«Gəlir»*

* * *

Yaşamaq – yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır, demək
Onun da həyatı yanmasındadır.

*«Ömür»*

* * *

Özü gül olan gözəl
Dərilmiş gülü neylər?
Sən gülü iyləyirsən,
Yoxsa, gül səni iylər?

*«Gül»*

* * *

Ey bahar, mizrab al, çal ürəyimi,
Kaş, o da sənin tək aşıb – daşaydı.
Nolaydı, insan da təbiət kimi,
Hər bahar yenidən cavanlaşaydı!

*«Bahar»*

* * *

Bir günəş bəs edər, pərişan olma,
Sənin yüz Kür qədər göz yaşın olsa.
Min dərd hücum etsə, könül, sıxılma,
Bir nəfər dərd bilən sirdaşın olsa.

Od vurmasa, qabda su daşa bilməz,
Quş da tək qanadla dağ aşa bilməz.
Kösöyün ikisi çöldə də yanar,
Biri ocaqda da alışa bilməz.

*«Təklik»*

* * *

Günəşli gündə səni kölgən izləyər, ancaq
Buludlu gündə qaçar, onda etibar olmaz!..

*«Olmaz»*

* * *

Öz ilhamım öz səsim
Uçan atımdır mənim.
Düşmənimin nifrəti
Mükafatımdır mənim!

*«Mənim yolum»*

* * *

Bülbül cəh-cəh vurub oxuyardımı
Ona bülbül adı qoyulmasaydı?
Gül bu qədər gözəl qoxuyardımı
Məgər onun adı gül olmasaydı?!.

Adı da, sanı da əməl ucaldır
Ad səni qaldırmaz, sən adı qaldır!..

*«Ad günü»*

* * *

Ey ana təbiət, de, neçin, niyə
Gülün budağında tikan bitirdin?
Bulağın gözünü qotur keçiyə,
Bulanıq suyunu ceyrana verdin?

*«Ey ana təbiət»*

* * *

Bəxş olunan şöhrət ləyaqət deyil,
Şöhrət də zəhmətlə yaşa dolmalı!
Vəzifə insana şan-şöhrət deyil,
İnsan vəzifəyə şöhrət olmalı!

*«Sadə adamlar»*

* * *

Bir rəngdə olsaydı güllər-çiçəklər,
İnsanın gözləri yorulmazdımı?
Bir eşqi ötsəydi bütün ürəklər
Dünyaya bir nəfəs bəs olmazdımı?!

Adam var, yanında olsan bir qədər,
Tamam unudular dərdin, məlalın.
Adam var, bir kəlmə danışsa əgər,
Dəymişin durmuşkən tökülər kalın.

* * *

Adam var, tor qurar, danışar yalan,
Utanmaz, gözünü gözünə dikər.
Adam var, yanında yalan danışsan,
Sənin əvəzinə xəcalət çəkər.

…Adam var, hər şeydən çəkinib durar
Özündən utanıb, deyər: «Ayıbdır».
Adam var, tükünü daraqdan özgə
Hələ heç bir duyğu qaldırmayıbdır.

Adam var, üzündən min fikir yağır,
Çatır ürəkdəki ən dərin qata.
Adam var, başından qarnı ağırdır,
Qarnının gözüylə baxır həyata.

* * *

…Min əzab çəksə də əkinçi qarda,
Taxılına yorğan yenə qar olur.
Əliylə tikdiyi evi axırda
Barama qurduna bir məzar olur.

…Saatı olmayan tez saat alır,
Qızıldan, gümüşdən ona bağ salır.
Ancaq düşünmür ki, ömrü azalır,
Saat səslənəndə hər bu dünyada.

Xəstə dərman içib özünə gələr,
Dərman həm xeyirdir ona, həm zərər.
Arı öz balında boğulub ölər,
Qardaşdır xeyirlə şər bu dünyada.

…Həm sevinc var, həm də qəm sarı simdə,
Nəşədən yaranır bəzən ələm də.
Həm çörək yetirir insana, həm də –
Yeyir insanları yer bu dünyada!

*«İztirabın sonu»*

* * *

Ölüm, sağ görüb məni, atma mənə pəncəni,
Mən ki, çoxdan ölmüşəm, naləm aldatmış səni!

*«Şəbi hicran»*

* * *

Arazın suları qəzəbli, daşqın,
Onun nəğmələri ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.

…Min ləkə vurdular şərəfimizə
Verdik, sahibimiz yenə «ver»- dedi…
Bizi həm yedilər, həm də mindilər,
Amma arxamızca gileyləndilər.

*«Gülüstan»*

# ƏSƏRLƏRİ, II CİLD

* * *

Xalqın tarixini bilməyən nadan
Ozünü tanımaz, sözünü bilməz.
Səfalı çeşmədən su içər heyvan
İçdiyi çeşmənin gözünü bilməz.

*"Tarix kitabı"*

* * *

Yeddi rəng, yeddi səs tanıyırıq biz,
Bəs hardan bu qədər boyalar, səslər?
Yeddi min səs ilə oxuyur dəniz,
Yeddi min rəng ilə bəzənib göy, yer.

*"Gözəllik"*

* * *

Tük də yayınmadı sənin gözündən;
Kələkdən, şübhədən, şəkdən doğuldun.
Qaçdın ömrün boyu özün-özündən,
Yalnız keflənəndə sən özün oldun.

*"Özünə xəyanət"*

* * *

Ey könül, möhkəm ol, keşməkeşlərdə
Çox da öyünmə ki, mən ağıllıyam.
Ağılsız işimi bildiyim yerdə
Mən ən ağıllıyam, ən ağıllıyam!

*"Çox da öyünmə ki..."*

* * *

Hər kral "Bu dünya mənimdir", - dedi,
Təzədən neçə yol böləndü torpaq.
Dünyanın sərhədi heç dəyişmədi,
Nə böyüdü, nə də kiçildi ancaq.

*"Dünyanın sərhədi"*

* * *

O enən, o qalxan səslər, avazlar,
Yazbaşı dağların selidir bəlkə?
Kamanın bağrında ağaran tozlar,
Yanan arzuların külüdür bəlkə?

*"Habil segahı"*

* * *

Əgər boş olarsa başçının başı,
Camaat əlləşər, nahaq tər tökər,
Ağıl da zəhmətin bir yol-yoldaşı,
Başın bəlasını ayaqlar çəkər.

*"Qəmərvan"*

* * *

Özü kimi
Ölümü də mərdanədir.
Mənzilinə uça-uça,
qaça-qaça
Öz içindən tez üzülər
təyyarələr.
Yavaş-yavaş ölə bilməz.
Öləndə də birdən ölər
təyyarələr.

*"Təyyarələr"*

* * *

Səfərə çıxanda... Dərddən, qayğıdan,
Çıxıb ilkimizə dönürük yenə.
Elə bil bizimçün dayanır zaman,
Təkərlər fırlanır onun yerinə...

*"Təkərlər üstündə"*

* * *

Əqidəmin, eşqimin,
Qanımın rəngi bayraq,
Bütün arzularımın,
Qızıl çələngi bayraq.
Hər şeydən bu dünyada
Şərəf uca Şan uca,
Zamanın yollarında
Mən ki, səni tutmuşam,
Daim başımdan uca.

*"Azərbaycan oğluyam"*

* * *

Ömür çox qısadır, yatma, ayıq dur
Daim son səfərə hazır ol, ancaq,
Qısadır, həmdəki necə uzundur
Doğumdan ölümə gedən yol, ancaq.

Bu yolda fikirlər bizə bir həmdəm,
Fikirlər dayaqdır yoxuş çıxmağa.
Bu qədər az ikən ömür bilmirəm,
Hardan vaxt tapırıq biz darıxmağa?

*"Ömür çox qısadır..."*

* * *

Yıxılar kənardan itələnənlər
Mənə güvənirsən, bəs özün nəsən?
Bir addım atmaq da çətindir, əgər
Özün içəridən itələnməsən.

*"Bəs özün nəsən?"*

* * *

Dağlar da əyilər öz kədərindən,
Bilmirəm bu dağlar, bu dərdlər nədir?
Görünən dağlara dağ deməröm mən,
Ən böyük dağlar da ürəklərdədir.

*"Dağlar da əyilər öz kədərindən"*

* * *

Yaxşı ki, dünyada ələm var imiş,
Yoxsa, yaşamaq da yönsüz olardı.
Yaxşı ki, dünyada ölüm var imiş,
Yoxsa, əzablar da sonsuz olardı.

*"Yaxşı ki"*

* * *

Eşqdir yaşadan təbiəti də,
Çiçəklər torpağın min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir.

*"Eşqdir"*

* * *

Vətənin dərdini çəkən oğlanın
Dağ boyda qüdrəti ola dünyada.
Bir arif söylədi, nahaqdır, nahaq!
Dərdini boynuna dola dünyada.

Dünyada bəxtəvər olmaq istəsən
Hər nə buyursalar, de baş üstə sən.
Nə haqqı tələb et, nə də istə sən,
Gah mıxa döy, gah da nala dünyada.

Batırsan, dayazda üzsən nə olar,
Sənin dərinlikdə nə ölümün var?
Gözünü kor eylə, qulağını kar,
Zamanla getməsən yola dünyada.

*"Nakam"*

* * *

Bu dünyaya dostum, düzü,
Açan gündən gözümüzü
Aldatmışıq özümüzü
Qana-qana, bilə-bilə.

Həyat zindan, ömür sürgün
Yaşamadıq düzü bir gün,
Kim istər ki, gəlib düşsün
Bu zindana bilə-bilə.

Dərd bir deyil, min-min olur,
Ürək dərddən mətin olur.
Yaşamaq da çətin olur
Qana-qana, bilə-bilə.

Əzablara döş gərmisən
Heç yaşaya bilərmisən?
Aldatmasan özünü sən
Qana-qana, bilə-bilə.

*“Nakam”*

* * *

Oxşadı gözünü hələ uşaqkən
Ocağın al-əlvan alovu, közü.
Dünyaya gələli, bilmirəm nədən,
Nəyə vurulduqsa, yandırdı bizi...

Mən oddan qorxmadım yanana qədər;
Mən qorxu bilmədim qanana qədər.
Elə ki yandım,
Odla oynamaqdan qorxdum, dayandım.
Başlandı qorxu –
Başlandı ehtiyat –
Başlandı həyat...

*"Qorxu"*

* * *

Ömrün payız fəsli sıxdı əlimi,
Yoxsa qocalıram mən yavaş-yavaş?
Payızda yarpağa xal düşən kimi
Düşür saçlarıma dən yavaş-yavaş.

*"Ömrün payızı" ("Yavaş-yavaş")*

* * *

İnsan dünyaya gəlir
Doqquz ay tamam olcaq.
Bu nədəndir, ölümsə
Heç kəsin həyatına
Vaxtında gəlmir ancaq...

* * *

Babam
Gözəlliyinə heyrət edib "Ay!" – dedi.
Sənin uzaqlığına.
O füsünkar hüsnünə,
Yerdən baxıb doymadı,
"Vay!" - söylədi,
            "Ay!" - dedi...
Heyrətidir insanın
"Vay!" - nidası,
            "Ay!" - sözü.

*"Ay"*

* * *

Sevə bilirəmsə, əgər ürəkdən
Dünyanın ən yaxşı adamıyam mən!

*"Sevə bilirəmsə..."*

* * *

Şübhə yeyib tökdü içimdən məni
Tanıya bilmirəm indi mən məni.
Bilmirəm dünyanın harasındayam
Haqq ilə nahaqqın arasındayam.

*4 "İnam - Şübhə"*

* * *

Hər görüş, bizimçün bir hicran doğur,
Gumanlar, ümidlər cahanımızdır...
Hər günün əvvəli vüsalımızsa,
Hər günün axırı hicranımızdır.

*"Səfərə çıxmışıq"*

* * *

Dərdimsən, dərdimə dolub dirildim
Dözümsüz, həmişə özünü öymüş...
Həsrət düyünündə bir bunu bildim:
Dərdimin dərmanı dərdin özüymüş...

*"İltimas"*

* * *

Məhəbbət! Məhəbbət - barıt zərrəsi,
Ürəyə düşdümü, partladacaqdır!

*“Nə məni anladın”*

* * *

Düşündükcə aram-aram:
O tay üçün göynər yaram,
Çox da ki, mən Bəxtiyaram,
Bir gül ilə yaz açılmaz.

*“Bir gül ilə yaz açılmaz”*

* * *

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.

*«Dağda şəlalə kimi»*

* * *

Başqasının gözünü taxaydım öz gözümə,
Başqasının gözüylə baxaydım öz-özümə.
Onda eyiblərimə özüm düşmən olardım,
Onda mən, mən olardım.

…Ən qorxulu düşmənin gələrəm öhdəsindən,
Ancaq özüm özümlə bacara bilmirəm mən,
Bacara bilmirəm mən.

*«Kimdir mənim düşmənim»*

* * *

Bizim sənət dünyasının qırıq telli sazıyam,
Bircə ondan razıyam ki, özümdən narazıyam.

*«Özümdən narazıyam»*

* * *

Tük də yayınmadı sənin gözündən;
Kələkdən, şübhədən, şəkdən doğuldun.
Qaçdın ömrün boyu özün özündən,
Yalnız keyflənəndə sən özün oldun.

*«Özünə xəyanət»*

* * *

Bir şirin, bir gözəl söz istəyirəm,
Hər sözü, söhbəti düz istəyirəm;
Bircə baxışıyla yanan qəlbimi
Görməyi bacaran göz istəyirəm.

*«İstəyirəm»*

* * *

Çoxdur hədiyyələr insan adına:
Qiymətli ziynətlər, qiymətli daşlar.
Ana həyat verir öz övladına,
Həm də öz ömründən ömür bağışlar.

*«Ana hədiyyəsi»*

* * *

Məni boya-başa yetirdin, ana,
Bizə borclu bildik hər zaman səni.
Sən məni dünyaya gətirdin, ana,
Mənsə yola saldım dünyadan səni.

*«Anam haqqında şeirlər»*

* * *

Adamlar içində darıxıram mən,
Uzanır… Günüm də, gec axşam olur.
Mən tək olan zaman fikirlərimin
Hər biri yanımda bir adam olur.

*«Adamlar içində»*

* * *

Qurudan çox-çoxdur bu dünyada su,
Bəs niyə dünyanın adı yer oldu?
--İnsandır şöhrəti bütün aləmin,
O, yerdə yaşadı, yerdə doğuldu.

*«İnsan»*

* * *

Ey könül, möhkəm ol, keşməkeşlərdə
Çox da öyünmə ki, mən ağıllıyam.
Ağılsız işimi bildiyim yerdə
Mən ən ağıllıyam, ən ağıllıyam!

*«Çox da öyünmə ki…»*

* * *

Sökün çəpərləri, daş hasarları,
Gözlər uzaqlara zillənsin, barı.

*«Sökün çəpərləri»*

* * *

Özünü, bəxşişlə güvənsən–qına!
Güvən bu dünyada qazandığına!

*«Gözəllik bəxşişdir»*

* * *

Hissim də, duyğum da minbir göz kimi,
Alışır… Gözəldir bu halım mənim.
Gözlə görmədiyim diləklərimi
Səninlə görürəm, xəyalım mənim.

*«Xəyalım mənim»*

* * *

Çox eşit, az danış!-demiş babalar,-
İki qulağımız, bir dilimiz var!

*«Çox eşit, az danış...»*

* * *

Xoşbəxtlik naminə dağları yardım,
Top kimi divardan-divara dəydim.
Deyirəm, doğrudan xoşbəxt olardım,
Xoşbəxtlik dalınca sürünməsəydim.

*«Səadət haqqında düşüncələr»*

* * *

Kədərli anlarımda məni heç kəs görməsin,
Söndür, çırağı söndür!
Sevincim hamınınsa,
Kədərim özümündür.

*«Fikirlisən?..»*

* * *

Kitabdan qaçıram… Gecəbəgündüz
Qəlbimi oxumaq istəyirəm mən.
Başqa ürəkləri oxuyuruq biz,
Ancaq xəbərsizik öz qəlbimizdən.

*«Kitabdan qaçıram...»*

* * *

Səfərə çıxanda… Dərddən, qayğıdan
Çıxıb, ilkimizə dönürük yenə.
Elə bil, bizimçün dayanır zaman,
Təkərlər fırlanır onun yerinə…

*«Təkərlər üstündə»*

* * *

Ehtiram olsa da, hamı əzəldən,
«Sələfin yolundan mən uzaq!»-deyir.
Dünən atasına «önə bax!»-deyən
Bu gün övladına «dala bax!»-deyir.

Biz öz atamıza deyərdik bir vaxt:
«Unutma, hər günün öz hökmü var, ha!..»
İndi oğlumuza deyirik ancaq,
«Gəl təzə nırx qoyma köhnə bazara!»

Ata o kəsdir ki, dayanıb öndə
Övladın hissilə yaşaya bilsin.
Övlad o kəsdir ki, çiyinlərində
Atanın dərdini daşıya bilsin.

…Bütün köhnələrə:- «bu nədir?» - deyə
Gülsək, nə qazanar bundan gələcək?
Vətən də, millət də köhnədir deyə
Bəlkə, təzəsini axtarmaq gərək?

*«Nəsənsə, özün ol»*

* * *

İnsanın özünə kəsilir düşmən
Dövləti, sərvəti, pulu, varı da.
Bəzən meyvəsinin ağırlığından
Sınır ağacların budaqları da.

*«Qarğa-bülbül»*

* * *

Daşqın böyrü üstə yıxsa bir dağı,
Yanındakı dağ da əyiləcəkdir.
Bu gün yeyilirsə birinin haqqı,
Sabah da səninki yeyiləcəkdir.

…Əgər adamsansa… sev adamları,
Demə, bu dostumdur, o düşmənimdir;
Demə, əzizimdir ev adamları,
De, mən bu xalqınam, xalq da mənimdir.

Demə, daş yayınıb qardaşa dəydi,
Mən elə bildim ki, daş daşa dəydi.
Yurdun o başında yıxılan kəsin
Ağrısı qəlbində gərək göynəsin.

*«Mənə nə var?»*

* * *

Gözləri görməyən kor deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.
Belə müqəvvaya, belə cahilə
Həyatın özü də gordur, deyərdim.

*«İki kor»*

* * *

Yıxılar kənardan itələnənlər,
Təkanı yaradaq özümüz gərək.
Yenə də «olarıq həmən xak*» əgər,
Biz öz içimizdən itələnməsək.

*«Səhəndə məktub»*

* * *

Eşqdir yaşadan təbiəti də,
Çiçəklər torpağım min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir.

*«Həm yerim...»*

---

*Fars şairi Sədinin "Həmən xakəm ki, varam" (həmin torpağam ki, varam) misrasına işarədir.

* * *

Yaxşı ki, dünyada ələm var imiş,
Yoxsa, yaşamaq da yönsüz olardı.
Yaxşı ki, dünyada ölüm var imiş,
Yoxsa, əzablar da sonsuz olardı.

*«Yaxşı ki, dünyada ələm var imiş»*

* * *

Təqiblə gəldiniz daim döş-döşə,
Yolunuz haqq yolu, həqiqət yolu.
Şairlər, şairlər! Sizin həmişə
Cibiniz boş oldu, qəlbiniz dolu.

…Şair - zəmanənin, əsrin vicdanı,
Şair - tarixlərin şərəfi, şanı.
Şair - bu dünyaya zamanın sözü,
Şair - həqiqətin, haqqın güzgüsü!

…Qısadır həmişə qorxağın dili,
Qəlbi ehtiyatdan çilik-çilikdir.
Düşmənin nifrəti deyil qorxulu,
Dostun soyuqluğu düşmənçilikdir.

*«Şairlər»*

* * *

Çıxdı qarşımıza gah dağ, gah dərə
Həyat gözümüzdə bir sual oldu.
Bir beşiyə sığan Nəsimilərə
Sonra cahan özü darısqal oldu.

Bizim anaların laylalarından
Axdı ruhumuza Vətənin özü.
Beşik kökümüzdür… Ucalıb ordan
Tanıdaq dünyaya öz kökümüzü!..

*«Beşik»*

* * *

Qafiyədir sevinc-kədər,
Qafiyədir eniş-yoxuş,
Axşam-səhər, təzə-boyat.
Ən müqəyyəd qafiyədir: ölüm-həyat!

*«Qafiyələr»*

* * *

Gözlərim itiykən görmürdüm hələ,
Görmürdüm içini bər-bəzəklərin.
İndi zəifsə də, baxmadan belə
Hər şeyi görürəm dərindən dərin.

*«Görə bilmirəm»*

* * *

İş qurtaran deyil ki… İş özü işdən doğur,
Yoxuş enişdən doğur.
Vaxt çatmaya – çatmaya ömrümüz çatır sona,
Xoşbəxtdir o adam ki, təslim olur vaxt ona.

*«Xoşbəxtdir o adam ki...»*

* * *

Dünyaya sığmayan arzu, əməllər
İllərin qoynuna necə sığır bəs?
Məgər arşınmıdır, bilmirəm, illər,
Axı, arzular ki, ölçüyə gəlməz.

*«İllərə nə var ki...»*

* * *

Zaman dövr eləyir…əvəzə əvəz…
Qış da öz yerini tapşırır yaya.
Özüylə bərabər hər doğulan kəs
Bir dünya gətirir qoca dünyaya.

*«Hər kəsin özüylə yaşıddır cahan»*

* * *

Ömür - qəlbin, zəkanın
Min eşqi, min əməli.
Ömür - ömürdən sonra
Yaşamağın təməli!

*«Ömür bizə verilmir»*

* * *

Dörd fəsil yaşayır bir ildə torpaq
Qış qış kimi gəlir,bahar bahartək.
Bir saat içində bəs nədən ancaq
Dörd fəsil yaşayır bəzən bir ürək?

*«Bir ürəkdə dörd fəsil»*

* * *

Ömrün nə qəribə günləri vardı,
Mənim ad günlərim bayram olardı.
Mən nə biləydim ki, dəyişir insan,
Ad günün şad günün olmur bir zaman.

*«Mənim ad günlərim»*

* * *

Uçuram təyyarətək mən öz səsimdən qabaq,
Arzularımdan qabaq, demək,özümdən qabaq!

*«Özümdən qabaq»*

* * *

Zaman belə deyir: «həyata düz bax!
Fikrin bu sürətdən geri qalmasın!»
Böyük bir dərd deyil yaşca qocalmaq,
Fikir qocalmasın, qəlb qocalmasın!

*«Emadin»-«Volqa»*

* * *

Namərdlər ağzında haqq çilik-çilik
Doğranıb səpildi efirə yerdən…
Böhtanlar yurdunda mərdlik, kişilik
Baxır adamlara abidələrdən…

*«Efirdə səslər»*

* * *

Gecə də, gündüz də əlimdə qələm,
Şairçün boş ürək, tonlardan ağır.
Mənim şeirlərim, elə bilirəm,
Özümdən özümə məktublarımdır.

*«Gecə də, gündüz də»*

* * *

Yaman dərddir,
Özgəsinə yamaq olmaq!
Yaman dərddir,
Azadlığın həsrətinə
    damaq olmaq.
Yaman dərddir,
Gözün ola,
Amma görə bilməyəsən.
Yaman dərddir,
Əlin ola,
Evindəki zir-zibili
Sən süpürə bilməyəsən.
Yaman dərddir,
Dilin ola,
    nə danışıb,nə dinəsən.
Yaman dərddir,
Ağlın ola,
    özgəsinin ağlı ilə
        düşünəsən…

*«Neo»*

* * *

O öldü birdən-birə
Söndü həyat işığı
Gözündəki gilədə.
Qolundakı saatsa
İşləyirdi hələ də.

*«O öldü birdən-birə»*

* * *

Səhra seli udub qışqırır: - Selin
Mənəm pasibanı, hər zaman bilin;
Qoy, bu yaxşılığı eşitsin aləm:
Suları günəşdən qoruyan mənəm.

*«Səhra seli udub...»*

* * *

…Bu dərdə tablaşmaq müşkül olsa da,
Eşqsiz ürəyi daş sanıram mən.
Düşməsin araya, gülüm, qan-qada,
Səni, özünə də qısqanıram mən.
Daim öz-özünün yanındasan sən,
Neyləsin həftədə bəs bir yol görən?

*«Qısqanıram mən»*

* * *

Neçin sevdiyimi bilmədən mən də,
Sevirəm, sevirəm… insan sevəndə
Yalnız öz könlünün səsini dinlər,
Neçin sevdiyini bilməz sevənlər.

*«Soruşma»*

* * *

Ömrümə nur çilə, alış, yan, eşqim
Ruhum da, canım da artıq sənindi.
Mənim öz könlümdə doğulan eşqim
Hakim kəsilibdir könlümə indi.

*«Eşqim»*

* * *

Getdin, dalınca baxdım, can ayrıldı canımdan,
Sən necə etinasız ötə bildin yanımdan?
Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm,
Sənin qəlbin əsmədi.
Arxana da baxmadın!
Niyə sənin yolunu məhəbbətin kəsmədi?..
Qazancımız, de, bumu?
Deyilməmiş o salam əlvidamız oldumu?
Sən mənə zülm eylədin, mənə zülm yaraşır.
Bir salama dəyməyən eşqə ölüm yaraşır.

*«Bir salama dəymədi»*

* * *

Adamlar içində mənim deyilsən,
Hamı seyr eləyir hey, müdam səni.
Həmişə işıqda itirirəm mən,
Ancaq qaranlıqda tapıram səni.

*«İşıq-qaranlıq»*

* * *

Necə odsan, bilmirəm,
Sən başa sal bir məni.
Nə qədər yanındayam,
Odun yandırmır məni.

Elə ki, ayrılıram,
Ayın, günün başına
Məni dolandırırsan,
Necə odsan bilmirəm,
Uzaqdan yandırırsan…

*«Necə odsan»*

* * *

Sevə bilirəmsə əgər ürəkdən
Dünyanın ən yaxşı adamıyam mən.

*«Sevə bilirəmsə...»*

* * *

Biz ki, öyrənmişik hicrana artıq
Cövrü yadda qalır, qəm unudulur.
Sevən könüllərçün, gülüm, uzaqlıq
Ən böyük, ən gözəl yaxınlıq olur.

…Ayrılıq günləri düzülür səfə,
Hər gün gözləyirik, hər gün bir günü.
Ayrı bir adamsan, gülüm, hər dəfə
Vüsalın əvvəli, hicranın sonu.

…Həsrət, ürəyimdə qaladan möhkəm,
Hicran çöplərindən bir yuva qurmuş.
Sənin yanında da sənə həsrətəm,
Həsrət ayrılıqdan uzun olurmuş…

*«Təzədən»*

* * *

Ağırdır, əzabdır bu da bizimçün,
Ayrılıq naminə çox görüşmüşük.
Biri-birimizi tapdığımız gün,
Biri-birimizdən itkin düşmüşük.

*«Səfərə çıxmışıq»*

* * *

Ayrılmaq! Söz asan, əməl çətindir,
Sevmək! Bu ki, sənin öz fitrətindir.
Necə ayırasan odu ürəkdən,
İstini atəşdən, ətri çiçəkdən?..

…Qəlbin çox ucalır, çox qanadlanır,
Ona zirvə mənəm, ona son mənəm.
Yata da bilmirsən uzun gecələr,
Gözlərindən qaçan o yuxun mənəm…

*«Özündən ayrıla bilməyəcəksən»*

* * *

Dedin, gərək əqlə qulaq asaydım,
Bu sözlə necə də xətrimə dəydin.
Əgər bu dünyada mən olmasaydım
Sən də sən deyildin, bir özgəsiydin.

*«Əgər bu dünyada...»*

* * *

Ürək narahatsa… o, sənin deyil,
Fikrin bir nöqtəyə calanır ancaq.
Dünya öz oxundan çıxıb, elə bil,
Şübhənin başına dolanır ancaq.

…Ürək narahatsa… saatlar bütün,
Tərsinə dolanır, vurur baş-ayaq.
Dünya şübhən qədər kiçilir sənin,
Şübhən dünya qədər böyüyür ancaq.

*«Son görüş»*

* * *

Ayrıldıq məkanca, həm də zamanca
Bu iki nöqtədə göynəyir yaram.
Sən getdin, uzanan yollar boyunca
Mən vaxtı öldürüb, yol qısaldıram.

*«Uzaq bir səfərə...»*

* * *

İnsan ilə arzunun arasında dayanan
Dağı dələ bilməmiş göz yaşları heç zaman.

*«Ay bəlalı başımın...»*

* * *

Nəğmə olub gecələr
Sənə layla çalaydım,
Dönüb yuxun olaydım.
Ayaqların altına
Sərəydim gül-çiçəkli
Çölü mən, çəməni mən.
Nağıllar dünyasına
Aparaydım səni mən.

*«Nəğmə olub gecələr»*

* * *

Dedim: - Tutmamısan dilə az məni.
Dedin: - Dil sevmir ki, sevən ürəkdir.
Dedim: - Təsəllilər ovutmaz məni,
Çiçəyə isti yox, bahar gərəkdir.

*«Sahilə çıxmaq istəyirəm»*

* * *

Dedin: «Yordu məni bu üzüntülər,
Dunya dağılmaz ki, ayrılsaq əgər»
Dedim: «Yox! Dağılmaz, dünyaya nə var,
Könül dünyamızsa viranə qalar».
Bir yerdə, bölünməz zərrədən kiçik
Ayrılsaq, dünyaya sığa bilmərik.

*«Dedin: «Yordu məni...»*

* * *

Deyirəm, unudam səni mən gərək
Mümkünmü? Arzuya əməl tən gərək!
Unuda bilməkçün səni, sevgilim,
Təzədən doğulam, təzədən gərək!

*«Unudam gərək»*

* * *

Sevsəydin, eşqindən üz çevirəndə
Öz qəlbin, öz hissin danlardı səni.
Hesaba almazdın mənim tək sən də
Özgə danlağını, yad tənəsini.
Özgə tənəsinə dözə bilməyən,
Söylə, öz tənəmə necə dözüm mən?

*«Sevsəydin...»*

* * *

Yuxum qaçaq düşüb məndən yan gəzir,
Yuxum küçələrdə sərgərdan gəzir.
Həsrətin asılıb kirpiklərimdən,
Yuxum da gəlmir ki, heç olmasa mən
İtirim, batırım səni yuxumda.
Məndən vəfalıymış sənə yuxum da.

…Şirin xatirələr bir tikan kimi
Yollara səpilib dəstəbədəstə.
Xatirən tikandır cızır qəlbimi,
Yoxluğun duz səpir yaramın üstə.
Yaddaşım elə bir günəş ki, gün ki,
Dünəni nur kimi görürəm aydın.
Deyirəm, yaddaşım elə ölsün ki,
Mənə dünənimi xatırlatmasın!

*«Gör necə güclüsən»*

* * *

Dəm tutub eşqinə, məhəbbətinə
Günbəgün böyüdü, yüksəldi eşqim.
Elə böyüdü ki, çatıb həddinə,
Sənin ürəyinə dar gəldi eşqim.

*«Həyat istəyirsən»*

* * *

Mənə bəxş eləyib məhəbbətini
A zalım, özümü aldın özümdən.
Edama çəkirsən hər saat məni,
Mənə bəxş etdiyin hədiyyənlə sən!

*«Mənə bəxş eləyib...»*

* * *

Bu incik məhəbbət bizə nə verdi?
Yorulduq! Bir ona yanıram ki, mən,
Sənə elə gəlir - əzabı, dərdi
Verəni mənəmsə… çəkəni sənsən!..

*«Ağrılar»*

* * *

–Yolda da, kolda da ayaq izin var,
Sənin yüzmü gözün, minmi gözün var?
Qaçıb gizlənirəm səndən, ax, yenə,
Hər küncdən-bucaqdan baxırsan mənə.

*«Dəniz-sahil»*

* * *

İtdi, əldən getdi şərəf də, şan da,
Necə bağlanmışam, necə mən sənə!..
Hər dəfə itirib səni tapanda,
Vallah, vuruluram təzədən sənə.

*«Həftədə neçə yol...»*

* * *

Yatmaq istəyirəm, yatmaq, bax elə
Gözümü zilləyib tavana baxım.
Mən hansı arzunun təlatümüylə
Əynimi geyinib qapıdan çıxım?

*«Özüm özümü dandım...»*

* * *

Yox, yetim demərəm, demərəm yenə,
Atası-anası ölənlərə mən.
Ən böyük yetimdir, inanın mənə
Sevgisi yaşayan, ümidi ölən.

…Məhəbbət oyunmu, bir qumarmı ki,
Uduzan oyuna buraxılmasın?
Bakıda elə bir küçə varmı ki,
Bizim xatirəmiz orda olmasın?

Dodaq cadar-cadar, qəlb oyuq-oyuq,
Tarix yaşamışam həsrətdən bəri.
Ayağım altında daşları yox, yox,
Mən basıb keçirəm xatirələri.

…Soyuyub ocağım, sönüb çırağım,
Ayrılıq anında dayanıb zaman.
Üzülüb hər yerdən əlim-ayağım,
Könül boşluğunun ağırlığından.

…Zəngin ürəyimi, kasıb ağlımı,
Hələ keçirirəm dərd çəmənindən.
Eşqin bıçağıyla kəsib ağlımı,
Qəlbimə yedirib gəlməliyəm mən.

*«İltimas»*

* * *

Həsrətdir ürəyim, həsrətdir oda.
Yazıq! Kirpiyimlə mən od götürdüm.
Çıl-çılpaq üşüyən budaqlarda da
Soyuqdan üşüyən könlümü gördüm.

*«Yarpaqlar tökülür»*

* * *

Hələ yazmadığım şeirim kimi sən,
Coşğun ilhamıma sətir-sətir gəl.
Təpədən dırnağa sən ilk baharsan,
Bu xəzan könlümə bahar gətir, gəl.

*«Qaşına,gözünə...»*

* * *

Yaxşı ki, dünyada sən də yaşarsan,
Nə ilə dolardı, yoxsa, bu dünya?
Sənin gözlərinlə gözünü açdı
Bu ayıq dünyaya yuxulu dünya.

*«Bu ulu dünya»*

* * *

Bu nə yoldur? Dolanır tərsinə süzgün günəşim,
Bu nə yoldur o tutub? Dön geri, tez dön, gunəşim!
Sevgilimdən küsüşüb gen düşəli,
Günbatandan doğur hər gün günəşim!

*«Bu nə yoldur?..»*

* * *

Qırıldı arzular, öldü inamlar,
Qaldı aramızda quru salamlar.
Məni başa salın, siz ey adamlar,
Bəs nə vaxt sevənlər mətin olurmuş?!

Mən haqqı itirdim güman içində,
Azdım öz yolumu duman içində.
Sevəndə sevirik bir an içində
Unutmaq nə qədər çətin olurmuş.

*«Olurmuş»*

`

* * *

Gəl, qışa «zəhri
 mar», yaza «can» demə,
Qışın dəhşətləri yaz içindədir.
Enişdə yoxuş var, yoxuşda eniş,
Ən böyük atəş də buz içindədir.

…Daş da qiymətlənir əldən gedəndə,
Mələk də səndədir, şeytan da səndə.
Yaxşı da, yaman da, dost da, düşmən də
Sənin öz içində, öz içindədir.

*«Öz içindədir»*

* * *

Dişlərim töküldü, saçım ağardı,
Yaşın nə günahı, yaş bəhanədir.
Taleyim daş atdı, başımı yardı,
Buna daş neyləsin, daş bəhanədir.

Bəzən baharda da saralır yarpaq
Taleyin əlində hər şey oyuncaq.
İnsanı öldürən əcəldir ancaq,
Azar da, bezar da boş bəhanədir.

*«Bəhanədir»*

* * *

İlişib qalmışam qəm çalasında,
Bir gözəl tilsimin daş qalasında.
Həmişə qapılar astanasında,
Bayırla dəhlizin arasındayam.

Bəxtiyar, sinəndən neçə «mən» keçir,
Biri dərdli keçir, biri şən keçir.
Məftilli çəpərlər sinəmdən keçir,
Bakıyla Təbrizin arasındayam.

*«Bakıyla Təbrizin arasındayam»*

* * *

Deməरəm görməmişəm mən səni çoxdandı, gülüm,
Görürəm surətini yalnız olandan-olana…

Könlümün üstə düşən kölgələr əlan silinir,
Başımın üstünə sən kölgə salandan-salana.

*«Bu qədər saldı məni...»*

* * *

Qocaldır insanı, qocaldır zaman;
Ürəyin atəşi közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

Getdi baharımız yer qışa qaldı,
Düzlər qara qaldı, yağışa qaldı.
Bizimki bir quru baxışa qaldı,
Neyləyək, arzunun gözü qocalmır.

Bəxtiyar, düşünək biz dərin-dərin
Xəyallar möhtəşəm, arzular şirin.
Əsl sənətkarın, əsl şairin
Özü qocalsa da, sözü qocalmır.

*«Qocalmır»*

* * *

Həmişə ayrıyıq, gecə-gündüzük,
Birimiz təpəyik, birimiz düzük.
Üstünün qaşıyla tanınar üzük,
Əgər üzük yoxsa, qaşı neylərəm?

Niyə yaşayıram, mən niyə sənsiz?
Nə yerə baxmaram, nə göyə sənsiz.
Mən ki, kor olmuşam hər şeyə sənsiz,
Kor gözün üstündə qaşı neylərəm?

*«Sən getdin»*

# ƏSƏRLƏRİ, III CİLD

* * *

Gözlərim həsrətdir həmişə gözlər
Həmişə axtarar, həmişə izlər.
Könlümdə çaxnaşır göllər, dənizlər
Görünən dənizi, gölü neylərəm?

*"Neylərəm"*

* * *

Ömür köhlənimi daşlığa sürdüm,
Gah coşub kükrədim, gah köks ötürdüm.
Həmişə dünyanı mən belə gördüm:
İştah bir tərəfdə, aş bir tərəfdə.

*"Bir tərəfdə"*

* * *

Məni öz-özümdən didərgin salan,
Dünənə bağlayan, bu gündən alan.
Gah söyüb danlayan, gah peşman olan
Qəribə hakimə bənzər yaddaşım.

*"Yaddaşım"*

* * *

Qızıl dedi: - Dəmir, söylə nədir bu?
Məni də döydülər axı sənin tək.
Səsimdən bir kimsə xəbər tutdumu?
Dəmirsən, əzaba dözəsən gərək.

Dəmir söylədi ki: - O zərbələrdən
Ahu-nalə çəkib ağlamadım mən.
Bədbəxt yaranmışam mən, a bəxtəvər,
Səni dəmir döydü, özgəsi döydü.
Ona ağladım ki, məni döyənlər
Özgəsi deyildi, özümünküydü.

*"Ağlar güləyən" poemasından*

* * *

...Dünyanın gecəsi, gündüzü məlum,
Tutmuşuq zamanın yolunu ancaq.
Həyat da bir yoldur... Yol özü məlum,
Nə ilki məlumdur, nə sonu ancaq...

... Kim deyir göylərdən hey narın-narın
Yağan qar bir daha göyə qayıtmır?
Qayıdır gəncliyi yazda çinarın,
Bəs mənim gəncliyim niyə qayıtmır?

*"Ağlar-güləyən" poemasından*

* * *

... Bilinməz, görünməz
insan ömründə.
Qəm-qüssə fərəhsiz, qara da ağsız.
Təkrar olunsaydı ömür də, gün də,
Həyat olmazdımı məgər maraqsız?..

*"Hər baharın öz qaranquşu" poemasından*

* * *

... Gedər ağızlardan dad da, ləzzət də,
Ağıl da, ürək də gülər arzuya.
Azadlıq olmayan bir məmləkətdə
Həqiqət riyadır, ədalət boya!

* * *

... İdrak da boğular, söz də, sənət də,
Ağıl kilidlənər dildə, dodaqda.
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzər, aqil ayaqda.

*“Təzadlar” poemasından*

* * *

... Yalana, böhtana biz çox uymuşuq,
Deməyin dərisi qalına vay, vay!
Deyin, həqiqətin paltarını yox,
Özünü görənin halına vay, vay!

... Qan tökmək qanunla yasaq olandan
Qanları qaraltmaq dəb olub yaman!..

Hakim masasında zor aldı qanun
İttiham eləyir vicdanı, arı,
Dünya təmtəraqlı səhnədir,
onun
Yalandır, böhtandır rejissorları.

*"Təzadlar" poemasından*

* * *

... Nə olar... Bir baxsaq keçmişə hərdən,
Düşünək dünyanın qəmini bir-bir.
O qədim, möhtəşəm abidələrdən
Düşən kərpiclərin dərdi kimindir?

Nə qədər güclüsən, ey qadir insan,
Özün bir yanasan, əzmin bir yana.
Nə qədər acizsən, əsir olursan
Özün öz əlinlə yaratdığına...

* * *

... Haçalı dağlara baxıram, mənə
Qıcanan dişləri unutmaq üçün.
Baxıram üfüqün genişliyinə
Soyuq baxışları unutmaq üçün.
Baxıram sıldırım, daş qayalara,
yolum üstünə

Atılan daşları unutmaq üçün.
Baxıram dağların dik vüqarına,
Əyilən başları unutmaq üçün.

*"Təzadlar" poemasından*

* * *

... Keçidlər adlayıb, dağlar aşdıqca,
Böyüyür anbaan ürəklərimiz.
Ana təbiətə yaxınlaşdıqca,
Dönüb özümüzə qayıdırıq biz.

... Əyləşib gedirik göydə, yerdə biz,
Uzanıb üzürük gəmilərdə biz.
Fikrimiz öndədir həmişə bizdən,
Səyyahıq... Xəyal ki, görünmür gözə
Alıb hərəkəti bədənimizdən
Verdik beynimizə, ürəyimizə.

*"Təzadlar" poemasından*

* * *

Etiraf-vicdanın nəğməsi, neyi,
Hər kəsin özündən öc almasıdır.
Qəlbin həm kiçilib, həm böyüməyi,
İnsanın alçalıb, ucalmasıdır.

…Deyirəm, nolaydı tanımayaydı
Nə qorxu, nə də bir hədə, etiraf.
Yox!.. İnsan insanı qəlbən duyaydı,
Nə günah olaydı, nə də etiraf.

…Bilək, hara gedir əməllərimiz,
Neçin ömrün yolu düyün-düyündür.
Bilək, dünya üçün yaranmışıq biz,
Yoxsa, dünya özü bizim üçündür?

Niyə könül yaxan nəğmənin, sazın
Yanğısı görünür, közü görünmür?
Niyə ağlımızın, idrakımızın
Əməli görünür, özü görünmür?

…Torpağa bənzəyir insan da bəzən,
Köksünün atəşi üzdən duyulmur.
Çox zaman özünün içindən keçən
Qızıl damarından xəbəri olmur.

…İnsan qəribədir, salamat ikən
Qohum da, qardaş da yada düşməyir.

Elə ki, yatağa düşdü qəflətən,
«Filankəs yanıma gəlmədi»-deyir.

Yataqda ürək də kövrəlir yaman,
Hamıdan inciyir, hamıdan umur.
«Zəhrimar» dediyi adamlardan da
İndi qayğı umur, indi «can» umur.

*«Etiraf»*

* * *

İçib fikrə getdi o, ağır-ağır,
Həsrət içmədi ki, qəm unudulsun.
İçib keflənənə içki haramdır,
İçib düşünənə qoy halal olsun!

…Dünyanın gecəsi-gündüzü məlum,
Tutmuşuq zamanın yolunu ancaq.
Həyat da bir yoldur… yol özü məlum,
Nə ilki məlumdur, nə sonu ancaq…

…Kim deyir göylərdən hey narın-narın
Yağan qar bir daha göyə qayıtmır?
Qayıdır gəncliyi yazda çinarın,
Bəs mənim gəncliyim niyə qayıtmır?

…Bir ağac qədər də deyilmiş insan,
Baxanda hökmünə qoca dövranın.
Dünyanın yaşıyla tutuşdurarkən;
Bir şimşək ömrüdür ömrü insanın.

Özü də şimşəkdir, ömrü də şimşək,
Əməli göylərdə alışır köz-köz.
Ölümün önündə baş əyir qultək,
Həm elə güclüdür, həm belə gücsüz!

…Cavanlıq min sözlü, min səsli quşdur,
Əlindən çıxdısa, tuta bilməzsən.

Qocalıq qiymətli bir zər, qumaşdır,
Bahadır, müftə də sata bilməzsən!..

…Bilinməz,görünməz
insan ömründə,
Qəm-qüssə fərəhsiz, qara da ağsız.
Təkrar olunsaydı ömür də, gün də,
Həyat olmazdımı məgər maraqsız?..
Arvad qocalanda kişi misallı,
Kişi qocalanda, arvad olarmış.

*«Hər baharın öz qaranquşu»*

* * *

Dağ olub üstümə qat-qat qalınca,
Məndən uca dağlar kölgə salınca,
Daş olub dağlardan uzaq olaydım.
Ay olub nurumu gündən alınca,
Bir evi nurladan çıraq olaydım.

*«Yollar-oğullar»*

* * *

Bəzən elə olur ki,
Dünya qalxır ayağa
Bir ölünün səsinə.
Milyon diri sığınır
Bir ölü kölgəsinə…

…Gözümü açalı bu dünyaya mən,
Söz ilə əməli cidalda gördüm.
Sözü son nöqtədə, mənzil başında,
Əməli həmişə mən yolda gördüm.
Kiminin əməli sözündən qabaq,
Kiminin də sözü özündən qabaq.
Əməl olan yerdə söz unudulmuş,
Gözəl əməllərin dili də laldır.
Alçaqlar əlində söz boyaq olmuş;
Qaranı ağardır, ağı qaraldır.

…Həyat başdan-ayağa
Ölümlərlə doludur.
Ölüm qorxulu deyil,
Yaşamamaq
ölümdən
Min kərə qorxuludur.

*«Həyat-ölüm»*

* * *

Səhhətin qədrini yataqda bimar
qalandan soruş.
Azad yaşamağın qədrini ancaq
zindanda dustaq
olandan soruş.

…Gedər ağızlardan dad da, ləzzət də,
Ağıl da, ürək də gülər arzuya.
Azadlıq olmayan bir məmləkətdə
Həqiqət riyadır, ədalət boya!

…İdrak da boğular, söz də, sənət də,
Ağıl kilidlənər dildə, dodaqda:
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzər, aqil ayaqda.

…Yalana, böhtana biz çox uymuşuq,
Deməyin, dərisi qalına vay, vay!
Deyin, həqiqətin paltarını yox,
Özünü görənin halına vay, vay!

…Qan tökmək qanunla yasaq olandan
Qanları qaraltmaq dəb olub yaman!..
...Hakim masasında zor adlı qanun
İttiham eləyir vicdanı, arı.
Dünya təmtəraqlı səhnədir,
onun

Yalandır, böhtandır rejissorları.
…Gün dedim günəşə, ay dedim aya,
Öyündüm xəyali gündüzlərimlə.
Baxmaq istəyirəm, axı, dünyaya
Mən öz gözlərimlə, öz gözlərimlə.

…Qoy özünə qalsın bu səfsəfələr,
Mən seçə bilirəm düzü əyridən.
Mənə ağıl vermə, öz ağlım yetər,
Qanmaq istəyirəm öz ağlımla mən.

…Nə olar…Bir baxsaq keçmişə hərdən,
Düşünək dünyanın qəmini bir-bir.
O qədim, möhtəşəm abidələrdən
Düşən kərpiclərin dərdi kimindir?

Nə qədər güclüsən, ey qadir insan,
Özün bir yanasan, əzmin bir yana.
Nə qədər acizsən, əsir olursan
Özün öz əlinlə yaratdığına…

…Haçalı dağlara baxıram, mənə
Qıcanan dişləri unutmaq üçün.
Baxıram üfüqün genişliyinə,
Soyuq baxışları unutmaq üçün.

Baxıram sıldırım, daş qayalara,
Yolum üstünə
Atılan daşları unutmaq üçün.
Baxıram dağların dik vüqarına,
Əyilən başları unutmaq üçün.

…Keçidlər adlayıb, dağlar aşdıqca,
Böyüyür anbaan ürəklərimiz.
Ana təbiətə yaxınlaşdıqca,
Dönüb özümüzə qayıdırıq biz.

…Əyləşib gedirik göydə, yerdə biz,
Uzanıb üzürük gəmilərdə biz.
Fikrimiz öndədir həmişə bizdən,
Səyyahıq… Xəyal ki, görünmür gözə
Alıb hərəkəti bədənimizdən
Verdik beynimizə, ürəyimizə.

…Neçə «mən» yaşayır tək bircə «məndə»,
Öldürən də mənəm, axı, ölən də.
Su da özümdədir, odda özümdə,
Dost da özümdədir, yad da özümdə.
Rəhm də məndədir, zülm də məndə,
Həyat da məndədir, ölüm də məndə…

*«Təzadlar»*

* * *

Ağaclar kök üstə qalxır, yüksəlir,
Meyvənin şirəsi rişədən gəlir.
Ancaq bunun üçün
Rişə heç zaman
əvəz istəmir
Ağacın meyvəli budaqlarından.

*«Dörd yüz on altı»*

* * *

Gözlərim şövqünü salır dərinə,
Açılır önümdə göy varaq-varaq.
Qulaqlar inanır özgələrinə,
Gözlərsə özünə inanır ancaq!..

*«Gözlərim»*

# ƏSƏRLƏRİ, IV CİLD

* * *

Bu necə dünyadır, anlamıram mən,
Nə gəliş bəllidir, nə gediş bizə.
Xəbərimiz olmur gəlişimizdən,
İnana bilmirik getməyimizə.

Örtmə pəncərəni, gəlir ilk bahar
Gör çölün havası necə təmizdir!
Açıq pəncərələr, açıq qapılar
Dünyaya açılan gözlərimizdir.

*“Örtmə pəncərəni...”*

* * *

Dünyanı öz xoşumuzla tərk etmirik.
Övlad olub ataları,
Ata olub övladları dərk etmirik.

*"Yaşıdlarım"*

* * *

Haqqı, həqiqəti indi görməyə
"İnsanam" deyənin dözümü yox-yox.
Mən çox aynalara baxdım "haqq" deyə,
Üzümü görürəm, özümü yox-yox.

*"Yox-yox"*

* * *

On ildir düşmüşük bir yanar oda,
Varmı bu atəşin yozumu? - Yox-yox.
Əqidəm - qəlb aynam! Mən bu aynada
Üzümü görürəm, özümü yox-yox.

*"Yox-yox"*

* * *

Nə deməkdir, nə demək, bir belə yanmaq?
Səni andıqca anır, doymuram ancaq.
Səhərim gəlsin ötüşsün, gecə keçsin
Suyu anmaqla susuzluq necə keçsin?

*“Səni andıqca”*

* * *

Nə gözəldir ürək geniş, söz açıq,
Yaşamadım bir sevdamı yarımçıq.
Əzab adlı dəyirmandan narın çıx,
Keçəcəksən ələyindən dünyanın.

*“Dünyanın”*

* * *

Nida işarəsi! Sən dik dayandın
Özünü hamıdan qüdrətli sandın.
Sual işarəsi! Baxmadın göyə
Əyildin torpağı dərk edim - deyə.

*“Nida - sual”*

* * *

Yolu ota dəyişdirən
            cığırlarda itər, batar.
Zirvələrin min ətirli çiçəyinə yetişməmiş
Yoncalıqda əl-qol atar…

…Bir ora bax!
Zirvəsində yol var dağın.
Dağ nə qədər uca olsa,
Yol üstündən aşar dağın!

*«Yol-dağ»*

* * *

Yox-yox! Gözəlliyi tapdığımda yox,
Tapmışam əbədi axtarışımda.

*«Axtarışlarım»*

* * *

İsti bir ürəyin isti sözləri
Soyuq könüldə də bir tonqal qalar.

*«Şeirini oxudum»*

* * *

Yolu özü açan zirvədən keçər,
Yolu yolla gedən dağdan gen keçər.

…Ömür yollarında «rahat» gedənlər-
Zirvələr başına ucala bilməz.
Təkərlər üstündə diyirlənənlər
Çatdığı mənzildə bənd ala bilməz.

*«Piyada-sərnişin»*

* * *

Görə bilmirsənsə gözəllikləri,
Bu aləm səninçün günahkar olur?
Gözü buz bağlayan bulaqlar kimi,
Soyuq adamın da qəlbi kor olur.

...Mən öz heyrətimin çəmənliyindən
Cavablar axtardım, suallar dərdim.
Heyran qalmasaydım gözəlliyə mən
Heyrətsiz halıma heyrətlənərdim.

*«Heyrət»*

* * *

Səhvlərim! Siz mənsiniz,
Mən də sizəm!
Mən səhvimdə səhvsizəm!

*«Səhvlərim, səhvlərim!»*

* * *

Enişdə, yoxuşda əldən salıbdır
Bizi, bir-birinə calanan yollar.
Elə bil, dağları əsir alıbdır
Dağların belinə dolanan yollar.

*«Gəl, ana təbiət»*

* * *

O dedi: - Yel əsir boş ürəyimdə,
Elədi könlümü talan qocalıq.
Dəyməz cavanlığın bircə gününə
Ömürdən bir parça qalan qocalıq.

*«O dedi...»*

* * *

Ehtiyat sözündən ehtiyatlıyam,
Ehtiyat - hər yerdə ehtiyac olmur.
Hər sözdən özünü qoruyan ilham
Ayaqda sürünür, başda tac olmur.

...Ehtiyat güdəndə sözün gülləsi
Həmişə hədəfdən didərgin düşür.

...Ancaq cəsarətlə addımlayanlar
Ya hər şeyi alır, ya da məhv olur.
Ehtiyat – birtəhər baş dolandırmaq,
Cəsarət – ya həyat, ya ölüm, ancaq!

…Cəsarət çətindir, ehtiyat asan,
Qorxudur alçaldan, axı, hər kəsi.
Cürətdən qorxmayaq, qorxaq qorxudan,
Qorxu – itaətin dayaq nöqtəsi!

Dolandım – yüz ölçüb, bir biçəndə mən,
Yaşaya bilmədim bircə an, ancaq.
Mən ziyan çəkmədim cəsarətimdən,
Qorxudan qorxuram, qorxudan ancaq!

*«Ehtiyat»*

* * *

Gəlirik dünyaya bir amal üçün
Gedirik…
Yaşayır bu yurd, bu torpaq!
Ölər bizim kimi vətən də bir gün,
Vətənçün ölümə hazır olmasaq!

…-Vətəni sevirəm – deyən çox olar,
Deməyə nə var ki, dil yorulmasa.
Vətən də bizim tək ölər, yox olar,
Vətənin yolunda ölən olmasa!

*«Şəhid məzarları»*

* * *

Bu dünyaya gətirsə də anam məni,
Yaradıbdır inam məni!

*«Mən insanam...»*

* * *

İradəmin ağasıyam,
Əqidəmin köləsiyəm.
Əqidəmin yolunda da öləsiyəm.

*«Qayə»*

* * *

Yıxılar kənardan itələnənlər.
Mənə güvənirsən, bəs özün nəsən?
Bir addım da atmaq çətindir, əgər
Özün içəridən itələnməsən.

*«Dedin»*

* * *

Ey yaxşı günümün yaxşı yoldaşı,
Xoşbəxtlik – Adama dost qazandırar,
Bədbəxtlik – Dostluğun bir məhək daşı!

*«Məhək daşı»*

* * *

Dərd var, ağacdakı odu andırır,
Zamanın hökmüylə qaralır közü.
Dərd də var, gün-gündən alovlandırır,
Üfürə-üfürə zamanın özü.

*«Arifin vaxtsız ölümünə»*

* * *

Bu necə dünyadır? Yolu bir qarış,
Ayıra bilmirsən çoxunu azdan…
Həzzindən, zövqündən hələ doymamış
Çəkirlər süfrəni qabağımızdan.

*«İyirmi beş il»*

* * *

Əridib özünü sən gilə-gilə
Yoluna işığı sal ürəyindən.
Niyyət çatdıracaq səni mənzilə,
Əgər başlanırsa yol ürəyindən.

*«Yol - ürək»*

* * *

Məktəbim – sükutdur,
Qələmim – fikir.

*«Məktəbim – sükutdur...»*

* * *

Açıq pəncərələr, açıq qapılar
Dünyaya açılan gözlərimizdir.

*«Örtmə pəncərəni...»*

* * *

Həqiqət ummadım min üzlü bəlkədən,
İnkarla təsdiqin arası bəlkədir.
Yalanın, doğrunun bütövü gözəldir,
Gerçəyin yarısı, parası bəlkədir.

*«Bəlkə...»*

* * *

Arxan – atan evi…
Səadətini
Yalnız ər evində tapasan, qızım.

*«Qızım Gülzara»*

* * *

Bəzəklərdən vaz keçib, axtarmışam özəyi
Mən axtara – axtara itirmişəm çox şeyi.

*«Fikir axtarışı»*

* * *

Yad iqlimə dözə bilməz
Öz-özünü tanıyanlar!

*«Qarabağ atı»*

* * *

Bizi zirvələrə çağırır hər gün,
Mənəvi dağlardan biz də dərs alaq.
Deyirəm, həyatda alçalmamaqçün
Həmişə dağlara baxaq, ucalaq!

*«Mənəvi dağlar»*

* * *

Onu da bilirik, axışan illər,
Ölümə uzanan əllərimizdir.

*«Gerçək ölümlə»*

* * *

Dərini görməli sərrafın gözü,
Dərinə enəndə böyüyər balıq.
…Yol aydın görünər dağ zirvəsində,
Əyridən seçirik doğru yolları.

*«Buludlar - xatirələr»*

* * *

Zalım külək,
Zülmə olan əyilməni səcdə bilmə!
Qorxudandır bu titrəmə, bu əyilmə!

*«Külək - ot»*

* * *

Təzə söz, təzə ruh bir ehtiyacdır,
Xəyala, duyğuya, ürəyə, gözə.
…Desəm dil alışar, deməsəm ürək.

*«Təzəlik»*

* * *

Bax göydə Aya, fəhm elə, qəlbində Günəş gör,
Arzunla yarat buz tək otaqlarda baharı.
Könlündə bahar cilvəsi yoxdursa, nahaqdır,
Axtarma nə bağlarda, nə dağlarda baharı.

*«Axtarma»*

* * *

Dözüm – başdan-başa əzab, şikayət,
Özün de, budurmu yaşamaq məgər?
Dözməmək – azadlıq, dözmək – əsarət,
Bir günlük azadlıq bir ömrə dəyər!

*«Dözüm»*

* * *

Dedin, gələcəklə yaşayaram mən.
Görmədik,
            Hələ ki, sən yol üstəsən.
Əgər gələcəyə uçmaq istəsən,
Möhkəm yapışasan bu gündən gərək.

*«Bərəyə çatmamış yolu itirdin»*

* * *

Bir də… unutma ki, tüstülənənin
Təzədən tutuşub alışması var.

Sən hardan biləsən, sevda anları
Qənimət payıdır tükənən ömrün.
Sısqa bir bulağın son damcıları
Daha şirin olur təşnələr üçün.

...Artır zaman-zaman vaxtın qiyməti,
Arzu min həvəsdə, ürək təlaşda.
Sən hardan biləsən, gözün ləzzəti
Qəlbin ağrısına dönür bu yaşda.

Sevgi yaş tanımır... Qəlbini yandır!
Yanaraq yaşasan, yaş düşməz yada.
Sevən doxsanında hələ cavandır,
Sevməyən qocadır otuzunda da...

...Bir ömrü illərlə ölçmək düz deyil,
Ömürlə illəri ölçəsən gərək.

*«Sən hardan biləsən»*

* * *

Yaşanmış yüz illik ömürdən, gündən
Hələ yaşanmamış bir an gözəldir.
Məni öldürəcək gerçək sözündən
Məni yaşadacaq yalan gözəldir.

...Özünü düşünən düşər nəzərdən,
Özgəni düşünən yüksələcəkdir.

*«Yaxşı söz»*

* * *

Xəyala sığınıb, eşqə güvənsən,
Qışda da oxşayar bahar-yaz səni.
Xəyal – bir cənnət ki, sahibi sənsən,
Heç kəs o cənnətdən qovammaz səni.

*«Xəyalın qucağı»*

* * *

Doqqazlar başında bizim qocalar
Düşüncə heykəli, fikir heykəli!

*«Qocalar»*

* * *

Cavanlıqda -
Əllər uzun, dillər qısa.
Qocalıqda -
Dillər uzun, əllər qısa.
Cavanlıqda -
Günlər qısa, illər uzun.
Qocalıqda -
Günlər uzun, illər qısa.

*«Cavanlıqda...»*

* * *

Qulluqla barışmaz əsl insan,
əsl əsgər,
Yurdunda qul olmaz
ona övladlıq edənlər!

*«Əsgər-şair»*

* * *

...Övlad olub ataları,
Ata olub övladları
Dərk etmirik.

*«Yaşıdlarım»*

* * *

Məni yaşadan da təlatüm oldu,
Dalğalar qoynunda ötdü anlarım.
Mənim zaman ölçüm, vaxt ölçüm oldu,
Ölçüyə gəlməyən həyəcanlarım.

*«50 yaşım»*

* * *

Gündəlik nədir?
Ötən günlərimin qəbristanlığı!
...Gündəlik - yasların, toy-düyünlərin,
Hələ qulağımda çırpınan səsi.
Sözlərdə dil açıb dinir günlərin
Acı hönkürtüsü, şirin nəğməsi.

*«Gündəlik»*

* * *

Qoy, zaman ölçüsü zamanın olsun,
Bu ölçü düz gəlmir istəyimizə.
Gün var ki, ildən də uzundur, uzun,
İl var ki, gündən də qısadır bizə.

*«Gün var, min aya dəyər...»*

* * *

Usanıb, yorulub yaşamaqdansa,
Gözəldir min dəfə çox erkən ölmək -
Dünyaya yük olub yaşamaqdansa,
Dünyanın yükünü çəkirkən ölmək!

Yaşamaq həvəsi məni ucaldar
Gərəkli görəndə əməllərimi.
Barama qurduna çox həsədim var
Ölür, öz işini qurtaran kimi.

...Vaxtında! Vaxtında öləsən gərək
Eşqində əbədi yaşamaq üçün.

*«Vaxtında»*

* * *

Motor uğultusu, çəkic zərbəsi,
Dəmir cingiltisi - əsrin öz səsi!
Yaxşı ki, səslənir hələ dünyada
Yarpaq pıçıltısı, bülbül nəğməsi!

*«Yaxşı ki...»*

* * *

Birinin ilkidir, birinin sonu,
İnandım, təzadda qayda beləymiş!
Ancaq deyən ola mənə bir bunu:
Həyatla ölümün sərhədi nəymiş?..

*«Gəl, enək...»*

* * *

Ürək bu dünyadan küsdü, incidi,
Yaşımı birisi salırkən yada.
Dünya uşaq idi, dünya gənc idi,
Mənimlə bərabər qocalır o da.

*«Təskinlik»*

* * *

Budağın üstündə əl boyda yarpaq,
Küləklər əsəndə yaşayır ancaq.
Küləklər əsməsə, yarpaq da dinməz,
Yarpaq titrəməsə, külək bilinməz.

*«Nə mən istəyimi»*

* * *

- Sevirəm, nə lüzum sözə, öyüdə
Mənim qısqanclığım sevgimin özü!
Vurulan kilidin böyüklüyü də –
Qorunan sərvətin dəyər ölçüsü!

*«Kilid»*

* * *

Elə bil, hər yerdən üzülüb əlim...
Mən azıb qalmışam qəm dərəsində.
Dirilib, yaşanır sənli günlərim
Sənsiz günlərimin xatirəsində.

...Mənimlə olsaydı, mən darıxmağı
Zamana ən uzun ölçü sanardım.
...Kölgəyə dönmüşdüm,
Səni görüncə
Sənin işığında yox oldu kölgəm.

*«Yaman darıxmışam»*

* * *

Ağ tellər - qayğılı, dərdli ömürdən
Durna qatarı tək uçan günlərin.
Ağ tellər - izidir ağarır dən-dən,
Ağrılı günlərin, yaman günlərin.

*«Ağ tük»*

* * *

Şirin olmasaydı sevgi bu qədər,
Ona acı-acı mən ağlamazdım!

*«Deyirəm...»*

* * *

Bəzən bir təpənin borcu önündə
Dağılır yüz dağın yüz-yüz dağ haqqı.
Bəzən yaranmağa haqqı olanın
Olmur bu dünyada yaşamaq haqqı.

*«Səadət deyil?»*

* * *

Bütöv bir bədbəxtlik yoxdu dünyada,
Təkcə dözümsüzlük var bu dünyada.

*«Hirsləndin...»*

* * *

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

*«Daş ürəklərdə»*

* * *

Dünyanın yasına qəh-qəh çəkməsən,
Dünyanın toyu da müsibətindir.

*«Doldur ürəyini...»*

* * *

Mənə inamımı qaytarın bir an,
Mən axan zamanı qaytarım geri.

*«Tilsimli alma»*

* * *

Mənə inamımı qaytarın bir an,
Mən axan zamanı qaytarım geri.

*«Tilsimli alma»*

* * *

Baharı vermişəm, qış qazanmışam,
İlləri vermişəm, yaş qazanmışam,
Dolunu vermişəm, boş qazanmışam,
Kim deyir, gətirir xeyir qocalıq?

*«Qocalıq»*

* * *

Dünyanın gəncliyi - öz dövrəsində,
Torpağın gəncliyi - göy pöhrəsində.
Körpə nəvələrin gül çöhrəsində
Gül kimi yenidən açılan bizik.

*«Bizik»*

* * *

Mənə inamımı qaytarın bir an,
Mən axan zamanı qaytarım geri.

*«Tilsimli alma»*

* * *

Gözümdə qalmasın bir gül həsrəti,
Nə çəmən həsrəti, nə çöl həsrəti.
Dünyadan gedənin könül həsrəti,
Dünyaya gələnin inamıyam mən!

*«Gedənim, gələnim»*

* * *

Ürək fikrin tilsimidir,
Hər qatı bir lay kimidir.
İnsan - göydə Ay kimidir,
Görünməyən tərəfi var.

*«İnsan - göydə Ay kimidir...»*

* * *

Vətənindən uzaqda tapılan «səadətin»
Adı səadət olur,
Özü fəlakət olur...

*«Çörək - səadət»*

* * *

Həmişə xalq deyən, xalqa söykənən,
Xalqdan qüvvət alan özü xalq olar.
...Xalqa arxalanan xalqsevərlərin
Özü də xalq üçün arxaya döndü.
Xalqa arxasını çevirənlərin
Arxası həmişə yerdə göründü.

*«Leninlə söhbət»*

* * *

Ana təbiətin düzüb-qurduğu
Qaydanı, hüdudu dağıdar insan.
Ancaq aşa bilmir, keçə bilmir o,
Özü yaratdığı həddən, hüduddan.

*«Kaman nalə çəkir...»*

* * *

Özünün yanlışı min pay gözəldir,
Özgənin düzünü təkrarlamaqdan.

...Dünyaya sualı olmayanların,
Sualdır varlığı, sualdır özü!..
...Pozular qaydalar, dağılar nizam,
Verməsən hər kəsin öz qiymətini.
Gövhər də çatlayıb üzülər tamam
Sərrafdan almasa düz qiymətini...

Mahnıda bəmi var, zili var səsin.
Həyatda yeri var, axı, hər kəsin.
Gözlər ağlamasın, gözlər neyləsin -
Sən qaşa verəndə göz qiymətini.

Yalanın əlilə gerçək boğuldu,
Yaxın uzaq oldu, qara ağ oldu.
Dünyanın növrağı tamam pozuldu,
O gün ki, itirdi söz qiymətini.

Vicdan, yazıq vicdan bəzən həyatda
Yaşamaq xətrinə səni əzmişik.
Bizdən güclülərin ayağı altda
Səni istəmədən qurban kəsmişik.

*«Qiymət»*

* * *

Ekran qaraldımı – könül diksindi,
Gecəni bəs necə başa vurum mən?
Səsinə səs gəzən qəlbimə indi
Təkliyi nə ilə unutdurum mən?

Ekran qaralanda ey yalqız ürək,
Özümə yeganə dost saydım səni,
Ekran qaralanda – sən ey mənim tək
Yatmaq istəməyən, tapaydım səni.

*«Ekran qaralanda»*

* * *

Gərək bilirlərsə dünyada səni,
Böyründə-başında dost görəcəksən.
Elə ki, itirdin gərəkliyini,
Dünyada hər şeyi itirəcəksən.

Özünü aldadıb yaşayır insan
Bəlkə, bu alversiz yaşamaq olmaz?
İkinci günaha yol verir insan
Birinci günaha haqq verən zaman.

Əmanət kassası deyil uşaqlar
Xərcindən kəsərək qazanc görəsən.
Artıq gəlirini orda saxlayıb
Sonra faizilə ömür sürəsən.

Yanında böyüyür... Ancaq yaxşı bil
Oğul da yar üçün, qız da yar üçün.
Övladlar... övladlar! Bizimçün deyil,
Biz onlar üçünük, biz onlar üçün.

...Çiynindən düşdümü həyatın yükü,
Həyatın ləzzəti bitdi büsbütün.
...Qaydadır həsrətlə baxar həmişə
Cavan gələcəyə, qoca keçmişə.

Cavanın sərvəti - hələ öndədir,
Qocanın nəyi var - keçmişindədir.
...İnsan möhtac olur başqalarına
Bir ömrün ilk çağı, bir də son çağı.

...Məcəllə hökmüylə xatırlanan borc
Yaxşıdır min dəfə ödənilməsə.
Verilən cəzanın kimə nə xeyri,
Günahkar özündə günah bilməsə?

*«Atılmışlar»*

# ƏSƏRLƏRİ, V CİLD

* * *

Gözlərin hər biri ayrı bir ulduz,
Biri haraylanır, biri huylanır.
Gah qadın gözüylə bakirə bir qız,
Gah qız gözlərilə qadın boylanır.

*"Könlümdə, ruhumda"*

* * *

Babadan nəvəyə nəsil - bir axın!
Zəncirdə son halqa odur, ilkisə mən.
Nəvələr babaya övladdan yaxın -
İlklə son birləşir zənciri əysən.

*"Baba-nəvə"*

* * *

Biri başqasına, bilirəm ki, mən
Quşu da vurarsan gözündən, - dedi.
Əgər bu müşkülü aşıra bilsən,
Hörmət eləyərəm sənə mən, - dedi.
Hörmətin boynuna minnət qoyuldu,
Səxavət çevrilib cinayət oldu.
Hörmət hörmətini itirdi bu gün,
Əyrilik düzlüyün oldu kölgəsi.
Hörmət!
Hörmətə bax!
Bu gözəl sözün
Gizləndi ardında rüşvət kəlməsi!
Hörmət! Alçaqlığın öz səsidir bu,
Oğrunun məbədə girməsidir bu!

*"Hörmət - rüşvət"*

* * *

Dəlilik istərəm, ağıllı başdan
Qar yağar, soyuqdur onun tədbiri.
Dəlibaş atəşdir, o keçər daşdan,
Şumlar daş dözümü, əridər səbri.

*"Qeyrətmi, ağılmı?"*

* * *

Bildik, bilirik, gizlidir insandakı qüdrət,
Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.
İnsanın əzəl borcudur insanlığa hörmət,
İnsanlığa hörmətdə, ləyaqətdədir Allah.

Gerçək də budur: Gizlidir hər zərrədə vəhdət.
Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət.
Gördüklərimiz zahiridir, bətnə nüfuz et!
Batindəki, cövhərdəki fitrətdədir Allah.

Fitrət də yatır sözdə, sözün öz yükü fıkrim.
Seçmiş, seçəcək daima tükdən tükü fıkrim.
Mən bir ağacam, yarpağı sözlər, kökü - fıkrim,
Sözlərdə deyil, sözdəki hikmətdədir Allah.

*"Allah"*

* * *

Bilmədik tamahın min bəlası var,
Tamah girən evdən səadət qaçar.

*"İman təməli"*

* * *

... Keçilmiş yollarla keçib hamımız,
Elə bilirik ki, yolu biz açdıq.

*"Hamı elə bilir..."*

* * *

El bir olsa zərbi kərən sındırar
El gücündə, el dedi sel gücü var.
Beş nəfərin yanmağından nə çıxar?
Xalq yanmasa, dönüb millət olammaz.

*"Olammaz"*

* * *

Bir oğul göstərin indi siz mənə,
Millətə həm ata, həm oğul olsun.
Çox gördük xalqını qul edənləri,
Eləsi gəlsin ki, xalqa qul olsun.

*"Həm oğul, həm ata"*

* * *

Kor, kora kor desə - bu, keçib gedər,
Gözlüyə kor deyən kor, daha dəhşət!
Gözündə dağ boyda tiri görməyən,
Özgənin gözündə qıl seçər, əlbət.
Nadan öz sözünü yeritmək istər,
Özünü dərk etməz,
            hamını danlar.
Aləmi çirkaba qərq etmək istər,
Çirkabın içində şıllaq atanlar...

*"Kor, kora kor desə"*

* * *

Bu savaşdan qan çilənir dan yerinə,
İşıq - zülmət! Diş qıcadır bir-birinə.
Qalib gəlir gecənin də kədərinə
Al səhərin həyat dolu şən səsləri.

Gələn-gedən! Hər biri öz təlaşında.
Gedənin də izi qalır yurd daşında.
Şərlə xeyrin bu əbədi savaşında
Qımıldanır ürəyimdə Hun* səsləri.

*"Hun səsləri"*

*Oğuz - türk xalqlarının əcdadının adı Hundur.

* * *

Dönür dilənçiyə bəzən məhəbbət,
Ona da, buna da əl açıb durur.
Mən yaxşı bilirəm, birgünlük həsrət
Ömürlük vüsaldan niyə uzundur.

*"Necə dincələrəm"*

* * *

Qulluqdan azad oldusa, qul şad olar, fəqət,
Mən azad olmuşam, niyə bəs qəm içindəyəm?
Eşqində sağ qalanlar ölür, ölmədən qabaq;
Eşqimdə ölmüşəm, diri qalmaqçün hər zaman.

Sordun: Niyə susdun? Niyə fəryadın ucalmaz?
Yarpaqları tökmüşsə, budaqlarda səs olmaz.
Üstün gəlib inkar elədi naləmi eşqim,
Tonqal ki, alov tutdu, onun tüstüsü qalmaz.

*"Qitələr"*

* * *

Həsrət - dərdin dili, idrakın gözü,
Həsrət - sevginin də kamal yaşıymış.
Ürəyin açarı,
Diləyin sözü,
Həsrət - fitrətimin məhək daşıymış.

*"Həsrətin hökm etdi"*

* * *

Gətir xatirinə gecə gündüzü,
Biri qapqaradır, biri ağappaq.
Sevginin bu tayı sevginin özü,
Sevginin o tayı - gileydir ancaq.

*"Sevginin tilsimi"*

* * *

Babadan nəvəyə nəsil - bir axın!
Zəncirdən son həlqə odur, ilksə mən.
Nəvələr babaya övladdan yaxın -
İlklə son birləşir zənciri əysən.

*"Baba-nəvə"*

* * *

Həsrətin könlümün ehtiyacıdır,
Nədən ki, güclüdür məndən yüz kərə.
Həsrət ürəyimdə dar ağacıdır,
Asır, asır məni gündə yüz kərə.

Mən özüm-özümə göz dağıyamsa,
Bəzən sevincim də mənə bir yükdür.
Mən öz həsrətimin dustağıyamsa,
Axı, hardan bilim dünya böyükdür?

*"Həsrətin"*

* * *

Sevdanın əvvəli, axırı qəmsə,
Nə uma bilərəm adi sevincdən?
Ağzımın dadını itirmişəmsə,
Balın ləzzətini hardan bilim mən?

Batanlar əlini atar samana,
Ümid saplağından asılıb arzum,
İynənin gözündən keçən gümana,
Əl açan ümidə qısılıb arzum.

*"Həsrətin"*

* * *

Həsrətin ölçüsü sığışmır sözə,
Həsrətim, ümidim - qaram, ağımdır.
İşığı tanıdan qaranlıq isə
Sevgimi tanıdan ayrılığımdır.

*"Mənim öz dünyamdır"*

* * *

Sevdinsə... qanqalı gül biləcəksən,
Hər əsən yarpağa kövrələcəksən.
Sevdinsə... nə dünən, nə də bu günsən,
Sevdinsə... həmişə sən gələcəksən.
Sevdinsə... bir ömrün ilk sabahısan,
Dünyanın ən böyük xeyirxahısan.

*"Sevdinsə..."*

* * *

Sabir dedi, "Biqeyrət olur ağlayan insan"
Tarixdə zəbun etdi əməlsizləri həsrət.

Öz haqqına biganə olan bəxtiyar olmaz
Çapmış, talamış daima dilsizləri həsrət.

*"Ustad Şəhriyara"*

* * *

Yorulduq zaman-zaman,
Bu vuruşdan, bu qaldan.
Ömür yolu - məchuldan
Məluma yol açmadır.

Artdıqca günahımız,
Bizi yaxdı ahımız.
Eşqdir pənahımız
Eşq - özünü aşmadır.

*"Öz-özünü aşmadır"*

* * *

Çox şişirtdik biz hər şeyi,
Dərk etmədik bu şitliyi.
Adamların eşitdiyi
Gördüyünə sığışmadı.

Qəm əkib, dərd biçə-biçə,
Ömür sürdük biz beləcə.
Bir yasımız neçə-neçə
Toy-düyünə sığışmadı.

Sağlar dönüb çürük olub,
Ulaq şələyə yük olub,
Din, Allahdan böyük olub
Öz boyuna sığışmadı.

*"Sığışmadı"*

` * * *

Yaşamaq məqsədə çevrilən zaman
Yaşaya-yaşaya yaşamır insan.

*«Yaşaya-yaşaya yaşamayan var»*

* * *

Böyüyür çox zaman böyük ürəklər
Kiçik daxmalarda, dar daxmalarda.

*«Saray-daxma»*

* * *

İnam ölməyibsə qurtarmır həyat,
Həyatın sonudur inamın sonu.

*«Eyni yaşdayıq»*

* * *

Sənət bir sirrdir, uludan ulu,
Yolunu kəsdikcə gen olar yolu.

Payız sazağında, dumanda, çəndə
Qaydadır, zillənər göz dərinliyə.
Fikrin qabağına daş gillədəndə
İşləyər həmişə söz dərinliyə.

*«Taras Şevçenkoya»*

* * *

Hələ çıxmasa da yollar düz yola,
Düzü heç olmasa əyridən seçək.
Qorxum ondadır ki, yollar düzələ,
Biz yenə düz yolu əyilib keçək.

*«Tələsə-tələsə...»*

* * *

Axı, kimə gərəkdir vaxtdan bu umu-küsü?
Vaxt ərzində görülən işdir vaxtın ölçüsü!

*«İş-vaxt ölçüsü»*

* * *

Boş küydür, hədəfsiz sözün gülləsi,
Səsinə nə ağıl, nə ürək dinər.
Bərkdən qışqıranın sözü yox, səsi,
Asta danışanın sözü dinlənər.

*«Qışqırtı-pıçıltı»*

* * *

Xalqın varlığıdır hər kəlmə, hər söz,
Xalqa təcavüzdür, sözə təcavüz!

*«Hörmət-rüşvət»*

* * *

Qeyrət - paltar deyil, geyəsən onu,
Qeyrət - qeyrətlinin əməlindədir.

*«Qeyrət»*

* * *

Şübhə ki var, qapısıdır həqiqətin.

*«Göz, ya qulaq»*

* * *

Allah! Bilirik, cism deyil, bəs nədir Allah?
Ən yüksək olan haqda, həqiqətdədir Allah.
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah.

...Cahil enər alçaqlığa, öz qəlbinə yenməz,
Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.
Zülmətdə, cəhalətdə, ədavətdə görünməz,
İlqarda, sədaqətdə, məhəbbətdədir Allah.

*«Allah»*

* * *

Tapdığımız qədər də
İtiririk dünyada.

...Nəyisə itirmədən
Nəyisə tapmaq olmur.

*«Tapmaq-itirmək»*

* * *

Şair - od qaynağı, şeir - güllədir.
Barıtsız şeirə şeir deyilməz.
Şairi olmayan bir xalq kütlədir,
Amalsız bir kütlə xalq ola bilməz.

*«Oxucu məktubu»*

* * *

Şöhrət cədvəlində ad böyüdükcə
İstedad büküldü, balacalandı.

*«Xatalı yuxu»*

* * *

Xalq var, özü odsuz, ocaqsız qalır,
Odundan qonşuya pay verir özü.
Xalq da var, o odu əvəzsiz alır,
Qonşu torpağına dikilir gözü.

...Yaxşı da, yaman da bizdədir deyin,
Nə onun, nə bunun öz odu yoxmuş.
Xeyir-şər qol-qola! Nə yüksəkliyin,
Nə də alçaqlığın hüdudu yoxmuş.

*«Xeyir-şər»*

* * *

Zorakılıq demərəm zoru yıxan zora mən.

*«Haqq - zorakılıq»*

* * *

Yaşayan görmüşəm yüz, yüz əlli il,
Qovuq tək boş olub qəlb də, beyin də.
Ömrün mənasını boyunda deyil,
Gərək axtarasan dərinliyində.

*«Dərinlik»*

* * *

Nəyinsə ilkidir, nəyinsə sonu
Dünya fırlanmasa son ilkə dönməz.

...Dünya fırlanır ki, tapa bilməyək,
Onun nə sonunu, nə əvvəlini.

*«Nəyinsə ilkidir, nəyinsə sonu»*

* * *

Çox əyilən görmüşəm, əyilməyən başları,
Sular duruldu, gördük dibindəki daşları.
Ünvanını dəyişdi dünənin alqışları
Niyə də dəyişməsin, axı, dünya fırlanır.

*«Axı, dünya fırlanır»*

* * *

Adam tanıyıram, yuxularında
Üzər balıq kimi yad sularında.
Uçar Nyu-Yorka, uçar Londona,
Mənəvi mühacir deyərdim ona!

*«İki mühacir»*

* * *

Qanmazlar qazanır qanmadığından.

*«Qanmaq - qanmamaq»*

* * *

Bulaqlar dağlarda ağlamasaydı,
Qəhqəhə çəkməzdi dərədə sellər.

*«Ağardı saçları məhəbbətimin...»*

* * *

Dünyada bir itki əvəzsiz olmaz,
Tək ikən vicdana əvəz tapılmaz.

*«Sən öz aləmində...»*

* * *

Milyon il insanın keçdiyi yolu
Hamı elə bilir, o keçib ancaq.
...Keçilmiş yollarla keçib hamımız,
Elə bilirik ki, yolu biz açdıq.

*«Hamı elə bilir...»*

* * *

Bəşər ölməzsə, bu dünya təzələnməz, qocalar,
Bütün insanlıq üçün bir əbədiyyətdi ölüm.

*«Yaranışdan bilirik...»*

* * *

Bizi zaman-zaman ululaşdırır
Möhnəti, zilləti ulu dünyanın.

*«Ulu dünyanın»*

* * *

Günəş sənin ürəyindən düşməsə -
Günəş doğar, amma səhər açılmaz.

*«Nənəm dedi...»*

* * *

Ayaqlar altında yer oldu tapdaq
Sirrini, məğzini bilmədik ancaq.
Tapdaq etdiyimiz bu qara torpaq
Əbədi mənzilin damı deyilmi?

*«Deyilmi?»*

* * *

Səma sonsuz, ağıl məhdud, zaman dar,
Məhdud ağıl sonsuzluğu qavramaz.

*«Səma sonsuz, ağıl məhdud»*

* * *

Bilmir, təbiətə qəsd eləyirkən
Özündə özünə qəsd edir insan.

*«Qəsd edir insan»*

* * *

...Yaşıdların sənə gülsə, zarafat bil
Balan yaşlı cavan gülsə, vay halına.

...Nöqsanını üzə deyən namərd deyil,
Kirayədə yaşadığın ev, yurd deyil,
Anan sənə ögey olsa, bir dərd deyil,
Zaman sənə ögey olsa, vay halına!

*«Vay halına»*

* * *

Eşqdir pənahımız
Eşq - özünü aşmadır.

*«Öz-özünü aşmadır»*

* * *

Mən bir həqiqəti bilmədim hələ:
Yalan olan yerdə düz dilə gəlməz.
Eyni tərəzidə saxta şöhrətlə
Həqiqət, ədalət çəkilə bilməz.

...Şöhrəti verirlər ləyaqətsizə -
Onu ləyaqətli göstərmək üçün.

*«Amerika gözəli»*

* * *

Əgər qorxmasaydı zülm ağıldan,
Öncə beyinləri yeməzdi zalım.
Yalanla qorxunun izdivacından
Törəyib, zatından mələzdi zalım.

...Özülü yalan olan cəmiyyətin başında
Bomba kimi səslənir hər «nə üçün»,
hər «niyə»

...Xalqın azadlığıdır -
Xalqların cərgəsində mötəbər vəsiqəsi!

...Qürbəti də Vətən edən ana dilim !

...Sözlər ürəkdəki dağı əritməz.
Zərurət bilməsə azadlığını,
Xalq onun yolunda ölümə getməz.
...Tökülən qanların qızartısından
Vətənin dan yeri qızaracaqdır.

*«Mərziyə»*

* * *

Elə bir məqama çatmışıq, artıq
Adamlar içində adamlar təkdir.
Ən böyük xəyanət soyuqqanlılıq,
Ən böyük cinayət biganəlikdir.

Bilirik, danırıq indi hər şeyi,
Amma yuxudadır vicdan, ayılmır.
İnsanın insana biganəliyi
Hələ məcəllədə günah sayılmır.

...Şübhə - oğru gözüylə bu dünyaya baxışdır.

...Düzlük istəyənin ən əvvəl özü
Əgər düz olmasa, vay o düzlüyə!

...Oğrular tutulmur, oğru olmağın
Yolunu öncədən bilir oğrular.

Doğrular tutulur, doğru olmağın
Gərək cəzasını çəkə doğrular.

...İnsan ürəyinin həyəcanları
Heç bir təlimata sığışa bilməz.

...Hər qəlbin, duyğunun öz açarı var,
Onu tapmadınsa, müşgül ötüşməz.
Ürək qapısını tək ürək açar,

Təlimat açarı ürəyə düşməz.
...Qorxuram dünyada bir zaman gələ,
İnsanlar yaşaya, insanlıq ölə.

*«Ləyaqət»*

* * *

Dünyadan əgər hörmət umub nəşə dilərsən
Öz qəlbinə bax, zülməti boğ, nifrəti öldür.
Gülmək diləyindirsə əgər özgəni güldür
Bildinmi neçin öylə gülür bağçada güllər,
Gül güldü ki, gülsün onu gördükdə könüllər.

*«Dünyadan əgər...»*

* * *

Zaman var, xəyalı çəkir zirvəyə,
Zaman var, məhv edir eşqi, niyyəti.

Zaman var, insanı qaldırır göyə,
Zaman var, öldürür insaniyyəti.

Zaman var, köksünə gül taxır yerin,
Zaman var, düşünən, duyan kəslərin
Ağzına daş basır, qəlbi susdurur;
Zaman var, uçurur, zaman var, qurur.
Zaman var, yalana həqiqət deyir,

Zaman var, tanrı tək haqqa baş əyir.
...Bütün dövrlərdə müstəbid, qəddar
Ağıldan, kamaldan, fikirdən qorxar.

...Fikir sığa bilməz hüduda, həddə,
O, zora baş əyməz, gücə əyilməz.
Fikir azad olan bir məmləkətdə
Zülm öz atını səyirdə bilməz.

...Vətəndən qovuldu ana dilimiz,
«Ana dili» - dedik gəlmə, yad dilə.
Ərəbcə danışdıq ölülərlə biz,
Rusca qırıldatdıq dirilər ilə.

*«İki qorxu»*

# ƏSƏRLƏRİ, VI CİLD

* * *

Mən ələmdən qaçırdım,
Ələm mənə tuş oldu.
Bəxtimin göyərçini
Bağçamda bayquş oldu.

Dağlar tufan qopardı,
Sel Saranı apardı.
Qəza başımı yardı,
Günahkarı qış oldu.

Yaman bəd əsdi rüzgar,
Saraldı bağ-bağçalar.
Taleyimə yağdı qar,
Günahkarı qış oldu.

*"Oldu"*

* * *

Mənim səbrim.
                Bu səbrimə mən nə deyim?
Mənim səbrim - mütiliyim
                                köləliyim!
Xoşbəxtliyim ondadır ki,
Düşmənimin hökmü böyük, taxtı çürük!
Bədbəxtliyim ondadır ki,
                                Mənim səbrim,
Düşmənimin qüdrətindən daha böyük!

Mənim səbrim mütiliyim, köləliyim!
Xoşbəxtliyim ondadır ki,
Düşmənimin hökmü böyük,
                                taxtı çürük!
Bədbəxtliyim ondadır ki,
                                mənim səbrim,
Düşmənimin qüdrətindən daha böyük!

*"Xoşbəxtlik - bədbəxtlik"*

* * *

Ağlım məni hey səbrə çəkir, "döz" deyir hər gün,
Ünsiyyətə məcbur edir oğraşlarımızla...
Biz damğa vurub kam alırıq bir-birimizdən.
Öz quşlarımız məhv olur öz daşlarımızla...

*"Qəlbim ağladı"*

* * *

Sönmüş odu boş qəlbimizin... Yoxsa, öyündük,
Bir böylə qapazdan gic olan başlarımızla!
Ağlım məni hey səbrə çəkir, "döz" deyir hər gün,
Ünsiyyətə məcbur edir oğraşlarımızla...
Türkük, bizi düşmənlərimiz yüz yerə bölmüş,
Birləşməliyik, gec-tezi qardaşlarımızla.

*"Öz "Mən"imin ağası"*

* * *

Qanmazlığımız qanmağımızmış, demə, yarəb,
Qollardakı zəncirləri ziynət bilirik biz.

Yaxşıyla pisin fərqini dərk etmədi nadan,
Bədbəxtliyi, vallahi, səadət bilirik biz.

Zindanda doğulduq, o qədər zülmə alışdıq,
Məhbusu azad, zülmü ədalət bilirik biz.

Hər zülmə şükürlər deyə zülmətdə süründük,
Məhbusluğu, məhkumluğu qismət bilirik biz.

Sabir o zaman cəhl ilə nadanlığa gülmüş,
Nadanlığı indiysə fərasət bilirik biz.

*"Biz"*

* * *

Ah azadlıq, azadlıq
Sənin gözəlliyini
Sənə qılınc çəkənlər bildimi?
Qırılmasın neyləsin
Vəznim də,
Sözlərim də...
İndi Cavidin özü
Olsa mənim yerimdə
Hecanı da sındırar,
Əruzu da sındırar.
Qırılan qəlbi kimi,
Qafiyəni də qırar.

Vəzn - ölçü,
Qafıyə - ahəng
Cavidin keçirdiyi
İztirabın, əzabın
Ölçüsü oldumu ki,
Burda mənim vəznimin,
Sözümün də ölçüsü,
Ahəngi olsun, Allah?...

*"Zindanda şeir"*

* * *

Şair gözsüz də yaşar,
Gecə gündüzdür ona.
Qəlbi, hissi, duyğusu,
İdrakı gözdur ona.

Görən göz yox, ürəkdir,
Göz duyğuda gərəkdir.
Göz idrakda gərəkdir.

Şeir-işıq, şeirdən
Nura boyandı zindan.
Bəs qorxmasın, neyləsin,
yarasa bu işıqdan?

Dərdin, qəmin önündə...
Söz ölçüyə gəlməyir
Söz sözlüyündən çıxır.
Söz özlüyündən çıxır,
Söz əsəbə çevrilir,
Söz qəzəbə çevrilir.

Daş yükünü çəkməyin
Elə bilmə rənci var.
Daş yükü qəm yükündən
Min kərə yüngül olar.
O, söz arabasında
Çox daşıyıb qəm yükü.

Qəm yükü Ələm yükü...
Daş yükü ağır olmaz
Qəm yükünü çəkənə,
sabaha göz dikənə.

*“Zindanda şeir”*

* * *

İşə bax! Ömrüm boyu
Mən quruya yaş dedim.
Qardaşıma əcnəbi,
Gəlməyə qardaş dedim
Öz doğma vətənimdə.

*“Vətəndaşlıq vəsiqəm”*

* * *

Hansı qanunda var ki,
Məhkəməsiz, qərarsız
Bir qocaman millətə
Dar ağacı qurulsun?

Hansı qanunda var ki,
Çağırılmamış qonaqlar
Evin sahibi olsun?

Hansı qanunda var ki,
Dəyişsələr millətin
ruhunu, fitrətini?
"Səadətindir" - deyə
Zorla yedizdirələr.
Ona əsarətini?

Hansı qanunda var ki,
Xalqın ləyaqətini
Ayaqlara atasan
"İndi xoşbəxtsən", - deyə
Əl çalıb oynadasan?

*"Zindanda şeir"*

* * *

Üç rəngli bayrağın kölgəsində mən
Qaraca torpağı Vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq - öz yurduma öz hakimliyim.

*"Bayraq"*

* * *

Çəkdiyim ağrılardan
Könül para-paradır.
Yalan-həqiqətlərə istədiyi ölçüdə
Paltar biçən dərzimiz.
Yalan - həyat tərzimiz.
Gerçək - üzü qaradır.

*"Yalan bazarı"*

* * *

Elə oğul istərəm diləyi vətən olsun,
Bu Vətənin yolunda yüz dəfə itirilsə,
min dəfə bitən olsun.
Vətən eşqi dağın da sinəsini dağlayar
Eşq olmayan ürəkdə hörümçək tor bağlayar.

* * *

Onun ana dərdinə oğul tək yanmaq gərək,
... Haqsızı yıxmaq üçün haqqa inanmaq gərək.

*"Nə vaxt üzün güləcək?"*

* * *

Qara tül çəkdilər gözlərimizə
Qolları zəncirsiz bir qula döndük.
Elə tələ qurdu qəsbkar bizə
Biri birimizçün qıfıla döndük.

*"Qıfıllar"*

* * *

Qanun - buludlara dəyən gülləyə,
Qanunu tapdamaq - hünərə döndü.
Vətən - əraziyə, millət - kütləyə,
Dövlətsə - kəsərsiz xəncərə döndü.

Rüşvət baltasının zərbəsi altda
Əzilir, görünmür hər gözə qanun.
Əzilən qanundan doğulur, amma,
“Şapka” təxəllüslü bir təzə qanun.

*“Ey insan övladı”*

* * *

... İndi azadlığım mənə qənimdir,
Bu gizlin oyundan baş açmır fələk.
Məni kor quyudan çıxaran kəndir
İndi boğazıma keçib halqa tək...

*“Əsarət - azadlıq”*

* * *

Sönmüş o həvəs, köhnə diləklər unudulmuş,
Hicran niyə bəs indi vüsaldan şirin olmuş?

*"Eşqin odu..."*

* * *

Ağlımın önündə başımı əydim,
İçimdə boğuldu könlümün səsi.
Mən hardan biləydim, mən nə biləydim,
Eşqin getməsidir ağlın gəlməsi!

*"Nağılım gəlsin"*

* * *

Haqq evində haqq divanı qurulmuş,
Hər qazancın öz bahası sorulmuş.
Təmənnası boynumuza yük olmuş.
Bağışlanan şərəf-şandan qorxuram.

Bu dünyadan umacağım mizandır.
Qorxduğum kəs bu mizanı pozandır.
Tox gədanın qudurması yamandır.
Acandan yox, mən doyandan qorxuram.

Uyuruqsa nəfs adlanan elçiyə
Tüpürürük vicdan kəsən ölçüyə.
Odur verən düz qiyməti hər şeyə
Vicdanından qorxmayandan qorxuram.

*"Qorxuram"*

* * *

Tamlığı dərk etmək üçün
Bir yerə bax, bir göyə bax.
Haqq danışır lap astadan,
Yalandakı səs-küyə bax.

Haqqı yenirkən nahaqlar,
Haqq sabaha ümid bağlar.
Biri gülər, onu ağlar
Sən ağlayan bəndəyə bax.

İnsanlıqsa, insaf hanı?
Tapdayır insan insanı.
Kələ-kötür bu dövranı
Hamarlayan rəndəyə bax.

*"Bax"*

* * *

Hər dərdinə ortaq mənəm,
Hər ağrını tən bölənəm.
Sən çəkənsən, mən gələnəm,
Gəmi başqa, yedək başqa.

*"Ağıl başqa, ürək başqa"*

* * *

Həddən artıq isti keçən
Yay da qışı sərt gətirər.
Qışın sərti əlacsıza,
Kimsəsizə dərd gətirər.

*"Gətirər"*

* * *

Qapısı açıqdı şərin,
Dibi yoxmuş bu dərənin.
Bizə çörək yetirənin
Evində bir loxması yox.

*"Yox"*

* * *

Haq-güc ilə üzüm gülür,
Könlüm gülmür, dədəm oğlu.
Dostu sevincində deyil,
Qəmində gör, dədəm oğlu.

*"Dədəm oğlu"*

* * *

Ağıla söykənsin dedim qüvvəmiz
Anlayan olmadı bu sözdən məni.
Ağıla güvənək bu məqamda biz,
Qüvvə daşı əzər, ağıl qüvvəni.

Zalımın "zəfəri" bundan qələtdir
Zamanın səsini biz də dinlərik.
Dünya zatımıza yaxşı bələddir
Biçilə-biçilə əkilənlərik.

*"Şəhidlər"*

* * *

Aranda içdiyin suyun,
Gözləri dağdan bulanır.
Bağ-bağça çayır otundan,
Bostan alaqdan bulanır.

Vicdan - haram bir tikədən,
Namus - kiçik bir ləkədən
Sevgi - qurulan tələdən,
Könül - qulaqdan bulanır.

Məhəl qoymayıb sazağa,
Endim düzə, qalxdım dağa.
Daş dəyər gəzən ayağa,
Şalvar - balaqdan bulanır.

*"Bulanır"*

* * *

Bugün xoşdur, bəs dünən –
Unutdunmu bunu sən?
Ucaldığı zirvədən,
Heç kəs geriyə baxmır.

Dünya bir qumarxana,
Gör kim uda, kim yana.
Hər şey baxır zamana,
Zaman heç nəyə baxmır.

*”Baxmır”*

* * *

Bədən ürək tüstüləyir,
Sönmək üçün su diləyir.
Haqq haqsızı üstələyir,
Öz yerinə düşəndə söz.

*“Söz”*

* * *

Qışda bahar, baharda qış,
Seldə, suda od gizlidir.
Ağ buludda yamyaşıl ot,
Yaşıl otda süd gizlidir.

Nədir bu dərd, nədir bu qəm?
Gah bilirəm, gah bilmirəm.
Hər sevincdə bir dərd, ələm,
Hər dərddə umud gizlidir.

*"Gizlidir"*

* * *

Hər kəsin öz məramı,
Öz məqsədi, öz yolu.
İlan ki var, həmişə
Əyri keçər düz yolu.

*"İlan - qartal"*

* * *

Yalan sözü eşitməkdən
Qulaqlar da yağır olur.
Məqamını keçirdisə
Qora suyu çaxır olur.

Söz də gərək yana-yana
Qəlb oduyla cilalana.
Qalay çəkməsən qazana
Qala-qala paxır olur.

Tapmısansa amalını,
Çox belləmə sağ-solunu.
Tutub getsən öz yolunu
Çəmən üstü cığır olur.

*“Daş yerində ağır olur”*

* * *

Gördüm gülü tumurcuqda,
Yoxu varda, varı yoxda.
Ən zülmkar bir alçaq da,
Yeniləndə fağır olur.

Divar hörmə cavan oğlan
Təməlsiz dam qalağından
İki cinsin calağından
Kəhər olmur, qatır olur.

Hər gülün öz zamanı var,
Yaxşısı var, yamanı var.
Hər kəsin öz meydanı var
Daş yerində ağır olur.

*"Daş yerində ağır olur"*

* * *

Hər gülün öz zamanı var,
Yaxşısı var, yamanı var.
Hər kəsin öz meydanı var
Daş yerində ağır olur.

*"Daş yerində ağır olur"*

* * *

Ağ-qara, uzaq-yaxın,
Hara gedir bu axın?
Dəyanət bir alçağın
Xəyanətindən ucuz.

Dərdlərimiz artalı
Dəymiş bildik hər kalı.
İndi göyün qartalı
Yerin bitindən ucuz.

Üzə gülmür qədər də
Necə dözək bu dərdə?
Təzə məzənnələrdə
Atın itindən ucuz.

*"Ucuz"*

* * *

Dandın həqiqəti sən bilə-bilə
Sübutun uydurma, dəlilin əbəs.
Erməni qəsbinə kiriməyinlə
Xoruzun quyruğu görünmürmü bəs?

Din ilə ucalır ruhumuz göyə
Göylər bir qiyasa, ölçüyə gəlməz.
O böyük din ilə bircə firqəyə
Bəşərin yarısı sığışa bilməz.

Zülm yavaş-yavaş kəsilir qənim
Tərsinə fırlanan o köhnə çarxa.
Suyun gəlməsinə şübhəm yox mənim
Bir vaxt şırıl-şırıl su gələn arxa.

*"İstiqlal" poemasından*

* * *

Minbərlərdən bağırdı söz gövşəyənlər:
"İslama hər yerdə dayağıq" – deyə.
Bizi darda qoyub "İslam" deyənlər
Niyə dayaq oldu bəs erməniyə?

*"İstiqlal" poemasından*

* * *

Yalana, riyaya nə qədər uyduq,
Biz Qızıl Orduya abidə qoyduq,
Ona ad da verdik: “Xilaskar ordu”.
Adını “doğrultdu”: El “xilas oldu”
Yenicə tapdığı azadlığından,
“Ölüyə azadlıq, diriyə zindan”.

Yaxşı tanıyırıq çoxdan biz onu
Adı bir olsa da, min bir üzü var.
Kasıb gizlətməkçün yoxsulluğunu,
İtinin adını “Gümüş” çağırar.

Yetmiş il “irəli!” - deyib yüyürdük,
Hamıdan geridə qalan bizmişik.
Döydük döşümüzə...
ayılıb gördük
Dünya aslan imiş, amma biz pişik!

*“Təzadlar içində”*

* * *

Gəlin, ölçə bilək xeyri, ziyanı,
Bəzən əvəzidir on qış, bir yazın.
Bizim şəhidlərin müqəddəs qanı,
Bəlkə də behidir sabahımızın.

Xəyal bir çiçək də bitirə bilməz,
Bu gündən sabaha körpü salmasa.
Azadlıq ağacı bar verə bilməz,
Şəhidlər qanıyla suvarılmasa.

Gəldi ürəkdəki arzular dilə,
Silahı məhəbbət, son sözü Vətən.
Şəhidlər göstərdi ölümləriylə
Ölüm aşağıdır Vətən eşqindən.

*"Eşq olsun sizə"*

* * *

Həyatı qanana ögeydir həyat,
Onu qanmayana doğmadır ancaq.

...Nadanlar görmüşəm, öz yolundakı
Dikə eniş deyir, düzə dik deyir.
Tülkülər görmüşəm, öz qolundakı
Dəmir zəncirlərə bilərzik deyir.

...Quldurlar görmüşəm, özgə yer deyil,
Yurdunu talayıb asudə yatmış.
Tacirlər görmüşəm, simu-zər deyil,
«Malades» sözünə Vətəni satmış.

*«Nağıl - həyat»*

* * *

Həqiqəti deməkdən elə qorxduq...
Ağılla
Həqiqət arasında hörümçək tor bağladı.

*«Hörümçək tor bağladı»*

* * *

Həyat - ölüm! Bir-birinin
həm ilkidir,
həm də sonu.
Varlığında görməlisən yoxluğunu.

*«Ölümlə qarşı-qarşıya»*

* * *

Tarixdir hər daşın, qayanın yaşı,
Tarixlə bağlıdır insan yurduna.
Yox isə bir xalqın tarix yaddaşı,
Vətən də quruca torpaqdır ona.

*«Tarix»*

* * *

Hamı çöldən umur haqqı, düzlüyü,
Çöldə haqq axtarma, içində yoxsa.

*«Çöldə haqq axtarma»*

* * *

Hər şey öz ziddi ilə aşkar olurkən binədən
Allahın ziddi ki, yoxdur, görəmməzsən onu sən.

*«Allahın ziddi ki, yoxdur»*

* * *

İçimi göstərmədim cahil tutan güzgüyə,
Üzdə gülüb, içimdə müşkülümə ağladım.
Millətimin dərdini ünvanlayıb özgəyə,
Başqasının yasında öz ölümə ağladım.

*«Başqasının yasında»*

* * *

Zindanda doğulduq, o qədər zülmə alışdıq,
Məhbusu azad, zülmü ədalət bilirik biz.

*«Alçaqlığı bir qayə sanıb...»*

* * *

Görən göz yox, ürəkdir
Göz duyğuda gərəkdir,
Göz idrakda gərəkdir.

...Daş yükü qəm yükündən
Min kərə yüngül olar.

*«Zindanda şeir»*

* * *

...Tamah girən evdən səadət qaçar.

*«İman təməli»*

* * *

Xalq üçün yananlar qapı dalında.
Xalqı talayanlar cah-cəlalında.

Bu Vətən mənimdir, bu Vətən sənin.
Səngərdə əsgərə dəyən güllənin
Ağrısı qəlbində göynəməyən kəs
Bu boyda millətə baş ola bilməz.

*«Həm oğul, həm ata»*

* * *

Qorxuncdur, gözündə gileyi min-min
Hirsini dişində çeynəyən millət.
Hələ günahkardır, şəhidlərinin
Qisası könlündə göynəyən millət.

*«Hələ günahkarıq»*

* * *

Əvvəlcə özünü tanımayan kəs
Özünü dünyaya tanıda bilməz.

*«Öz-özünü tanımaq»*

* * *

Yaltaqlığı beh verirlər
Daha böyük rütbələrə.

*«Alver»*

* * *

Mütilik - millətləri dəfn edir diri-diri,
Mütilik - hər məqamda azadlığın zənciri!

*«Köləliyə sədaqət»*

* * *

Vətən uğrunda ölənlər ölümündən doğular.

*«Vətən marşı»*

* * *

Bu əxlaq tarlası, bu - din tarlası
Keçirir sınaqdan hamını dən-dən.
Dünya - axirətin ilkin tarlası
Burda əkdiyini orda biçərsən.

*«Bu əxlaq tarlası»*

* * *

İnsanlar ağacdan kürsü, nərdivan,
Allahsa ağacda meyvə yaratdı.

*«Allahın balası...»*

* * *

Tamahkar həmişə dilənçi, acgöz,
Borcunu dəbbələr, dəbbələdikcə.
Tamah iştahıyla yeyən dələduz
Heç vaxt doya bilməz, acar yedikcə.

*«Tamahkar həmişə...»*

* * *

Allahın varlığı - sirri qədimdir,
Allahı anlayan varsa, de, kimdir?
Allahı anlamaq, onun sirrini
Heç cürə anlaya bilməməyimdir.

*«Allahın varlığı...»*

* * *

Dünyanın kalına dəymədi dəymiş,
Sığalı - aldanış, qəsdi - tələymiş.
Bu qədər yaşadım dünya evində,
Bilmədim, bu evin qibləsi nəymiş.

*«Dünyanın kalına...»*

* * *

Bir qəlbi tikməyi bacarmayanlar
Millətin qəlbinə girmək istəyir.

*«Özünü hər şeyə...»*

* * *

Adımı dəyişin, bilinsin yolum,
Məgər bəxtiyaram, Bəxtiyar olum?
Sinəmə dağ çəkən bir belə dağla
Mən ağlar bəxtimə necə yar olum?

*«Adımı dəyişin...»*

* * *

Rəhbər cahildirsə, millət də qafil,
Demək, bu məmləkət üz üstə batmış,
Millət də, rəhbər də oyanan deyil,
Oyada bilərmi yatmışı yatmış?

*«Rəhbər cahildirsə...»*

* * *

Könlümlə duymuşam nəyi duydumsa dünyada,
İdrak edir, fəqət nə edək, ağlın odu yox.
Könlümdür üzdürən məni ruhani dünyada
Ağlın hüdudu var isə, könlün hüdudu yox.

*«Könlümlə duymuşam...»*

* * *

Kölgənin üstünə nə töksən hədər!
Kölgə qalmalıdır kölgəliyində.

*«Hərdən yaşasaq da...»*

* * *

Mədənin gözüylə dünyaya baxdın
Ağla güvənməli, ağla, ay yazıq.
Başından mədənə keçdisə ağlın,
Ağlının gününə ağla, ay yazıq.

*«Mədənin gözüylə...»*

* * *

Öz hakimi zaman olur tarixin
Sabaha bax, ey bu günə hökm edən.
Məhkəməsi yaman olur tarixin
Axı, tarix rüşvət almır kimsədən.

*«Öz hakimi zaman olur...»*

* * *

Bir yerdə ki, əməllər sözün yedəyindədir,
O ölkədə bilinməz yaxşı nədir, pis nədir.

*«Söz alağı»*

* * *

İndi düzü budur ki, qorxuram, qorxuram mən
Yalan desəm, tanrıdan, doğru desəm, bəndədən.

*«İki qəbahət»*

* * *

Əldən gedir azadlığım
Yalanlara mən dözəli.
Həqiqətə əsir olmaq -
Əsarətin ən gözəli!

*«Gözəl əsarət»*

* * *

Nəfsə qulluq edən ruhu nə bilsin,
Nəfsini öldür ki, ruhun dirilsin.

*«Qeyrət aşısı»*

* * *

Şair - susdurulan gerçəyin dili,
Şair - ədalətin, haqqın vəkili.
...Hökmdar zamandır... onun dünyada
Hər şeyi tərsinə devirməsi var.
Dünənki şagirdi bu gün ustada,
Ustadı şagirdə çevirməsi var.

*«Yevtuşenkoya məktub»*

* * *

Şəhidi şəhidlik mərtəbəsindən
Endirir ananın giley-güzarı.
Bizdən kömək uman dərdli səsindən
Alışıb yanmazmı şəhid məzarı?

*«Şəhid anası»*

* * *

Zor bacadan girəndə haqq da qapıdan çıxar.

*«İkibaşlı qartal»*

* * *

Divarı təməldən çəp hörənlərik,
Sabahı nə duyan, nə görənlərik.
Gələni çəpiklə qarşıladıqca
Gedəni təpiklə ötürənlərik.

...Gedən torpaqları qaytarmaq üçün
Savaşa bilmədik, sülhlə öyündük.
Babamız qurd idi,
ancaq biz bu gün
Əllərdən ot yeyən quzuya döndük.

...Bir zaman ruscaydı bütün reklamlar,
İndi ingiliscə dürtülür gözə.
İtin də dilinə hörmətimiz var,
Təkcə öz dilimiz yaramır bizə.

*«Özümdən özümə şikayət»*

* * *

Savaş meydanında səf pozan ölkə,
Deyər öz sözünü səngər başında.
Savaş meydanında uduzan ölkə,
Qazanmaq istəyər söz savaşında...

*«Səngər-masa»*

* * *

Bizim özlüyümüz getdi büsbütün,
Hanı bəs kişilik, hanı bəs qürur?
Dünyaya hökm edən qoca Şərq bu gün,
Qərbin çubuğuyla oturub-durur.

...Nəyəmsə, mən oyam, qarayam, ya ağ,
Niyə özgəsinə kücənməliyəm?
Özüm olmalıyam, mən özüm ancaq,
Özüm deyiləmsə, demək heç nəyəm.

*«Özüm olmalıyam»*

* * *

Bu millət içində dərdin, zillətin
Ağrıyan yerinə əl qoya bilmir.
Başının üstündə başqa millətin
Kölgəsi olmasa, yaşaya bilmir.
...Özgə kölgəsinə daldalanmışıq,
Əsrlər boyunca şöhrət sanmışıq
Ana dilimizə qəmzə satmağı,
Özgənin dilində qırıldatmağı.
...Çox ağır yük imiş, heç demə, qeyrət,
Atıb çiynimizdən yüngülləşmişik.

*«Fəxriyyə»*

* * *

Qaydadır, görünər zülmətdən işıq,
İşığın içindən zülmət görünmür.

*«Ya rəbbim»*

* * *

Millətin qanıdır sərvətin, varın,
Siz öz kefinizdə, məmləkət darda.
Gecələr çadırda ac yatanların
Payını uduzun kazinolarda.

*«Vaydır əkdiyiniz»*

* * *

Düz iş görməyəndə haqqa əyildim,
«Haqsızam» - deməkdən heç utanmıram.
Özümü hamıya mən borclu bildim,
Heç kəsi özümə borclu sanmıram.

*«Hamıya borcluyam»*

* * *

Bir səs şaqqıldayıb ildırım təki:
Dedi: - Qorxursanmı, yoxsa, ölümdən?
-Həyatla ölümün sərhəddindəki
Zülümdən qorxuram, - dedim, - zülümdən.

*«Yuxuda ölüm»*

* * *

İnsanın başına gələn bəlalar
Görmüşəm, həmişə nəfsindən gəlir.

*«Məzarçı ilə söhbət»*

* * *

Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq - öz yurduma öz hakimliyim.

*«Bayraq»*

* * *

Göz yaşım axan yer qürbətimdisə,
Qanımın axdığı yer Vətənimdir.

*«Qürbət - Vətən»*

* * *

Kimi övladının dərdini çəkmir,
Kimi də xalqının dərdindən dəli!

*«Qəribə deyilmi?»*

* * *

Ağıl parlayanda sönür inamlar,
Harda ağıl varsa, orda şübhə var.

*«Ağıl - fəhm»*

* * *

Məktəbi hər şeydən üstün millətin
Hər yerdə, hər işdə zəfəri - haqdır.

*«Müəllim»*

* * *

Atatürkün sinəsi, yurdun alınmaz qalası!
Atatürk millətinin həm atası, həm balası!

*«Atatürk»*

* * *

Gileyli deyiləm qaçan yuxumdan,
Onun hesabına uzanır günüm.
... Mən yaxşı görürəm görmədiyimi,
Amma gördüyümü yaxşı görmürəm.

*«Yuxum perik düşüb»*

* * *

Tövbə orağıyla vicdanındakı
Günah alağını biçənə alqış!

...Tövbədən sonrakı bir günah yüz qat
Böyükdür əvvəlki yüz günahından.

*«Günah - tövbə»*

* * *

Utanmaq - özündən bir boy ucalmaq!
Qızarmaq - günahı boynuna almaq!

...Abır - üz suyudur, qəfil qızarar
Qırmızı deyilən bir acı sözdən.

*«Utanmaq, qızarmaq»*

* * *

Fikrin, düşüncənin Adəmdən bəri
Əvvəli şübhədir, sonu həqiqət!

*«Fikrin, düşüncənin göy qurşağı»*

* * *

Biz necə məxluquq, anlamıram mən
Nəfsimiz ağırmış qeyrətimizdən.

«Nəfsimiz»

* * *

Böyük savaşların, axan qanların
Ağacı mənəmlik, barı fəlakət.

...Mənəmlik bir yerdə hökümdardısa,
O yerdə vicdanı nökər görmüşəm.

*«Mənəmlik - vicdan»*

* * *

Görənlər bu dünyanı
Həmişə belə görmüş -
Əzəni - cah-cəlalda,
Dözəni - kölə görmüş.

*«Düz yol, əyri yol»*

* * *

Vətən cəfasını çəkən keşikdə,
Onun səfasını çəkənsə kefdə.

*«Anan ölsün, ay Vətən»*

* * *

Torpaqda ucalan daş heykəllərin
Özülü sevgidən yoğrulsun gərək.

...Öncə ürəklərdən baş qaldırmayan
Heykəl torpaq üstdə dayana bilməz.

*«Dağılan heykəllər»*

* * *

Əgər olmasaydı dəryaca dərdim,
Dərdin yoxluğunu mən dərd edərdim.

Nədir ürəkdəki bu gizli sancı?
Bu yerdə dərk etdim, sən nəsən, Allah!
Əgər olmasaydı qəmin qazancı,
Şadlıq nə xərclərdi, görəsən, Allah!

*«Qəm - şadlıq»*

* * *

Məkan axtarıram zamandan kənar,
...Amma bu diləyim, imandan kənar.

*«Zamandan kənar»*

* * *

Ölü var, diridir min dəfə bizdən,
Ölülər yaşayır yaddaşımızda.
Onlar incikdirsə əməlimizdən,
Ruhları ağlayır göz yaşımızda.

*«Ölülər yaşayır yaddaşımızda»*

* * *

Nağıl dedim yalançının sözünə,
Söz yalansa, buna nağıl neyləsin?
Bu dünyada fəsil dörddür, ağıl bir,
Yazla qışa bircə ağıl neyləsin?

*«Yazla qışa bir ağıl»*

* * *

Azadlıq - şərəfdir hər bir millətə,
Çörək əvəzinə yeyilmir ancaq.
Azadlıq - qanaddır eşqə, niyyətə,
O ki, paltar kimi geyilmir ancaq.

*«Azadlıq»*

* * *

Mən necə qorxmayım xatirələrdən,
Mənim keçmişim var, gələcəyim yox.

*«Mənim keçmişim var, gələcəyim yox»*

* * *

Başqa mayadandır xəmrimiz bizim,
Xeyrimiz eşqinə dağ aşanlarıq.
Biz Vətən uğrunda deyil, əzizim,
Vəzifə uğrunda savaşanlarıq.

...Təbiət qanunu: Sellər yoxuşdan
Dövr edib enişə axır arx kimi.
Amma rüşvət seli aşağılardan,
Yuxarı dövr edər daim çarx kimi.

...Günahdan ayıran varmı savabı?
Dollar təpiyinə dağ silkələndi.
Alimin üzünə bağlanan qapı
Cahilin üzünə açılır indi.

*«Ey insan övladı»*

* * *

Zamanı bildirib ömrü gödəldən,
Saatlar bəzəkli, zaman eybəcər...

*«Bəzəkli saatlar»*

* * *

Azadıq düşmənə qəzəbdən, kindən,
Millət hədəf olub öz nifrətinə.
Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.

*«Əsarət - azadlıq»*

* * *

Kol bilmir ki, ucalan ucaldıqca təklənir.

*«Ucalıqda tənhalıq»*

* * *

İndi möhkəm olub ağac poladdan,
İrəli keçibdir araba atdan.

*«Qorxum ondandır ki...»*

* * *

İndi adamları öldürmür ölüm,
Bəlkə, adamları həyat öldürür.

*«İntihar»*

* * *

Rüşvətin qolları elə güclüdür,
Poladdan olsa da, əyər qanunu.

*«Yol ki, belə gedir»*

* * *

Eşq olmayan ürəkdə hörümçək tor bağlayar.
...Haqsızı yıxmaq üçün haqqa inanmaq gərək.

*«Nə vaxt üzün güləcək?»*

* * *

Ya rəbbim, sən özün kömək ol bizə,
İşıq saç qaranlıq ürəyimizə.
Biz bu var dünyada yaşarkən yoxuq,
Sən yox ikən varsan, biz varkən yoxuq.

...Gəl, bu imtahandan sən qurtar bizi,
Ya rəbbim, ağıl ver, kamal ver bizə.
Çoxdan unutmuşuq düşmənimizi,
Düşmən kəsilmişik bir-birimizə.

*«İbadət»*

* * *

Məkanca öz halal vətənimdəyəm,
Zamanca qəribəm, qəribəm, ancaq.

*«Qəribəm»*

* * *

Dəyişməyən bir şey varsa bu dünyada,
O da yalnız dəyişmədir.

*«Dəyişmələr»*

* * *

Zülmün məhvərinə dolanır zaman,
Göydəki buludlar insan ahıdır.
Göydə aramasın Allahı insan,
Hər kəsin vicdanı öz Allahıdır.

*«Vicdan xəstəsiyik»*

* * *

İşıq sürətindən min dəfə tezlik!
Sevmək - məsafədə məsafəsizlik!

*«Məsafədə məsafəsizlik»*

* * *

Gerçək olan yerdə bir də «bəlkə» var,
İşıq olan yerdə mütləq kölgə var.
Amma nur üstünə nur kölgə salmaz,
Sevgili qocalar, sevgi qocalmaz.

*«Sevgi qocalmaz»*

* * *

Sönmüş o həvəs, köhnə diləklər unudulmuş,
Hicran niyə bəs indi vüsaldan şirin olmuş?

*«Eşqin odu...»*

* * *

Artıq çox uzağıq qəzəbdən, kindən,
Biz öz dünyamızda dünya yaratdıq.
Ağılla hisslərin birləşməsindən
Sevgi dünyasında zirvəyə çatdıq.

*«Zirvəyə çatdıq»*

* * *

Üz-üzə baxanda üzünü gördüm,
Özünü görürəm ayrılıq dəmi.

*«Üz başqa, öz başqa»*

* * *

Mən hardan biləydim, mən nə biləydim,
Eşqin getməsidir ağlın gəlməsi!

*«Nağılım gəlsin»*

* * *

Biri-birimizə haqq-hesab verək
Boyasız, riyasız könül səsiylə.
Bu gün mənim sevgim ölçülsün gərək
Sənin dözümünün dərəcəsiylə.

*«Seçək tükdən tükü»*

* * *

Bəzən geri çəkilsə də şər, ölməz,
Əsl gerçək sınar, amma əyilməz.
Hər həqiqət hər məqamda deyilməz,
Yalan da var, həqiqətdən yuxarı.

*«Yuxarı»*

* * *

Kim ki, öz haqqını zordan istəmiş -
Qapıdan qovulub, şapalaq yemiş.
Heç demə, ən böyük haqsızlıq imiş
Haqqını istəyən millətin haqqı.

*«Haqqı»*

* * *

Dövrəmdə dərd uçur belədən-belə,
Qəm-qüssə batmandır, şadlıq - bir gilə.
Özüm də bilmirəm, bilmirəm hələ
Mən qəmi sevirəm, yoxsa, qəm məni.

...Harda kədər varsa, orda varam mən,
Sevinci bilmişəm qəlbə haram mən.
Sonsuz kədərimlə Bəxtiyaram mən,
Qəmimlə tanıyır bu aləm məni.

*«Bu aləm məni»*

* * *

Uyuruqsa nəfs adlanan elçiyə,
Tüpürürük vicdan kəsən ölçüyə.
Odur verən düz qiyməti hər şeyə
Vicdanından qorxmayandan qorxuram.

*«Qorxuram»*

* * *

...Namərdin əlindən qaçmaq man deyil,
Dərd budur: namərd yox, mərd qovur məni.

*«Dərd qovur məni»*

* * *

Yüz yollu yüz nəfər kütlədir, ancaq
Bir yollu beş nəfər qüvvədir, ancaq.
Yüz sözlü məmləkət ölkədir, ancaq
Bir sözlü məmləkət vətəndi xalqa.

*«Xalqa»*

* * *

Nadan atın belindədir,
Haqq haqsızın əlindədir.
Gör, dünyamız nə gündədir,
Qanan qanmaza borcludur.

*«Borcludur»*

* * *

Qiymətlər ki, quduzlaşır,
Hər şey bazarla uzlaşır.
Həyatımız ucuzlaşır,
Dəyərindən düşəndə söz.

*«Söz»*

* * *

Sevinc dağına çıxsan
Sanma dərddən uzaqsan.
Bir gün ağlayacaqsan
Gülə bildiyin qədər.

*«Bilə bildiyin qədər»*

* * *

Hər görüşdən bir intizar,
Hər sevincdən bir qəm doğar.
Hər sükutda bir haray var,
Harayda sükut gizlidir.

*«Gizlidir»*

* * *

Qəhr edilsə imanın,
Nə günahı zamanın?
İndi nə var, insanın
Ləyaqətindən ucuz?

*«Ucuz»*

* * *

Mən aranda dağ istədim,
Zil qaranı ağ istədim.
Zamandan qaçmaq istədim
Zaman mənim içimdədir.

*«Zaman mənim içimdədir.»*

* * *

Biri gülər, biri ağlar
Sən ağlayan bəndəyə bax.

...Yalan elə gəliş gəldi,
Həqiqət geri çəkildi.
Atam ancaq saya bildi
Anam kəsən kündəyə bax.

*«Bax»*

* * *

Qana həris zəlilər
Sorduğunu az bilər.
Belə getsə, ölülər
Mürdəşiri yuyacaq.

*«Belə getsə»*

* * *

Davanı yatırdanın
Özü sonra xar olur.
Murdarı pak eyləyən
Pak özü murdar olur.

*«Olur»*

* * *

Mən özgəyəm başqasına
Sən məni özümdə sına.
Naşı özgə yuvasına
Yad toyuğu kürt gətirər.

...Vay o günə, yaxşı pisə
El malını qurban desə.
Hürməyini bilmədisə,
İt obaya qurd gətirər.

*«Gətirər»*

* * *

Ömürdə iki məqam:
Bir səhər var, bir axşam.

*«Çiydim»*

* * *

Üyünür ömr adlı dənin,
Bəs hardadır üyüdənin?
Göydə ulduz kəşf edənin
Yerdə kiçik daxması yox.

*«Yox»*

* * *

Aldanıb nağıllara
Uyma ölümsüzlüyə.
Ölüm yaşamalıdır,
Həyat yaşasın deyə.

*«Həyat yaşasın deyə»*

* * *

Azadlıq ağacı bar verə bilməz
Şəhidlər qanıyla suvarılmasa.
...Çayın altındakı torpaq birdisə,
O tayı bu taydan ayırmaq olmaz.
...Köksünə dağ üstdən dağ çəkilən xalq
Bir gün dağ çəkəcək dağın köksünə.

*«İstiqlal»*

* * *

Ağıla güvənək bu məqamda biz,
Qüvvə daşı əzər, ağıl qüvvəni.

...Bir yerdə otlayar quzu qurd ilə
İnsan həqiqəti haqq bilən zaman -

*«Şəhidlər»*

* * *

Tükənmək bilməyir ah-amanım da,
Nə qədər çəkirəm, dərdim gödəlmir.
Nəyi gözləmirəm, bitir yanımda,
Amma gözlədiyim gəlmir ki, gəlmir.

*«Hər gün - bir addım»*

* * *

Özüylə savaşı nə bilsin naşı?
Daim savaşdadır aqil özüylə.
Dostun pis işini üzünə qarşı,
Yaxşı işlərini ardınca söylə.

* * *

Bu günlə üzbəüz oturanda da
Sabaha dikmişəm gözümü ancaq.
Başqa könüllərə baş vuranda da
Özümü yazmışam, özümü ancaq.

*«Özümü yazmışam»*

* * *

Tükənmir, əksinə, arzularımız
Çoxalır günbəgün, artır ilbəil.
Zülm etmək günahdır, dünyada yalnız
Tamaha zülm etmək günahdan deyil.

*«Tamah»*

* * *

Vətənə pərəstiş vicdandan gəlir
Vətənin taleyi qayəmdir mənim.
Vətən məhəbbəti imandan gəlir
Bu iman, bu inam ayəmdir mənim.

*2003*

* * *

– Qarabağ naləsi düşmür dilindən.
Bu dərdi deməkdən yorulmadın sən?
– Gəl məni qınama, bu ki, qaydadır
Haran ağrıyırsa, canın ordadır.

*2003*

* * *

Tanıtma özünü sən sözlərinlə
İş işlə görülər, sözlə görülməz.
«Boz» sözü ağ rənglə yazılsa belə,
Onun mənasını dəyişə bilməz.

*2004*

# ƏSƏRLƏRİ, VII CİLD

* * *

Gəldiyim dünyanı anlamadım mən,
Nə gecəm bəllidir, nə də gündüzüm.
Dünyanı apaydın görən gözümdən
Daha yaxşı görür bəsirət gözüm.
O gözlə baxanda ucalır ürək,
Duyğum gözə dönür, gözüm duyğuya.
O gözlə baxanda əsəb teli tək
Gərilib dönürəm özüm duyğuya.
Görünən dünyadan daha çox, dərin,
Görünür gözümə görmədiklərim.

*"Qəribəliklər"*

* * *

Sonradan seçirik dostdan düşməni,
Ağlımız yuxuda, gözümüz bağlı.
- Kaş, mənim olaydı, - dedi erməni,
Bədbəxt müsəlmanın sonrakı ağlı.
Niyə bu kəlamdan biz məmnun olduq?
Oyanmaq - yatmağın ziddi, tərsidir.
Sonradan oyanan ağıl, ağıl yox,
Dünyanın verdiyi ibrət dərsidir.

*"Mərasim"*

* * *

İtirirəm özümü xoş dəmlərin içində,
Mən tapıram özümü ələmlərin içində.
Qarğa qoz ağacında "qa-qa" deyib sevinir
Budaqdakı yeminə.
Bülbülsə cəh-cəh vurub ahəng tutur içində
Nalə çəkən qəminə.
Halım, günüm, ovqatım dəyişdikcə dəmbədəm,
Dəm çəkəndə qarğayam, qəm çəkəndə bülbüləm.
Bülbülün öz cəh-cəhi, qarğanın "qa-qa" səsi
Qəm çəkəndə özüməm, dəm çəkəndə özgəsi.
Min ildir, milyon ildir
Qəm ürəyi ucaldır, dəm ürəyi kiçildir.

*"Cisim deyil,ruham mən"*

* * *

Bir tərəf beşikdir, bir tərəf məzar,
Arada ömrümün yolu... bir də mən.
Məzardan o yana bilmirik nə var,
Məzardan bu yanı taledir bilən.

Gələnin, gedənin bu təmənnaya
Öncə öz ricası, öz rizası yox.
Gələnin, gedənin iki dünyaya
Dünyaya gəlməmiş iddiası yox.

Gəlirik, gedirik, nə hüdud, nə hədd,
Gəlirik nə üçün, niyə bilmədən.
Nə imiş ən ali, ən uca məqsəd
Yoxluqdan varlığa gətirilmədən?

*"Səni dərk etməyə"*

* * *

Oğul istəyirəm, şərafət bilə
Xalqın şərəfini, ləyaqətini.
Özünə ən böyük səadət bilə
Bu böyük millətin səadətini.
Oğul istəyirəm, "məqsədim" deyə
Kürsünü özünə amal bilməyə.

*"Oğul istəyirəm"*

* * *

Ürəyin ən dərin guşəsindədir
Ən nadir, ən qadir hikmətli sözlər.
Görünən dənizlər, dəryalar nədir,
Hər kəsin qəlbidir dərin dənizlər.
Dalğıcam, dalıram içimə hər gün,
Nadir söz gəzirəm şeirlərimçün.

Dəryanın təkini qəvvaslar bilər,
Mənimçün ölüdür tufansız dəniz.
Siz ey limanlarda yatan gəmilər,
Açıq dənizlərdir sizin yeriniz.

*"Siz ey limanlarda yatan gəmilər"*

* * *

Xəyal dəryasında üzdüm sərasər,
Amma üzülmədim torpaqdan bir an.
Xəyalda boğular xəyalpərəstlər,
Qüdrətli olmasa xəyallarından.

Xəyal - sabahına bir yoldur sənin.
Sabah - gələcəyə bu dündən uçuş.
Özündən qaçışdır yolu özgənin,
Özünə dönüşdür özündən uçuş.

*"Özunə dönüş"*

* * *

Yaxşını kənarda axtarırıq biz,
Fərqini bilmirik boşla dolunun.
Savaş meydanından əkilməyimiz
Adına yazılıb Qoç Koroğlunun:
"İgidlik on imiş, doqquzu qaçmaq".
Bizim kimliyimiz bu imiş ancaq?

Özünü kiçiltmək burdandı bizdə?
Nədir özümüzə bu şər, bu böhtan?
Bizim aşağılıq düşüncəmizdə
"Öküz olmaz imiş ev danasından".

Dərədən zirvəni gör, deyim əhsən,
Bax, buna deyərlər ərlik, ərənlik.
Bu günün gözüylə dünənə baxsan,
Keçmişə qiymətdə yanılacaqsan.
Şər ilə xeyirin arasındasan,
Birinin ilkidir, birinin sonu.
Bədbəxtlik içində anlayır insan,
Kim idi, indisə kim olduğunu.

*"Xoşbəxtlik - bədbəxtlik"*

* * *

Zaman dəyişərmiş zaman içində,
Dünən rədd etdiyin bu gün doğrulur.
Xoşbəxtlik özü də bir an içində
Dönüb, xoşbəxt üçün bədbəxtlik olur.

Xoşbəxtin qəlbindən qaçaqdır ələm,
Heç nəyin hesabı, haqqı sorulmaz.
Deyərdim, indi ki belə qadirəm,
Yaman gün bir daha qismətim olmaz.

Bükdü belimi də bədbəxtlik daşı,
Təklik - bədbəxtliyin əkiz qardaşı.

*"Xoşbəxtlik - bədbəxtlik"*

* * *

Mənim ana dilim - mənim kimliyim,
Pasportum, özümə öz hakimliyim.
Mənim mənliyimin füsunkarlığı,
Danışan kamalı, ağlıdır dilim.
Millətin varlığı, yurdun varlığı
Sənin varlığına bağlıdır, dilim.

Məni həm babamla, həm də nəvəmlə
Bağlayıb, uzanan tarix bağımsan.
Dünənim, sabahım, üstəlik hələ
Mənim söz hünərim, səs bayrağımsan.

Fərqini bilməyib ağdan qaranın,
Gədalar bu dili yad sayar bu gün.
Dədəsi bu dildə cəbhə yaranın
Özü özgə dildə banlayar bu gün.

*"Mənim ana dilim"*

* * *

Görünən dünyaya aldanırıq biz,
Fərəh nəqddədir, dərd-qəm nisyədə.
Yox, dəyişə bilmir özünü insan,
Nəfsimiz güclüdür imanımızdan.

*"Nəfs - İman"*

* * *

- Günahın varmıdır?
Dedim: - Dünyanın
Əyrisi bir yana, düzü günahdır.
Mayası palçıqsa əgər insanın,
Dünyaya gəlməyin özü günahdır.

*"Günahın varmıdır?"*

* * *

Hərənin öz payı, ey insan, düşün.
O ulu yaradan yaşamaq üçün
Qartala iti göz, pələngə pəncə,
Şirə qüvvət verib, bizə düşüncə.

*"Hərənin öz payı"*

* * *

Varmı elə qapı ola büsbütün
Döyənin üzünə həmişə bağlı?
Özündən daha çox başqalarıyçün
Daha düz işləyir düzlərin ağlı.

*"Məsləhət"*

* * *

Mən dedim, o dedi...
Birdən qızışdı,
Qaydanı, nizamı, sərhədi aşdı.
Gördüm, ən adicə bir həqiqəti
O, gözgörəsinə bəyənmir, danır.
Pisliklə yoğrulub onun xisləti,
Açıq-açığına haqqa qısqanır.

Bu haqq düşməninə tutub üzümü,
Dedim gülə-gülə axır sözümü:
- Bilmədin, anlatdım, bilmədin yenə,
Barı, düşmən olma bilmədiyinə.

*"Barı, düşmən olma"*

* * *

Dilini bilmədiyim quşları dinləyəndə,
Gözlərə görünməyən küləklər inləyəndə,
Yuxumda öz inancım məni məndən soranda,
Hissim, fəhmim, gümanım mənə başqa dünyadan
Bir şeir yazdıranda,
Qəlbim gizildəyəndə bir yanıqlı nəğmədən
Gözə görünməyəni görür, qulaqlarımla
Eşidilməz olanı eşidirəm mən, nədən?
Əsl gerçək budur ki, burda dayan, burda dur!
İnsan insanlığında
Cisminə yox, ağlına və ruhuna borcludur.

*"Burda dayan, burda dur"*

* * *

Tamah ürəklərdən çalıb mürvəti,
Nəfsə haqq paltarı geyindirirlər.
Taleyin əlindən alıb qisməti,
Taleyin özünə tale verirlər.

Tükənmir, əksinə, arzularımız
Çoxalır günbəgün, artır ilbəil.
Zülm etmək günahdır, dünyada yalnız
Tamaha zülm etmək günahdan deyil.

Vətən oğlu mənliyini unudursa,
Mən koramsa, sən korsansa, o da korsa,
Demək, bizim bu məmləkət
Qaranlıqdır başdan-başa.

Biganəlik korluğumuz,
qardaş sevgi torpağından gül göyərər,
Biganəlik torpağından kol göyərər.
Biganəlik - ən dəhşətli
Mərəzidir bu millətin.
Bu da başqa bir üzüdür cəhalətin.

*"Biganəlik - korlugümüz"*

* * *

Mənəvi sərvətdir hər kəlmə, hər söz.
Namusla xəyanət durub üz-üzə.
Xalqın yaratdığı dilə təcavüz
Ən pis təcavüzdür qeyrətimizə.

*"Təcavüz"*

* * *

Niyə zəngin olur əliaçıqlar?
Səxavət bircəni döndərir minə.
Pul böyük nemətdir, bircə şərti var:
Pulu cibinə qoy, qoyma qəlbinə

*"Niyə"*

* * *

Körpə beşiyində qəsdsiz, qərəzsiz,
Kindən, küdurətdən uzaq, tər-təmiz.
Ana üçün belə anlaşılmayan
Yalnız mələklərə gizli qalmayan
Bir dillə qığıldar... De, nədir bu dil?
Bəlkə, mələklərin dilidir bu dil?

*"Mələklərin dili"*

* * *

İnam çeşməyiylə baxırkən birim
On ildir, çoxalır xeyrim şərimdən.
Allahım, gözümlə görmədiklərim
Gerçəkdir gözümlə gördüklərimdən.

*"Gözümlə görmədiklərim"*

* * *

Xəyal, sükut, məhəbbət - şərəf yolum,
şan yolum,
Bir çərçivə içində hansısa bir həddədir.
Sükutun fəryadını eşidənlər, duyanlar
Sonsuz ibadətdədir.

*"Sükut, xəyal, məhəbbət"*

* * *

Bədbəxtlik - ürəyə çarpaz dağ çəkən
Təkliyin zamanla əkiz qardaşı.
Təklik - könül sıxan, təklik - bel bükən,
Dünyanın ən böyük, ən ağır daşı.

*"Ən ağır daş"*

* * *

Sən azdın yolunu, itirdin yönü,
Nəfsinin ağzına verdin könlünü.
Dilənçi körpənin gözünə baxsan,
Azdığın yolunu sən tapacaqsan.

*"Bizim sabahımız - körpələr"*

* * *

Bilib, bir mətləbi dərk elədim mən:
Bilmək dərd calayır dərdimə hər dəm.
Bilənlər dünyada bir şeyi bilmiş:
Bilməmək bilməkdən daha gözəlmiş.

*"Bilməmək"*

* * *

Necə də puç oldu şirin xəyallar,
Dünya qan ağlayır, zaman hönkürür.
Gözümü yummağın nə mənası var,
Gözümü yumsam da, ürəyim görür.

*"Gözümü yıımsam da..."*

* * *

Dünya qəmlə yoğrulub,
Qəm - dünyanın yaşdaşı.
Qəm mənim sirdaşımdır.
Ya mən qəmin sirdaşı?

*"Qəm özü tapır məni"*

* * *

Qəmim - sevinc qaynağım,
Dərdim - könül sirdaşım.
Axır damarlarımdan
Qan yerinə göz yaşım.

Dərd məni tək qoyanda
Qonşudan dilənmişəm.
Qundağa bələnmədim,
Dərdimə bələnmişəm.

*"Qəm özü tapır məni"*

* * *

Demə, insaf, mərhəmət
Haqq yoluna sədd imiş.
Rəhm - yarı ədalət,
Yarı cinayət imiş.

*"Qafiləmmiş heç demə"*

* * *

Həyat özü yoxdan yoxa bir yol imiş,
Əvvəli də məchul imiş,
Axırı da məchül imiş.
Tutub getdim qədər verən öz yolumu
Bunu bildim: Aça bilməz
İki məchul bir məlumu.

*"İki məchul bir məlumu"*

* * *

Axtarar gecədə gündüzü insan,
Çox zaman qədəri qədərdə görmür.
Bu da tarazlığın bir üzü, insan
İki xoşbəxtliyi bir yerdə görmür.

*"Peşman olmayaq"*

* * *

Görünməz dünyanı yox sayan ey dost,
Aləmi duyğunla, fəhminlə dinlə.
Yalnız gözlərinə inanan ey dost,
Demək düşünürsən sən gözlərinlə.

*"Gözlə görə bilmədiyinə*
*inanmayan dosta cavab"*

* * *

Nəhayətdə anladım:
Həqiqət haqdan keçir.
Röyaları gerçəyə
Çevirməyin tək yolu
Oyaq qalmaqdan keçir.

*"Oyaqlıq"*

* * *

Can gözün var isə, uyma dövrana,
Uysan, zamana da "dur" deyəcəksən.
Can gözün yox isə, mən də bir yana
Sən heç özünü də görməyəcəksən.

*"Çuxur"*

* * *

Daim maraqdadır, məqam gözləyər
Əlindən buraxmaz bir ovu yaltaq.
Təpəyə dağ deyər, gülə kol deyər
Tutduğu məqamın girovu yaltaq.

Öz doğma yurdunda soyulduğunu
Nə qədər istəsən danış, nə fayda?
Hansı şikayətin, gileyin sonu
Xoşbəxtlik gətirib sənə dünyada?
Biz əsl azadlıq bilirik nədir
Yaşamır, yaşayan can güdə-güdə.
Vallah, azad deyil, əsarətdədir
Doğru da, oğru da, əyri-üyrü də.

*"Xəyal qırıqlığı"*

* * *

Məşqdə hədəfə düzgün vuranın
Döyüşdən əvvəl də zəfəri bəlli.
Dostuyla düşməni qarışdıranın
Nə xeyri bəllidir, nə şəri bəlli.

*"Bir şeyi - əcibiz"*

* * *

Bu da bu günlərin "Ölü canları",
İstiqlal dövrünün qəhrəmanları.
Bu, gödən güdənlər, bu qibləsizlər,
Bizdən utanmayan bu üzsüz üzlər
Məgər utanmırmı öz özlərindən?
Bax buna, bax buna məəttələm mən.
Yanıldım,
özündən utanmayan kəs
Başqa birisindən utana bilməz.

*"Qibləsizlik"*

* * *

Sualı gözləmə, susduğun yetər
Qəlbinə gələni məndən öncə de.
Pis sözü hər kəsin üzünə qənşər,
Xoş sözü gedənin arxasınca de.

*“Sualı gözləmə”*

* * *

Sözlə işin bir kəlmədə ifadəsi!
Düzgünlüyün, həqiqətin, haqqın səsi!
Ürək dillə birləşəndə
Xarabalıq cənnət olur.
Söz əməllə birləşəndə
Tayfa dönüb millət olur.
Bəxtəvərdir həm xeyrini,
Həm şərini bilən millət
Sözlə əməl arasında
Sərhədləri silən millət.

*“Koto”*

* * *

Sərhəddəyik,
Nə irəli yol bəllidir,
nə də geri.
O zaman ki, bu dünyanı tərk edirik,
Bu dünyanın yalnız yuxu olduğunu
O dünyada dərk edirik.

*"Yuxu"*

* * *

Ey qoca Türk eli, qalx, ayağa qalx!
Sən daim böyüksən, kiçilmək nədir?
Böyüklük - kiməsə bənzəməkdə yox,
Böyüklük - mənəvi böyüklükdədir.

*"Avropa birliyi"*

* * *

Bu günə güvənmə, öndə sabah var,
Yamanca dönükdür zamanın üzü,
Tarixin küncünə süpürüb atar
Ayaq izlərini vaxtın öz sözü.

*"Öndə sabah var"*

* * *

Uşağın verdiyi min-min suallar
Bu diri dünyanı bilmək üçündü.
Qocanın verdiyi dərin suallar
O biri dünyanı bilmək üçündü.

*"Sual işarəsi"*

* * *

Uşaq suallarla aşdımı həddən?
Sualdır hər günün, hər anın özü.
Yalnız bizimçünmü?
Əzəl - əbəddən
Sualla başlanıb dünyanın, özü.
Sualla başlanıb dünya, bu haqdır,
Amma nida ilə qurtaracaqdır.

Elə ki, yetişdi ömrün yay çağı,
Bu dünya onunçün bir cənnət bağı.
Ömrün yay çağında o, cürətlidir,
Özünü hər işdə ancaq tək sanır.

Ömrün yay çağında qorxu-hürküsüz
Həyatı bilməyə yetərincədir.

*"Sual işarəsi"*

* * *

Ömrün yay çağında öz qüdrətini
Bilib o, özünü ölümsüz sayır.
Göstərib gücünü, şücaətini,
Bəzən ölüm ilə oyun oynayır.

Elə ki, ömrün
Gedir payız fəsli, gəlir qış fəsli,
Əyilir bədəni, bükülür beli.
Yerimir, elə bil, yerdə sürünür,
Vücudu bənzəyir əyri suala.
Ona xəndək kimi dərin görünür
Yolda rast gəldiyi hər çuxur-çala.

Bir ömür yaşayıb çox bilən qoca,
Özü bir suala çevrilən qoca.
İndi heç kəsə yox, özünə verir
Uşaqkən verdiyi min bir sualı,
Uşağa bənzəyir onun bu halı.

*"Sual işarəsi"*

* * *

Nə Bethoven, nə Şopen, nə Üzeyir, nə Qara?
İndi qar yox, daş yağıb onlar açan yollara.
Fikrət getsin işinə, Səid getsin işinə,
Olanlar artıq uyuşmur zamanın gərdişinə.
Rəqs ilə mahnının uçuldu sərhədləri,
Kaman keçdi arxaya, dümbək keçdi irəli.

İndi bizim nəğməmiz hoppanıb-düşmək olmuş,
Qalxdığımız zirvədən yerə sürüşmək olmuş.
Hoppan, gözünə dönüm, tullan, gözünə dönüm,
Elə hoppan ki, qoyma bir an duyum, düşünüm.
Hoppanıb-düşmək sənin öz eşqin, həvəsindir,
Baş yerinə ayağın işləyərsə, bəsindir.

*"Ruhumuzu kol basıb"*

* * *

Xoşbəxtlik – yoxluqda anladım ki, mən,
Azad olmaq imiş özün özündən.
Özündən qurtarıb, dedim, bir kərə,
Allah, qaytar məni gəldiyim yerə.

*"Qaytar məni"*

* * *

Özünü insan sayan, özünə hörmət qoyan,
Rəva bilməz özünə bu eybəcər oyunu.
Lüt-üryan oynamaqla paltarını yox, bala,
Soyunmusan soyunu.
Susuruq, özümüzə, demək, etinasızıq!
Susuruqsa xəstəyik, biz mənəvi nasazıq.
Mən sənə etinasız, sən mənə etinasız,
İkimiz də oluruq düşmənə etinasız.

Dözürüksə bunlara, demək, biz, biz deyilik,
Öz ulu cəddimizə sadiq, əvəz deyilik.
Dünənimizdən gələn o yolları sel basıb,
Çiçəkli ruhumuzu alaq basıb, kol kasıb.

*"Ruhumuzu kol basıb"*

* * *

Ömür - bir dağ yoxuşu,
Yoracaq qalxmaq səni,
Özün istəməsən də,
Əyəcək o dağ səni.

Qismət olmur hər kəsə,
Şərəfli bir qocalıq.
Ucalığın önündə,
Alçalmaq da ucalıq.

*"Ömür bir dağ yoxuşu"*

* * *

Üzünü gördükmü dövr edən qanın,
İlkindən bu yana ötən zamanın?
Əməli görünər, amma özü yox
Səsi yox, izi yox, görüntüsü yox.

*"Gəlməyin neçinmiş"*

* * *

Dünya alır öz nurunu daim ulularдan,
Hər xalq və cəmiyyət ulu şəxsiyyətə möhtac.

Əvvəlcə dilək, sonra xəyal, sonra əməllər,
Ən üstün əməl öncə böyük niyyətə möhtac.

*"Hürriyyətə möhtac"*

* * *

Ruhu pərvazlanacaq nəfsimə zülm eyləyənin,
Ruha qulluq eləmək, hər kəsə cənnət yoludur.

İçimizdən göyərir qol-qola şeytanla mələk,
Xeyrimiz, həm şərimiz hər kəsin öz sağ - soludur.

Kola lənət demədən kolda bitən gülləri gör,
Yaxşı bax, yaxşı əməllərlə bu aləm doludur.

*"Elə haqq var ki..."*

* * *

Vaxtdır hər köhnəyə təzə rəng vuran,
Bir yandan uçurub, bir yandan quran.
Əslində, eynidir, zamandır duran
Dublyonka ilə kürk arasında.

Dünən uyuyanlar bu gün oyanmış
Gördüyü yuxunu həqiqət sanmış.
Babanla atanın yaşı dayanmış
Motal papaq ilə börk arasında.

Dünya da bölünür gecə-gündüzə,
Yalana, gerçəyə, əyriyə, düzə.
Ən böyük həqiqət açılır bizə
Görüb duymaq ilə dərk arasında.

*"Sən dedin, mən dedim"*

* * *

Zaman - yalanlara baş əyənlərin,
İnsafa, mürvətə yox deyənlərin,
Haqlının haqqını çeynəyənlərin,
Haqqa, həqiqətə göz yumanındır.

İçində boğular qananın səsi,
Təndirdə küt gedər daim kündəsi.
Qanmaz - bu dünyanın xoşbəxt bəndəsi,
Dünya - gördüyünü qanmayanındır.

Küncə sıxışdırıb indi qış, yayı,
Havaya sovrulur xalqın ah-vayı.
Qaranlıq - işıqçün yananın payı,
İşıqsa - işıqçün yanmayanındır.

*"Bu da bir həqiqət"*

* * *

Ocağın altını, üstünü yox, yox
Közünü çözələ, tüstünü yox, yox.
Dünəni düşüncə bu günü yox, yox,
Bu günü düşüncə dünəni bulmuş.

Beynimdə fikirlər verir səs-səsə
Bu onu rədd edə, o bunu kəsə.
Anlaya bilmirəm zaman keçməsə
Dünən gül bildiyim, bilirəm, kolmuş.

Həm yerə şübhə var, həm göyə şübhə
Varlığa, yoxluğa, heçliyə şübhə.
Ağıl bir şübhədir, hər şeyə şübhə
Şübhə həqiqətə uzanan yolmuş.

*"Ağıl bir şübhədir"*

* * *

Sabahın eşqilə bu günə baxsan,
Ümidin nur olub çağlar gözündə.
Gül ki, dünya sənə cənnət görünsün,
Ağlasan dünya da ağlar gözündə.

Çəkənə dünyada qəm əskik deyil,
Arsıza heç zaman dəm əskik deyil.
Bədbinin gözündən nəm əskik deyil,
Arif göz yaşını saxlar gözündə.

İnama arxalan, özünə güvən
Aşılmaz dağları aşmaq istəsən.
Təpəyə çevrilər yolunu kəsən
Sıldırım qayalar, dağlar gözündə.

*"Gözündə"*

* * *

İsaya çarmıxdır, Musaya çomaq,
Yollara körpüdür, evlərə dayaq.
Yayda kölgə olar, qışda od-ocaq
İnsanın dostudur binədən ağac.

*"Ağac"*

* * *

Bu xalqın ah-vayı göyə dirəkdi,
Bəxtiyar vay dərdi, amma gül əkdi.
Həmişə gözünü sabaha dikdi
İndiysə dünənə dikir, ay Allah.

*"Buna da şükür"*

* * *

Yaman tutulmuşam, sorma nədəndir
Taleyim dadıma yetişən deyil.
Toxunma könlümə, o, şüşədəndir
Sındırsan, bir daha bitişən deyil.

Toxunma könlümə, hər sözün oxdur
Yaman üşüyürəm, mənə soyuqdur.
Bir də isinməyə gümanım yoxdur.
Quzeyə heç zaman gün düşən deyil.

Möhtacam bir kəslə xoş sözə mən də
Nə qədər yuyunum dumanda, çəndə?
Dərədən burulub duman gələndə
Könül dağlarımdan ötüşən deyil.

*"Sındırma könlümü"*

* * *

İdrak yolu - qorxulu,
Gülündən çoxdur kolu.
Gedəcəksən bu yolu
Gələ bildiyin qədər.

Gecə-gündüz çalışmaq,
Qaranlıqda yol açmaq,
Biləcəksən sən ancaq
Elə bildiyin qədər.

Bu dünyanın min donu,
Min rəngi, min oyunu.
Dərk edərsən sən onu
Bilə bildiyin qədər.

*"Bilə bildiyin qədər"*

* * *

Təbiətdən savayı
Hər şey ancaq qurmadır.
Oddan çıxan tüstü də
Düz yox, burma-burmadır.

Bu saxtakar əyrilər
Düzləri çıxdaş bilər.
Hesabda ancaq hünər
Çıxma deyil, vurmadır.

*"Vaxt da bir uydurmadır"*

* * *

Haqq gələndə zülmət qaçar,
Gicitkan da ətir saçar.
Dağ dil açar, daş gül açar,
Əməl vaxta bədəl olsa.

Əl açıb ulu qüdrətə,
Ucalırıq ülviyyətə.
Dünya dönər bir cənnətə,
Sözdən əvvəl əməl olsa.

Bu çarx sağdan sola dönər,
Əyri də düz yola dönər.
Çirkin də gözəl görünər
Düşüncəmiz gözəl olsa.

*"Olsa"*

* * *

Dedin: “Dünya bir tamaşa,
Hər arzumuz gəldi başa”.
Dediklərin başdan-başa
Boş yuxusa, neyləməli?

Səsimiz yox, küyümüz var,
Oxumuz yox, yayımız var.
Dəmə gəlmiş çayımız var,
Qənd yox isə, neyləməli?

Yalanlardan cana doyduq,
Ona uyduq, buna uyduq.
Ət qoxudu, duza qoyduq,
Duz qoxusa, neyləməli?

*“Neyləməli?”*

* * *

Önümüzdə ömür boyu
Bir ümid çırağı yanır.
Ana Həvvanı aldadan
Budaqdan alma sallanır.

Onu danan, bunu danan,
Xəyalına havalanan,
Öz-özünə vurğun olan
Əyrisini doğru sanır.

İlkin, sonun fərqini bil,
Cavanlıq - şirincə nağıl.
Qocalıq - dərincə ağıl,
Coşub-daşmır, amma qanır.

*“Sual”*

* * *

Gerçəyin günahı nə?
Həsrət qalıb xoş günə.
Yanan odun üstünə
Çəkilən boz külüdü.

"Əhsən" deyirlər yenə
Müdam yalan deyənə.
Haqqını istəyənə
Hamı deyir "dəlidi".

*"Hamı deyir dəlidi"*

* * *

Dünya baxmır Allaha,
Bizi güldürmür daha.
Dərd ucuz, sevinc baha
Bu alverdə çaşmışıq.

*"Yadlaşma"*

* * *

Yay gəlməmiş əlbəəl,
İstiyə qızınma gəl.
Qoyun-quzudan əvvəl
Otu, yaylağı göstər.

Demə sən bir, mən beşəm,
Vaxtdan dərs götürmüşəm.
Quduz iti görmüşəm,
Mənə çomağı göstər.

Çirkab atıb quyuya,
Böhtan demə sən suya.
Vura bilən ovçuya
Ovu yox, dağı göstər.

*"Ovu yox, dağı göstər"*

* * *

El təkləri cüt istədi,
"Tək əldən səs çıxmaz" - dedi.
"Bulud təksə, çaxmaz" - dedi,
Amma cüt də təkdən keçir.

Gedişi var hər gəlişin,
Enməsi var yüksəlişin.
Yolundakı hər enişin
Bir yoxuşdan, dikdən keçir.

Zamana bax, yönünü gör,
Birinə bax, onunu gör.
İlkinə bax, sonunu gör
Son, ilkə dönməkdən keçir.

*"Gedişi var hər gəlişin"*

* * *

Qəlbinə baş vurmasa,
İnsan ucalmaz, oğul.
Səhvini görmək qədər
Mərifət olmaz, oğul.

Vaxt tapmadıq Tanrıdan,
Doğru yolu sormağa.
Zamanın əllərilə
Baş da keçdi qarmağa.

Xoşdusa ilk arzular,
Sonrası gülşən olar.
Dağda bulanmış sular
Bağda durulmaz, oğul.

Sübhümüz-axşam çağı,
İtirmişik sol, sağı.
Biz enirik aşağı
Dırmandıqca bu dağa.

"El" deyə candan keçən,
Qəsdini ölçüb-biçən,
Əyri yolu düz keçən
Yolda yorulmaz, oğul.

*"Oğul"*

* * *

Vaxt tapmadıq Tanrıdan,
Doğru yolu sormağa.
Zamanın əllərilə
Baş da keçdi qarmağa.

Sübhümüz-axşam çağı,
İtirmişik sol, sağı.
Biz enirik aşağı
Dırmandıqca bu dağa.

Taleyimə fal açdım,
Öz-özümlə dalaşdım.
Bir gerçəyə yol açdım,
Olum vaxta sadağa.

*“Özümü qurtarmağa”*

* * *

Ölən arzu, diləklərin
Ürəkdə yüz layı qalmış.
Dünənindən qopanların
Hayı getmiş, vayı qalmış.

Çox düşündüm, xeyir-şərin
Sonucunu dərin-dərin.
“Haydı”, - deyən igidlərin
Kökdən gələn hayı qalmış.

Qədər atlı, sən piyada
Allah yetişsin imdada.
Bəxtsizlərin bu dünyada
Yalnız ümid payı qalmış.

*“Ümidini itirənin”*

* * *

Yalanı müdam öyənin,
Qaraya bəyaz deyənin,
Həqiqəti görməyənin
Allahı dindən aşağı.

Ən ali xilqət-insanın
Haqqı özündən aşağı.
Ləyaqətsiz bir gədanın
Başı dizindən aşağı.

Adı qalıb ədalətin,
Yalan-asan, doğru-çətin.
Qibləsiz bir məmləkətin
Dağı düzündən aşağı.

Əyriyə doğru deyənin,
Düzə könül verməyənin,
Haqq beyninə girməyənin
Dərisi göndən aşağı.

*"Aşağı"*

* * *

Göz ucuyla baxma mənə
Könül min gümana düşər.
Hilal əsl ay olsa da,
İşığı bir yana düşər.

Zamandan dərs götürməsən
Nə biləsən kimsən, nəsən.
Dünən bu günü görməsən
Sabahın Amana düşər.

Qan - dedi Allah duası
Hər kəlməsi, hər nidası.
Qanmazın cövrü-cəfası
Bəs niyə qanana düşər?

*"Düşər"*

* * *

Ölümdən aman, Aman!
Elçisi - axan Zaman!
Ölüm ilə təmasdan
Daha böyük zülüm yox.

*"Bilim yox"*

* * *

Dünən əkdiklərini
Vaxt keçər, əkən biçər.
Gül əkən - bir gülüstan,
Kol əkən tikan biçər.

Dayanıbdır üzbəüz
Doğru-yalan, əyri-düz.
Sevinc əkən gülər üz,
Dərd əkən aman biçər.

Zülmət əkən-qaranlıq,
Zülm əkən-yamanlıq,
Yol çəkən-fıravanlıq,
Yel əkən tufan biçər.

*"Biçər"*

* * *

Dəyişkən hallarım var,
Mir bir xəyallarım var.
Elə suallarım var,
Cavabına çözüm yox.

Könül, mənim yerimə
Sən ağla, sən kirimə.
Mənim çəkdiklərimə
Bəs deməyə sözüm yox.

Sinəmdəki bu dağa
Özüm oldum sadağa.
Allaha yalvarmağa
Daha mənim üzüm yox.

*"Çözüm yox"*

* * *

Dünən qəlbə çəkilən dağ
Zaman keçmiş, unudulmuş.
Zalım məzlumun önündə
Geci-tezi zəlil olmuş.

Zalimlərin günahı var,
Məzlumların min ahı var.
Haqq adlanan pənahı var
O haqqla da haqqı bulmuş.

Axdıq, axdıq durulmadıq,
El dərdinə yad olmadıq.
Ah çəkməkdən yorulmadıq
Ah-Allaha gedən yolmuş.

*"Ah!"*

* * *

Girib öz qanına hamı qul təki,
Açılan əllər də haqdan kəsilmiş.
Tamah bıçağıyla içimizdəki
Qeyrət damarımız çoxdan kəsilmiş.

*"Tamah", s. 54*

* * *

Əyri yolu düz yeri,
Hər mətləbin öz yeri.
Qəlbindəki sözləri,
Söyləməmiş, ələk ol.

Tamahına qul olma,
Hər mətləbə yol olma.
Qandıran ağıl olma,
Qanan, yanan ürək ol.

Gül-çiçək sovrulunca
Hardan bitdi bu yonca?
Varlıya dost olunca,
Bir yoxsula kömək ol.

*"Əyri yolu düz yeri"*

# “AĞ ATLI OĞLAN” KİTABINDAN

* * *

Əzab güc gəldikcə, dərd ögeyləşir,
Iztirab ürəyi incitmir daha.
Ağrı çoxaldıqca, bədən keyləşir,
İnsan ağrısını hiss etmir daha.

*“Ağrı çoxaldıqca”*

* * *

Bu günün gözüylə dünənə baxsan,
Keçmişə qiymətdə yanılacaqsan.

*“Qaç, at basdı”*

* * *

Necə qovub keçir indi il, ili,
Yoxdur umacağım vaxtdan bir gilə.
Dəyişib elə bil dünyanın dili,
Dil tapa bilmirəm mən dünya ilə.

*"Elə yalqızam ki..."*

* * *

Tükənmək bilməyir ah-amanım da,
Nə qədər çəkirəm, dərdim gödəlmir.
Nəyi gözləmirəm, bitir yanımda,
Amma gözlədiyim gəlmir ki, gəlmir.

*"Hər gün - bir addım"*

* * *

Küncə sıxışdırıb indi qış, yayı,
Havaya sovrulur xalqın ah-vayı.
Qaranlıq - işıqçün yananın payı,
İşıqsa - işıqçün yanmayanındır.

*"Bu da bir həqiqət"*

* * *

Xoş günə həsrət olduq,
Anladım, qismətdə yox.
Məkanca qürbətdə yox,
Zamanca qürbətdəyəm.

*"Zamanca qürbətdə"*

* * *

Əhsən dedim, min əhsən
Ayrılmayıb kökündən,
Gələcəyi bu gündən
Görə bilən oğula.

*"Ağıla sərhəd"*

* * *

Gör məni Allahım necə yaratmış –
Zülmətdə oyağam, işıqda yatmış.

*"Bir canın içində...."*

# «FƏRYAD» PYESİNDƏN

***(son şəkil)***

Əlacım qalmadı dözümdən özgə,
Düşmənim özüməm, özümdən özgə
İndi qorxmalıyam de kimdən daha?

# «AĞIL BAŞQA, ÜRƏK BAŞQA» KİTABINDAN

* * *

Əzizim dərdə mərdim,
Düşməsin dərdə mərdim.
Mənə dərman neyləsin?
Tifilkən dərd əmərdim.

Bayatılar! Sözə ənbər qatılar,
Damarımda nəbz kimi atılar.
Bayatının atəşindən, odundan
Ürəyimdə neçə tonqal çatılar.

*Bayatılar, s. 71*

* * *

Axı, göz yaşları yol yoldaşıdır hər sevənin,
Dəli sevdada gülüşmək nə demək? Çox məzəli.
Sevənin ömrü qəhərsiz ötə bilməz, bilirəm,
Sevgimin keçdiyi zülmətləri bir-bir çözəli.

*«Gülüşmək nə demək?»*

* * *

Bayatılar! Sinə dağı, göz dağı,
Məhəbbətin tüstülənən ocağı.
Bir millətin kimliyini bildirən,
Nəfəsindən ləpələnən bayrağı!

Bayatının boyasına boyandım,
Söz - qibləmdir, söz - eşqimdir, söz andım.
Bayatının tilsiminə düşüncə
Vallah şair olduğuma utandım.

*«Bayatılar»*

* * *

Axı mən neyləyəydim, gəldi hər an üz-üzə
Xəyaldakı istilik, həyatdakı soyuqluq.
Balıq üçün xəyalım dənizə yox, gölə yox,
Demə, suyu çəkilmiş quru çaya tor atmış,
Xəyalla yaşamaq da bir başqa cür həyatmış.

*«Xəyalla yaşamaq»*

* * *

Dirənib ərşə zülüm, indi ümid Allahadır.
Biz udurkən də uduzduq, bu həyat əjdahadır.
Bir məzarlıq yer üçün satmalıyam öz damımı
Ölümün qiyməti, vallah, yaşamaqdan bahadır.

*"Ümid Allahadır"*

# «BİR ÖMÜR YUXU» KİTABINDAN

* * *

Niyə çağırıram mən səni tez-tez?
Sən ki, içimdəsən hər zaman, Allah,
Ağıldan xəbərsiz, başdan xəbərsiz
Yuxumda danışan ağlımsan, Allah.

Bu görünən aləm - bu yer, bu torpaq,
Var ikən yox olar bircə anda da.
Dünya varlığında yox ikən, ancaq
Sən varsan, ey Allah, yoxluğunda da.

*"Ay Allah"*

* * *

Divarı təməldən çəp hörənlərik.
Sabahı nə duyan, nə görənlərik.
Gələni çəpiklə qarşıladıqca
Gedəni təpiklə ötürənlərik.

*"Özümdən özümə şikayət"*

* * *

Ləyaqət, mətanət sıxıldı küncə
Yaşamaq naminə yaşadıqca biz.
Qürur mədəmizdə əridilincə
Ürəkdən yuxarı qalxdı mədəmiz.

Güzəran naminə doğuldu gerçək
Yalana əl çaldı şərəf də, şan da.
Bəy, xan qürurumuz yolçu payı tək
Paylandı didərgin çadırlarında.

Gedən torpaqları qaytarmaq üçün
Savaşa bilmədik, sülh öyündük.
Babamız qurd idi,
ancaq biz bu gün.
Əllərdən ot yeyən quzuya döndük.

Nə ilə bitəcək bu dərdin sonu?
Bunu deyə-deyə dərddə boğulduq.
Papağı başlardan çalan oğrunu
Yoxsa, qəbiristanda gözləyən olduq?

*"Özümdən özümə şikayət"*

* * *

Quranı dinlədim, nura boyandım,
Dili qanmasam da, mənanı qandım.
Düşdüm birdən-birə səsin sehrinə,
Anlaya bilmədim onun sehri nə?
Səsin alovuna büründü aləm,
Bir onu bildim ki, tilsimlənmişəm.

İşıq bu dünyanı göstərir bizə,
Özü cism kimi görünmür gözə.
O necə gizlidir, o necə aşkar?
Allah kəlamı da beləcə gizli,
Beləcə aşkar.

*"Qeybdən səs"*

* * *

Gecə bir sirr kitabı, doğdusa ay, qəm eləmə,
O, ürək sirrini insana varaqlar gecənin.

Bəxtiyarlıq nə imiş? Zil qara zülmətdə işıq!
İşıq olmazsa, müdam gözləri ağlar gecənin.

*"Gecənin"*

* * *

Ölənin qəbrinə qan-yaş axıdıb ağlaşırıq.
Nə bilək, bəlkə şərəf, bəlkə fəzilətdi ölüm.

Bəşər ölməzsə, bu dünya təzələnməz. qocalar,
Bütün insanlıq üçün bir ədəbiyyətdi ölüm.

*"Ölüm"*

* * *

Mən istəyirəm, uymaya şeytana bir anlıq,
Qulluq edə insafına, vicdanına insan.

İnsanlığı nadanlığa qurban verəcəkdir,
Aldandısa nəfsin dəli şeytanına insan.

Allah dedi: Yalnız ona bəxş etdiyim ağlın
Yüksəlməli son həddinə, imkanına insan.

*"Şeytanla Mələyin dialoqu"*

* * *

Qamçı kəlin belində
şırım açır şaq-şaraq!
Kəllə birgə babam da əzab çəkirdi,
ancaq
Babam taxıl eşqinə,
Bəs kəl nəyin eşqinə?
Mən sonralar anladım:
Qanmamağın eşqinə, bilməməyin
eşqinə.

*"Bilməməyin eşqinə"*

* * *

Dedilər: "Ağıllı "bəli" deyəndir".
Dedilər: "Son gülən səbr eləyəndir,
Ən böyük arzular səbrdən keçir.
Yay qışdan, söz səsdən, min-birdən keçir".

*"Dedilər, demədilər..."*

* * *

Dedilər: "Tələsən təndirə düşər,
Çıxmağa çalışma öz çanağından".
Dedilər: "Səbrlə bəsləsən əgər
Atlas geyinərsən tut yarpağından".

Dedilər, səbrdir bir elmin başı,
Səbrlə quruyar ancaq göz yaşı.
Dedilər, Allahın adıdır səbr,
Səbrsiz bir ağac, bir gül göyərmir.

Amma demədilər, səbri din kimi
Qəbul eləyənlər ölər acından.
Namus tapdananda
                                        bir xain kimi
Səbri asmalısan dar ağacından.

*"Dedilər, demədilər..."*

* * *

Günahları dəfn elədim,
Məzarına baş daşıyam.
Günahlarım ölən andan,
Savabımın yaşdaşıyam.

*"Günah-savab"*

* * *

Tarix boyu insan can atıb məchula doğru,
İdrak durub aşkar ilə pünhan arasında.

Yerdən top atır sonsuz olan göylərə idrak,
Çırpışmaya bax, sirr ilə insan arasında.

İnsan bu qədər güclü ikən yerdə rəzalət!
Sən sülhə bax, arif ilə nadan arasında.

*"Nəfs-vicdan"*

* * *

Gecə yarı yağış yağır,
Göy gurlayır, şimşək çağır.
Yarıb qatı qaranlığı
Göy bir anlıq yerə baxır.

*"Şimşək"*

* * *

Bu gülünc arzuya mən güldüm düzü,
Yaşamaq mümkünmü müqəvva kimi?
Arzusuz yaşamaq! Bu istək özü
Məgər başqa cürə arzu deyilmi?

*“Arzusuz yaşamaq arzusu”?*

* * *

...Heç demə, dünyada gözəlliyin də
Özünün məqamı, vaxtı var imiş.
Dağ-daş da dəyişir mövsümlə birgə.
Qocalıq elə bir zəhrimar imiş,
Ruhu da qocaltmış cismimlə birgə.

*“Ruh da qocalarmış...”*

# «PAYIZ DÜŞÜNCƏLƏRİ» KİTABINDAN

* * *

Hər gün təzə uçuş... təzə bir arzu.
Dolur,
Təzələnir ürək günbəgün.
İnsan qocaldıqca nə sirrdir bu?
Ürək cavanlaşır arzular üçün.
İmkanla arzumuz vuruşan zaman,
Ruh - əzab çəkəndir,
Yaş - barışdıran.

*"Payız düşüncələri"*

* * *

Hər kədəri səadət, hər sevinci qəm izlər,
Əsil könül həm qəmi, həm sevinci əzizlər.
Təlatümsüz ürəklər qovuq kimi boş olur,
Daim sevinc axtaran daim qəmə tuş olur.

*"Dağda şəlalə kimi..."*

* * *

Eşq olsun nifrəti açıq düşmənə!
Qəsdi bilinməyən dostdan əlhəzar!
Düşmənin nifrəti təkandır mənə,
Dostun soyuqluğu ürək yandırar.

“Dünyaya gəlmişik, dolanaq”, - dedin.
Ancan bir mətləbi qana bilmədin!
Yaşamaq məqsədə çevrilən zaman
Yaşaya-yaşaya yaşamır insan.

*“Yaşaya-yaşaya yaşamayan var”*

* * *

Bəşər tarixində bəlalı insan,
İki qütb önündə çox dayanıbdır.
Haqdan yapışanlar keçib həyatdan,
Həyatdan qopmayan haqqı danıbdır.

*“Qaliley”*

* * *

Ana dili - ruhumuz, eşqimiz, canımızdır,
Bu dil - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil - tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil - əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir... onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

*"Ana dili"*

* * *

Həmişə qaraya ağ deyən qara
Ağın əllərilə dara çəkilmiş.
Vaxt özü döndərir mıxı mismara,
Vaxtın yazdığını kim poza bilmiş?

Dərs varmı tarixin dərsindən artıq?
Bizi tapdadılar... yenə cücərdik.
Əgər özümüzə inanmasaydıq
Uçurum dərələrdən necə keçərdik?
İnamdır yaşadan bizi, ey ustad,
O bizi yaşatdı, biz də arzunu.
İnam ölməyibsə qurtarmır həyat,
Həyatın sonudur inamın sonu.

*"Eyni yaşdayıq"*

* * *

Dedim: - Vaxtın axarında
Gecə, gündüz silsilədi.
Bu gecələr
Lap nə qədər
Uzun olsa
Səhərlərə hamilədi.
Mıxı mismar eləyən var...

*"Yaman sıxır gecə məni..."*

* * *

Sevirəm, qorxağın şücaətini
O qeyrət doğacaq
O, qeyrət ancaq!

Sevirəm nifrətin lap son həddini,
O, sevgi doğacaq,
O, sevgi ancaq!

Sevirəm zülmün də məşəqqətini
Ədalət doğacaq,
Ədalət, ancaq!

*"Sevirəm"*

* * *

Ey könül!..
Elə bil ki, sən dağların başında
ucalan bir qayasan.
Sən özünü,
Gözünü
Heç bir zaman yummayan
Bir sıldırım qaya san!
Gecələr yatmaq olar!..
Çalış ki, sən çalış ki,
Həyatda yatmayasan!..

*"Gecənin sağlığına"*

* * *

Elə danışdın ki,
Gördüm bir ara
Sükutu işıqda, sözü kölgədə.
Cümlə sonundakı pauzalara
Bir dilin lüğəti sığar bəlkə də.

*"Pauzalar"*

* * *

Elə yaxşılığı, at dəryaya sən.
Balıq bilməsə də xalq biləcəkdir.
Özünü düşünən düşər nəzərdən,
Özgəni düşünən yüksələcəkdir,
Yaxşılıq,
yaxşılıq,
yenə yaxşılıq!
Bəzən bir yaman söz min könül qırar.
Xoş söz,
yaxşı xəbər,
xoş rəftar, qılıq
Yaman adamı da yaxşılaşdırar.

*"Yaxşı söz"*

* * *

"Bəxtim, mənə yar ol", deyib çağlaram,
Yar olmasa, di bəxtiyar ol görüm.
Gələcəyə ümidimi bağlaram,
Bir an sonra nə olacaq, bil görüm.
Yaz ayları qaqqıldayan selmisən?
Bu dünyanı oyuncaqmı bilmisən?
Həyat səni güldürəndə gülmüsən,
Hünərin var, ağladanda gül görüm.

*"Böl görüm"*

* * *

Gözlərim itiykən görmürdüm hələ,
Görmürdüm içini bər-bəzəklərin.
İndi zəifsə də, baxmadan belə
Hər şeyi görürəm dərindən dərin.

*"Görə bilmirəm"*

* * *

Mənim həyat ilə ilk tanışlığım,
Əlimi yandıran
Oddan başladı...

Oxşadı gözümü hələ uşaqkən,
Ocağın al-əlvan alovu, közü.
Dünyaya gələli, bilmirəm nədən,
Nəyə vurulduqsa yandırdı bizi...

Mən oddan qorxmadım yanana qədər;
Mən qorxu bilmədim qanana qədər.
Elə ki, yandım,
Odla oynamaqdan qorxdum, dayandım.
Başlandı qorxu -
başlandı ehtiyat,
başlandı həyat...

*"Qorxu"*

* * *

Məscid başdan-başa bir xəzinədir,
Yatır İmam Hüseyn daş-qaş içində.
Əgər imam haqsa, bu bəzək nədir?
Bəzəyə möhtacmış, imam da, din də...
Dünyanın qəribə təzadları var:
Aclardan toxlara düşərmiş nəzir...
Daş-qaş içindədir ölü imamlar,
Diri övladları lüt-üryan gəzir...

*"Aclardan toxlara"*

* * *

Söz - həmişə
Ədalətin düşmənilə
vuruşacaq!
Söz - yerlərdə sürünməmiş,
Dodaqlarda çiçək açmış.
Doğru sözün qabağında
Yalan sözün rəngi qaçmış.
Söz - nəbzidir,
haqq səsidir zəmanənin,
aynasıdır zəmanənin.

*"Şairləri öldürürlər"*

* * *

Ağ tellər - uğursuz sevginin qəmi,
Məndən gileylərin, şikayətlərin.
Ağ tellər - bürküdən yanan ot kimi,
Bir damcı yağışa möhtacdır yəqin.
Ağ tellər - qayğılı, dərdli ömürdən
Durna qatarı tək uçan günlərin.
Ağ tellər - izidir ağarır dən-dən,
Ağrılı günlərin, yaman günlərin.

*"Ağ tük"*

* * *

Payıza bənzərik, payıza ancaq.
Ürək o ürəkdir,
Hava buz kimi.
Soyunur ağaclar, tökülür yarpaq,
Rəngini soyunan duyğumuz kimi.

*"Ağ tük"*

* * *

Mən bir qəm daşıyam,
Qəlbinə dəydim.
Nə imiş bu dünya qəmsiz, kədərsiz?
Gördüyün yuxunu mən də görəydim
Səninlə bərabər, səndən xəbərsiz.

*"Yuxuma gəlmişdin"*

* * *

Döz mənim ürəyim,
Dözümdür əlac.
Harayda nə fayda,
Hayda nə fayda!
Qışın şaxtasına dözməyən ağac
Yazda çiçəklənməz, belədi qayda!
Bilmirəm payızdı, bilmirəm, yaydı,
Könlümdə yenə də sellər.
Bulaqlar dağlarda ağlamasaydı,
Qəhqəhə çəkməzdi dərədə sellər.

*"Ağardı saçlar"*

* * *

İstini yaz bildim, yaz açılmadı.
Vaxtsız açan çiçək xar olmalıymış.
Qanunsuz ananın analıq adı
Elə qanunsuz da pozulmalıymış...

Ümidə yas tutub ağlayır güman,
Xeyiri şərləyir, şərə "dost" deyir.
Sevilib sonra da atıldığından
O da balasını atmaq istəyir.

Əgər qaynağından su bulanırsa,
Bulaqlar başına nə kül tökməli?
Atanın, ananın günahı varsa
Onun cəzasını övlad çəkməli?

Bir oxun başına necə dolanır
Niyyətin qarası, arzunun ağı.
Bir insan ürəyi xoşbaxtlıq sanır
Bayaq itirməyi, indi tapmağı.

*"Atılmışlar" poemasından*

* * *

Yüz rəngli, yüz səsli istəyimizlə
Bir saat içində yüz adamız biz.
İlkini başladın, sonunu gözlə,
İnkarla təsdiqdə bütöv, tamıq biz.

Həyat nə oyundur, nə də oyuncaq,
Dandığın gerçəyi gerçək bil yenə.
İnsan bir əlilə yandırır,
ancaq,
O biri əlilə vurur dizinə.

Bəs körpə,
Nə yazdı bəxtinə rüzgar?
Körpələr evinə verdilər onu.
Atalı, analı yetim balalar
Yaxşı ki, bilməyir atıldığını.

*"Atılmışlar", "Körpə"*

* * *

Köhnəlik - qaynana,
Yenilik - gəlin!
Hərə öz fikrində haqlı,
həm doğru!
Gələn yeni ilə gedən köhnənin
Sonu görünməyən döyüşüdür bu.

Gəlin qaynananı bükdü bucağa:
- Gözünü dünyaya yaxşı aç, - dedi.
İndi mən sahibəm, mən, bu ocağa.
İşə bax!
Yerliyə yersiz qaç, - dedi.
Köməyə çağırdı ana oğlunu.
Oğul danışmadı...
Durdu kirimiş.
Ana bilmədi ki, bu imiş sonu,
Gəlin gələn kimi oğul itirmiş.

*"Qoca"*

* * *

Oğul arvadına haqq verdi yüz yol,
Ananın könlündə düyünləndi daş.
Bir deyən olmadı, ay dönük oğul,
Axı üz var idi, saqqal çıxmamış.

Ümidlər, arzular gördü talanmış,
Ayıran dırnağı ətdən ayırdı.
Bir deyən olmadı, a canı yanmış,
Axı diş yox ikən dodaq ki vardı.

Ürək ağrılarla dolub daşanda
İnsan başdan-başa gileyləşərmiş.
Yad qızı ocağa doğmalaşanda
Doğmalar get-gedə ögeyləşərmiş.

*"Atılmışlar"*

* * *

Bu dünya belədir,
                        Götürə bilmir
Saxta bir bəzəyi, saxta bir süsü.
Nəfs artıq tikəni ötürə bilmir,
Gərəklik - insanın dəyər ölçüsü!

Uşaqtək baxırıq oğula, qıza,
Bilmirik, böyüyür ilbəil övlad.
Rahat yaşamaqçün
                        Sabahımıza
Dünən verdiyimiz borc deyil övlad.

Övlad - sevgimizdən göyərən nübar,
Təzədən yaradır övladlar bizi.
Odur ki, borcunu deyil,
                        qoy onlar
Bizə qaytarsınlar öz sevgimizi.

Ay ana, asandır borcu qaytarmaq,
Sevgini qaytarmaq çətindən, çətin!
Övladlıq borcunu ödəmək ancaq,
Əvəzi deyildir hələ sevginin.

*"Qoca"*

* * *

Gənclik - arzuların uçuş nöqtəsi,
Qocalıq - qonduğun sonuncu məskən.
Sənə pıçıldayır, ömrün zirvəsi,
Düşün, nəyi nəyə qurban vermisən?

Çiynindən düşdümü həyatın yükü,
Həyatın ləzzəti bitdi büsbütün.
Arzular eşqinə yox, bunu bil ki,
İndi yaşayırsan yaşamaq üçün.
Ölüncə bu yükdən həzər eyləmə!
Gileylənmə gəl.
Çək onu ürəklə!
Həyat, sən demə
Həyatın yükünü çəkərkən gözəl!

*"Qocalar evi"*

* * *

Küçənin bu tayı - körpələr evi,
O tayı - qocalar sığınacağı.
İnsan möhtac olur başqalarına
Bir ömürün ilk çağı, bir də son çağı.

Möhtac olan vaxtda möhtacı atmaq?
Bu, hansı kitabda yazılıb deyin?
Vicdanı unutmaq, insafı satmaq
Bəlkə ölçüsüdür müasirliyin?

İnsanı yaşadar insana hörmət!
Uzun yaşamağın sirri –
yurdumun
Nə torpağındadır,
Nə də suyunda.
Kiçiyə mərhəmət, böyüyə hörmət!
Səbəbi bundadır, səbəbi bunda!

*"Körpələr evi"*

# «KÖRPÜ ÇAYDAN UZAQ DÜŞÜB» KİTABINDAN

* * *

Bezdilər,
           Tez yorar düşüncələr də,
Nəfəsini verib dərd udar insan.
Özündən başqası olmayan yerdə
İnsan olduğunu unudar insan...

Yarpağı tez solar tək ağacın da,
Arxası yoxdursa, necə solmasın?
Meşələr sultanı, meşələr şahı
Aslanın özü də yalqız olmasın.

Dünyaya gəlmədik biz əbəs yerə,
İnsanıq, insan da bizə gərəkdir.
Bağatək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir!

*"Təklik"*

* * *

Çay çaya qovuşmaz sular daşmasa,
Ulduzun ulduzla ünsiyyəti var.
Göydə buludlar da qoşalaşmasa,
Nə ildırım çaxar, nə yağış yağar...

Öz el-obasını tərk etdiyindən
Tək-tənha dolanır bayquş bu gün də.
Kolların dibində tək bitdiyindən
Boynu bükük olur bənövşənin də.

*"Təklik"*

* * *

Bizim sənət dünyasının
Qırıq telli sazıyam;
Bircə bundan razıyam ki,
Özümdən narazıyam.

*"Özümdən narazıyam"*

* * *

İndi düzü budur ki, qorxuram, qorxuram mən
Yalan desəm Tanrıdan, doğru desəm bəndədən.

*"İki qəbahət"*

* * *

Dərdim olmasaydı, dərd tutmaq üçün
Dərdin dəryasına tilov atardım.
Sevinci qaşıyıb, vallah, mən hər gün
Sevincdən özümə dərd yaradardım.
Əgər olmasaydı dəryaca dərdim,
Dərdin yoxluğunu mən dərd edərdim.

*"Qəm-şadlıq"*

* * *

Çox əyilən görmüşəm əyilməyən başları.
Sular duruldu, gördük dibindəki daşları.
Ünvamnı dəyişdi dünənin alqışları;
Niyə də dəyişməsin, axı dünya fırlanır.

*"Axı dünya fırlanır"*

* * *

Necə dönür bu dövran, necə dönür bu gərdiş,
Tazıların üstünə dovşanlar da gülərmiş.
Dünya bina olandan hər şey dəyişilərmiş,
Dəyişməsin neyləsin, axı dünya fırlanır.

*"Axı dünya fırlanır"*

* * *

Ehtiyat sözündən ehtiyatlıyam,
Ehtiyat - hər yerdə ehtiyac olmur.
Hər sözdən özünü qoruyan ilham
Ayaqda sürünür, başda tac olmur.

Sənətin, ilhamın, eşqin gur səsi
Qorxaq ürəklərdən niyə gen düşür?
Ehtiyat güdəndə, sözün gülləsi
Həmişə hədəfdən didərgin düşür.

*"Ehtiyat"*

* * *

Yolu gedə-gedə addım sayanlar,
Yolunuz yarıda niyə səhv olur?
Ancaq cəsarətlə addımlayanlar
Ya hər şeyi alır, ya da məhv olur.
Ehtiyat - birtəhər baş dolandırmaq,
Cəsarət - ya həyat, ya ölüm ancaq!

Ehtiyat vergüldür, nöqtə deyil, yox!
Ehtiyat çalardır, rəng ola bilməz!
Deyirəm, dünyada bir qəhrəmanlıq
Kölə ehtiyatdan doğula bilməz.

*"Ehtiyat"*

* * *

Min il yaşasan da, doyammaz ürək.
əcəldən qaçammazsan,
Gələcək bir gün!
Vaxtında…Vaxtında öləsən gərək
Eşqində əbədi yaşamaq üçün.

*"Vaxtında"*

* * *

Günəş sirr, ay da sirr,
Ulduzlar da sirr.
Nə vaxt açılacaq bu sirr düyünü?
Ağlın kiçikliyi qavraya bilmir
Xaliqin ölçüsüz böyüklüyünü.

*"Etiqad-inam"*

* * *

Yollar çulğalaşdı içimdə birdən,
Bilmədim hansıyla hara gedim mən.
Tutdu bu yolları gah qar, gah dolu,
Bir vaxt ayıldım ki, sağım sol imiş.
Dünyanın ən uzun, ən çətin yolu
Mənim öz içimdən keçən yol imiş.

*"İçimdən keçən yol"*

* * *

Bu tayda sən, o tayda mən,
Üzəmmədim bu çayda mən.
Ömür əritdim harayda mən,
Körpü çaydan uzaq düşüb.

*"Körpü çaydan uzaq düşüb"*

* * *

Havanın bolluğu hələ bəs deyil,
Suyun yoxluğuna o əvəz deyil.
Suyun çoxluğunun fərqinə varmaz.
Hava yoxluğundan hər an dad çəkən.
İkisi vəhdətdir... həsəd aparmaz
Suda boğulana susuzluq çəkən.

*"Su-hava"*

* * *

Cavanlıqda -
Əllər uzun, dillər qısa.
Qocalıqda -
Dillər uzun, əllər qısa.
Cavanlığa -
Günlər qısa, illər uzun.
Qocalıqda -
Günlər uzun, illər qısa.

*"Cavanlıq-qocalıq"*

* * *

Gözləri görməyən kor deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.
Belə müqəvvəya, belə cahilə
Həyatın özü də qordur, deyərdim.

*"İki kor"*

* * *

Bu çarxı tərsinə çevirib öncə
Bu gündən keçmişə dönə biləydik.
Biz uşaq doğulub qoca ölüncə
Kaş qoca doğulub uşaq öləydik.

*"Tərsinə"*

* * *

Zaman hər məkana təzə iz salır,
Xəzana çevrilir dünənki oylaq.
Məkanlar dəyişir, təzə rəng alır,
Hər zaman var olan zamandır ancaq!

*"Zamandan kənar"*

* * *

Sevinc - ağ, qəm qara! Həqiqətsə bu!
Bəs niyə yananda şam gözəlləşir?
Dərd, ələm sevginin yol yoldaşıdır,
Di gəl ki, sevəndə qəm gözəlləşir.
Kömür boyananda atəş rənginə
Üzü həm qızarır, həm gözəlləşir.

Kökünü, soyunu bəyənməyən kəs
Axmazdan su içər, qaynaqdan içməz.
Dünyada bir heyvan, ulaqdan özgə
Yolda dədəsindən irəli keçməz.

*"Nə uzun, nə gödək"*

* * *

Küyə getmə, sən bu qədər,
Yelə vermə ömrü hədər.
Kimə gərək yalan sözlər?
Sözün gücü düzündədir.

Zaman ilə ver səs-səsə
Heç olmasa bu sindəsə...
Dürr dənizin dibindəsə,
Çör-çöp suyun üzündədir.

*"Günah əsrin özündədir"*

* * *

Gücün var - haqlısan! Gəl, döz bu dərdə,
Haqqın düzlüyünə zor gülür indi.
“Gəldi bic əyyamı”... məsafələr də
Çəki daşı ilə ölçülür indi.
Zorun qabağında hamı müntəzəm,
Haqq bəzən dilənib qapılır gəzir.

*“Gəldi bic əyyamı”*

* * *

Haqsıza döndərdi, bu gün haqq bizi,
Zora nə qanun var, nə haqq, nə yasaq,
Vaxt öz qanımızda boğacaq bizi
Bu “bic əyyamı”na uyğunlaşmasaq.

*“Gəldi bic əyyamı”,*

* * *

Hökmdar zamandır...onun dunyada
Hər şeyi tərsinə devirməsi var.
Dünənki şagirdi bu gün ustada,
Ustadı şagirdə çevirməsi var.

*“Yevtuşenkoya məktub”*

* * *

Zülmətdə yanan, bərq vuran bir üzüyəm mən,
Könlümdə yatan bir kitabın ön sözüyəm mən.
Yox, açmamışam mən hələ öz könlümü aşkar,
Mən mən deyiləm, bir ulu fıkrin özüyəm mən.

*"Güzgüsüyəm mən"*

* * *

Min kitab söz yazırıq qəlbi usandırmaq üçün,
Bəs edər bir acı söz min ürəyi qırmaq üçün.

Dil qabar bağladı, bir nadana dönnəm mən özüm
Bir kiçik mətləbi bir nadana qandırmaq üçün.

Səltənətdən keçər axır günü sultanlar özü,
Bircə dəm, bircə nəfəs vaxtı yubandırmaq üçün.

*"Üçün"*

* * *

Ötəri mənzildə qədər hökm edər,
Kimimiz bal içər, kimimiz zəhər,
Əbədi mənzildə hamı - bir nəfər,
Bir nəfər özü də hamı deyilmi?

*"Deyilmi!"*

* * *

Həqiqət ummadım min üzlü bəlkədən,
İnkarla təsdiqin arası bəlkədir.
Yalanın, doğrunun bütövü gözəldir,
Gerçəyin yarısı, parası bəlkədir.

Bəlkənin dadı yox, duzu yox, sözü var,
Gözə kül üfürür, dalında közü var.
Özü bir kəlmədir, bətnində yüzü var,
Utanan gerçəyin çarası bəlkədir.

Uymasın yuxuya şirincə yuxular,
Uyanın arzusu puç olar, yox olar.
Mərdlərin ya "hə"si, ya da ki "yox"u var,
Namərdin, qorxağın tanrısı bəlkədir.

*"Bəlkədir"*

* * *

Qar-qar qarıldaşır qara qarğalar,
Qar üstdə ağ qarğa görünə bilmir.
Əyrinin qılıncı, düzün haqqı var,
Amma düz, əyridən bu gün seçilmir.

*"Ad günün mübarək"*

* * *

Gül kol imiş, sol sağ imiş
Haqq - gerçəyi danmaq imiş.
Xoşbəxtlik aldanmaq imiş
Mən aldanmaq istəyirəm.

*"Mən aldanmaq istəyirəm"*

* * *

Nə deyər dilbilməzə,
Bir eşqə can verməzə.
Şərəfdir hər bir kəsə
Ölmək, bu torpaq üçün.

*"Bu torpaq üçün"*

* * *

Pis günümüz yada düşmür,
Yaxşı gündə güləndə biz.
Tamlaşırıq, kiminləsə
Dərdimizi böləndə biz.

*"Oyanırıq öləndə biz"*

* * *

Hissin öyrətdi mənə nəşədə nə, qəmdə nə var
Mənə sən vermisən ilk öncə könül ləzzətini.
Səni görməzsə gözüm, bilmərəm aləmdə nə var
Mən ki, qoynunda sənin gördüm həyat cənnətini.

*"Həyat cənnəti"*

* * *

Torpaq son yuvadır, torpaq son binə,
Dedim torpağımsan, gəldim səcdənə.
Ömrün son çağında əyildim sənə,
Əyilər torpağa gün batmaq üçün.

*"Gün batmaq üçün"*

# KİTABIN İÇİNDƏKİLƏR


**İnsan zamanla barışmazsa... *(Ramazan Qafarlı)*** 3

## ƏLVAN ÇİÇƏKLƏR

Salam olsun bahara 17
Əl açdıq göylərə 20
İki səyahət 21
Gülüstan - Qarabağ 24
Ümid, xəyal 26
Səsini eşitdim 27
Körpü salmaq istəyirəm 28
Yalan - gerçək 30
«Səhər erkən çıxır...» 31
«Sən elə unut ki...» 32
Sualım yoxdur 33
Sualımız yoxsa... 34
«Gah güləş...» 36
Demə, könlümdəsən... 37
Tapınmaq 38
Tələ 39
Çətin addım 40
Şusmaq 41

Təsəllim 42
Təbəssüm ordeni 43
Üçüncü göz - könül gözü 44
Demə, min rəngi varmış 46
Getsən, gəlsən 47
Rica 48
Dünya bir qatar 49
İlisu 51
Səbəbsiz kədər, səbəbsiz qəm 52
Könüllü məhkum 54

## İNSAN VƏ ZAMAN

İnsan 57
Amal, inam 58
İlk və son dərdim - Vətən 59
Gecikmişəm 61
İki günün bir-birinə bənzəsə... 63
İnam 64
Xeyir-dua 66
«Bir gizli nizam var...» 71
Dibçək gülləri 72
Bir şey umardımmı? 74
Səhv edəndə 75
Qana bilmədi 77
Gül 78
«Bu dünyadan...» 79
Ahin dağlara 80
Ağlını dinlə 81
Təkəm mən 83
Döndüm 86

«Son görüş» («Mühakimə») poemasından parçalar 88
Səninlə 93
Nicat (Yalçının son məktubu) 95
Nə fərqi varmış 96
Yuxu 98
Hardan bilək 99
Özüm suala döndüm 101
Mənim ana dilim 103
Əyribel suallar 105
Hardan biləydim 106
Tanıtma özünü 108
Aura 109
Özümlə söhbət 110
Ölümlə üz-üzə 113
Bir sirdaş istəyirəm 117
Neylim? 118
Röyada gizlənqaç 120
Hər kəs özü kimi 122
Tufansız, fırtınasız 124

## HƏSRƏT NƏĞMƏLƏRI

Küsmə 127
Sənə deyəsi 129
Ərşlə fərş arasında 130
Yetim ürəyimin səsini dinlə... 131
Sənsizlik, mənsizlik 133
Sənin səviyyən 135
Heyranlıq 137
Sən bir həzin nəğməsən 139

## QOŞMA, GƏRAYLI

Dünya yaman dünyadı 141
Haqqa nicat aradım 142
Eşqində yanan ürəkdir 143
Göydə görən var 144
Toy və yas arasında 146
Xeyirlə şər arasında 148
Lay - lay 150
Nədir etiraf? 152
Allaha gedən yol 153
Cavabsız sual 154
Qandınsa 156
Bədbəxtlik 157
«Ömrün neçə-neşə pillələri var...» 158
Qitələr 159
Gördüklərim 169
Gördüm 170
Sənin ucalığın 171
İdeal 172
Gəlin 174

## MÜXTƏLİF SƏBƏBLƏRDƏN CİLDLƏRƏ DÜŞMƏYƏN VƏ YENİDƏN İŞLƏNƏN ŞEİRLƏR

Vətən marşı 175
Azan səsi 176
Görən niyə təklənirəm? 178
Əşyalar danışır 179

Doğum haqsız, ölüm haqlı 181
Zahirə baxma 182
Belə getsə 183
Ah (yeni variant) 184
Məktub 186
Baş daşında saat 188
Öndə işıq var 190
Göz özünü görmür 191
Mən dərddən qaçanda 193
Zülmətdə oyağam, işıqda yatmış 195
Gözümü yumsam da... 196
Yaxşı ki, bilmirik... 198
Sevincin zirvəsi, dərdin zirvəsi 200
O qədər qorxuram ki... 201
«Uzun illər boyu öz vətənindən» 202
Kökündən xəbərsiz 203
Eyni ola bilərmi? 205
Ətir-çətir 206
Yer, göy 207
Olmaz 208
"Məni məhkum eyləyən" 209
Gözəl bir xəbər 210
Söndür, çırağı söndür! 211
Verərdim 212

## QANADLI MİSRALAR VƏ AFORİZMLƏR

Əsərləri, I cild 215
Əsərləri, II cild 235
Əsərləri, III cild 285
Əsərləri, VI cild 301

Əsərləri, V cild 330
Əsərləri, IV cild 354
Əsərləri, VII cild 417
“Ağ atlı oğlan” kitabından 466
“Fəryad” pyesindən 469
“Ağıl başqa, ürək başqa” kitabından 470
“Bir ömür yuxu” kitabından 473
“Payız düşüncələri” kitabından 481
“Körpü çaydan uzaq düşüb” kitabından 498

**BƏXTİYAR VAHABZADƏ**

**ƏSƏRLƏRİ**

**On iki cilddə**

**VIII cild**

***(Son illərdə yazılmış, müvafiq cildlərə düşməyən və yenidən işlənən şeirlər)***

*«Qafqaz Plus» MMC-də hazırlanmışdır.*

*Bədii dizayneri*
**Xəyyam Əliyev**

*Texniki redaktorları*
**Adilə Osmanova,**
**Ləman Qafarova**

Çapa imzalanmış 06.01.2009. Kağız formatı 84x108 1/32.
Həcmi 32,38. Tirajı 500. Sifariş 028.
Qiyməti müqavilə ilə.

*Direktor*: **prof. N.B.Məmmədli**
*Nəşrə məsul:* **Əziz Ələkbərli**

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
E-mail: nurlan 1959@yahoo.com
Tel.: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.